İxtisas: Psixologiya

Kafedra: Psixologiya, pedaqogika və sosial fənlər

Fənn: Ailə psixologiyası

Müəllim: Bayramov M.B.

Mühazirə

Mövzu 1: Ailə və gender psixologiyasının mövzusu, vəzifələri, metodları, ailə və nigahın meydana gəlməsinin tarixi şərtləri

---

Plan:

1. **Ailə və gender psixologiyasının mövzusu**
2. **Ailəni kiçik qrup kimi səciyyəndirən xüsusiyyətlər.**
3. **Ailəni kiçik qrup kimi səciyyəndirən spesifik xüsusiyyətlər.**
4. **Müasir dövrdə ailə nigah münasibətlərinin növləri**

Bəşər cəmiyyətinin böyük sosial kəşflərindən və təsisatlarından biri olan ailə insanlar arasındakı qarşılıqlı münasibətləri əks etdirın mənəvi-psixoloji və sosial birliyin spesifik formasıdır. Sosial sistem kimi ailənin sbaitliy cəmiyyətdə onun yalnız spesifik instutsional funksiyasını yerinə yetirməsi ilə yanaşı, həm də özünün daxili psixoloji iqlimindən, mənəvi dəyərlərdən, emosiyalardan, iqtisadi maraq və s. kimi digər amillərdən də asılıdır.

Ailə ər-arvadlıq-valideyinlik-qohumluq əlaqələri ilə bağlanmış və bununla əhali artımını və ailə ənənələrini, varisliyini, həmçinin uşaqların sosiallaşdırılmasını və ailə üzvlərinin mövcudluğunu təmin edən, vahid ümumailə fəaliyyətinə əsaslanan insan toplumudur. Bu münasibətlə rus psixoloqu A.Q. Xarçiyev yazır: "Ailə həyat yoldaşları, valideynlər və övladlar arasında tarixən konkret münasibətlər sistemi, nikah və qohumluq əlaqələri, ümumi məişət və qarşılıqlı məsuliyyətlə birləşmiş, sosial vacibliyi, əhalinin fiziki və mənəvi artımına cəmiyyətin ehtiyacı ilə şərtlənən kiçik qrupdur".

Hər bir cəmiyyədə mədəniyyət və sivilizasiyanın üzvi vəhdəti əyani olaraq ailədə əks olunur. Sosial-mədəni fenomen kimi ailə bütün bəşər mədəniyyəti və sivilizasiyanın, bütövlükdə cəmiyyətin ictimai-tarixi və mənəvi təcrübəsini ehtiva edir. Ailə əsl səmimilik mehibanlıq, qayğıkeşlik tərbiyəsi məktəbidir: anaya, ataya, babaya, nənəyə, qardaşlara və bacılara münasibət insaniyyətin sınağıdır.

İctimai münasibətlər ailədə xüsusi psixoloji mahiyyət xarakteri alır. Cəmiyyət və ailə kimi iki sosisal fenomenin üzvi vəhdəti və qarşılıqlı əlaqəsi insan sivilizasiyasının təkamül yolu ilə inkişafını təmin edir. Maddi və mənəvi-ideoloji münasibətlərin dialektik vəhdəti sayəində ailə ictimai varlıq və ictimai şüurun tərkib elementi kimi çıxış edir. Kiçik qrup və sosial instutlardan biri kimi ailə həm də mühüm bir funksiyanı – sosiallaşma funksiyasını, tərbiyedici – pedaqoji vəzifələri yerinə yetirir. Sosial təsisat kimi yarandığı ilk dövrlərdən etibarən ictimai-tarixi təcrübənin gənc nəslə ötürülməsi ailənin ən mühüm vəzifələrindən biri olmuşdur.

Ailə psixologiyası psixologiyan elminin ailə və nigah problemlərini öyrənən fənlərarası istiqamətlərindən biri olub, sosioloji, iqtisadi, etnoqrafik, tarixi, hüquqi, pedaqoji, demoqrafik və s. tədqiqatlara əsaslanır. Psixologiya elminin bu sahısi ailəyə psixoloji yardım məqsədi daşıyır. Ailəyə psixoloji yardım isə o deməkdir ki, ailədaxili münasibətlərin pozitiv istiqamətə tənzimlənsin, ailə özünün hər bir üzvünə səmərəli inkişaf mühiti yaratsın. Funksional (sağlam) və disfunksional (qeyri-sağlam) ailənin psixoloji xüsusiyyətlərinin öyrənilməsi ailədaxili münasibətlər psixologiyasının ən önəmli problemidir.

Ailə psixologiyası fənlərarası elmi istiqamət olmaqla, ailə sosiologiyası, ailə pedaqogikasl, habelə, iqtisadiyyat, tibb, hüquq, fəlsəfə, etnqrafiya və s. elm sahələrində aparılmış elmi tədqiqatlardan əldə olunan nəticələrə istinad edir və həmin elmlərlə sıx qarşılıqlı əlaqədə inkişaf edir.

2. Ailənin spesifik sosial-psixoloji sistem kimi tədqiqi bir neçə mərhələyə ayrılır:

Birinci mərhələ - Antik dövrdən XIX əsrin ortalarına qədər olan dövrü əhatə edir. Q. Kriatensen bu mərhələni "**sosial darvinizm mərhələsi**" adlandırmışdır. Bu dövrdə ailənin əsas forması monoqram ailə hesab olunur, ailə cəmiyyətin çox kiçik, miniatür nümunəsi, cəmiyyətin özü isə genşlənməkdə olan ailə kimi nəzərədən keçirilirdi. Bu mərhələdə ailə haqqında təsəvvürlərdə sırf nəzəri konsepsiyalar üstünlük təşkil edirdi.

İkinci mərhələdə - (XIX əsrin ortaları-XX əsrin əvvəli) antorpoloqlar və etnoqraflar ailəni aktiv surıtdı öyrənməyə başlamışdılar. Bu mərhələdə onlar çöl tədqiqatlarından və ibtidai cəmiyyətlər üzərində aparılmış müşahidələrdən alınmış geniş empirik materiallara və müqayisəli-tarixi təhlilin nıticələrinə əsaslandırdılar. Qohumluğun müxtəlif sistemlərinin öyrənilməsi patriarxatla matriarxatın nisbəti barədə nəzəri diskussiya ilə nəticələndi. Ailənin tarixinin və matriarxat problemlərinin öyrənilməsinin əsasını isveçrəli tarixçi İ.Y. Bahovfen (1815-1887) qoymuşdur. Onun fikrinə görə cinslər arasında poliam münasibətlər monoqram nikahdan əvvəl mövcud olmuşdur.

Sosioloq C. Mak- Lenan hesab edirdi ki, ailə öz inkişafında üç pillədən keçmişdir: p**romiskuitetdən** (cinslər arasında heç bir şeylə məhdudlaşmayan münasibətlərdən) **analıq hüququndan** və onun vasitəsi ilə **atalıq hüququna** doğru. C. Mak- Lenan və başqaları tədqiqatlar nəticəsində belə bir qənaətə gəlmişlər ki, ailə institutu donuq törəmə deyil,təkamül prosesində uzun inkişaf yolu keçmiş və indi də inkişaf edən sosial sistemdir. C. Mak- Lenan həmçinin elmə **endoqamiya və ekzoqamiya** anlayışları kimi fundomental anlayışları daxil etmişdir.

Üçüncü mərhələ - XX əsrin əvvəllərindən ortalarına qədər davam etmişdir. Krestensen bunu "**spontan elmi mərhələ**" adlandırmışdır. Bu mərhələdə elmdə nikah münasibətlərinin pillələri, formaları, tipləri haqqında emprik məlumatlar toplanmış, bir çox sosioloqların səyləri sosial mühəndislik və ailə münaqişlərinin həllinə kömək göstərilməsi üzərində cəmlənmişdir.

Dördüncü mərhələ - XX əsrin ortalarından indiyə qədər davam edən dövürdür ki, Krestensenə görə bu mərhələ "**mənlik şüuru mərhələsi**" kimi xarkaterizə olunur. Bu mərhələ üçün sosiologiyası və psixologiyası nəzəriyyəsinin planauyğun qaydada yaradılması və kollektiv emprik tədqiqatların aparılması səviyyəsidir.

1980-ci illərin əvvəllərindən ailənin həyat tərzinə, ər-arvadın emosional münasibətlərinə, münaqişələrə, vəzifələrin bölgüsünə, hakimiyyət və nüfuz münasibətlərinə, ailəyə dövlət köməyinə, nəzəri və metodik problemlərə, gənc ailələrə, uğursuz ailələrdə uşaqların tərbiyəsinə, seksual və nikahaqədərki davranış məsələlərinə daha artıq diqqət yetirildi.

Azərbaycanda ailə problemlərinin sosial- psixoloji və pedaqoji aspektdən araşdırılması sahəsində sistemli tədqiqatlara XX əsrin 70-ci illərindən başlamışdır. Bu sahədə diqqətəlayiq tədqiqatların müəllifi professor Ə. Əlizadənin xidmətləri xüsusi qeyd edilməlidir.

3. Ailə psixologiyası hazırda müasir psixologiya elminin müstəqil sahələrindən birinə çevrilmişdir. Sosiologiya, etnoqrafiya, yaş psixologiyası, differensial psixologiya, şəxsiyyət psixologiyası, cinsi fərqlər psixologiyası və s. kimi elm sahələrinin qovşağında meydana gəlmiş ailə psixologiyası ailənin psixoloji cəhətdən öyrənilməısi məqsədini qarşıya qoyur.

Şəxsiyyətin ailə sistemində öyrənilməsi vəzifələrini təmin etmək üçün ailə psixologiyası bir sıra **spesifik tədqiqatlar metodlarına** istinad edir. Bunların sırasında psixolgiya elminin ənənəvi metodları hesab edilən **müşahidə** və **eksperiment** kimi emprik metodların müstəsna rolu vardırş Bundan bşaqa ailənin öyrənilməsi üçün **söhbət – müsahibə, "anagündəlikləri", "əkizlər",** müayinı edilənlərə aid **sənədlərin və onların fəaliyyət məhsullarının təhlili, bioqrafik** (şəxsiyyətin həyat yolu haqqında məlumatların toplanması və onların təhlili), **erkən uşaqlıq xatirələrinin təhlili, uşaqların və yaşlıların əl işləri, silə üzvlərinin xatirələri, yazılı qeydləri və gündəlikləri** başlıca metodlar hesab edilir. Ailənin psixoloji baxımdan öyrənilməsi bu və ya digər metod çərçivəsində

bir sıra **diaqnostik metodlara** istinad edilməsini tələb edir. Bu səbəbdən və tədqiqatın qarşısında duran diaqnostik vəzifələrdən asılı olaraq bir sıra standartlaşdırılmış və standart-laşdırılmamış metodikalardan istifadə edilir.

Ailə problemlərinin öyrənilməsində obyektiv nəticələrin əldə eedilməsi məqsədilə tətbiq olunan metod və metodikaların öyrənilən parametrlərə uyğunluğu, həmçinin nəticələrin etibarlılığı və validliyi tətbiqi zamanı istifadə olunan vasitələr subyektin öyrənilən parametlərinə uyğun olmalı və aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- seçilən metodikalar tədqiqat obyektinin bütün mümkün parametrlər kontekstində kompleks səviyyədə maksimal öyrənilməsinə təminat verməli;
- aşkar edilmiş faktların diaqnostik vasitələrlə kəmiyyət-keyfiyyətcə və müqayisəli təhlili aparılmalı;
- əldə edilən nəticələr obyektiv olmalı və tədqiqatın qarşıya qoyulmuş məqsəd və vəzifələri iləs ciddi ş.əkildə determinləşməlidir.

Tədqiqat prosesində psixodiaqnostik məqsədlə bir sıra məlum mütodikalardan (psixi inkişafda geridə qalan uşaqların ailə şəxsiyyətlərarası münasibətləri) istifadə oluna bilər. Ümumi psixologiyada olduğu kimi ailə psixologiyasında da ən geniş yayılmış emprik metodlardan bir **müşahidədir.** Müşahidə daha qədim psixodiaqnostik metodlardan biridir. Müahidə metodundan başqa sorğu metodundan (şifahi sorğu, yazılı sorğu, anket sorğusu, sərbəst sorğu, standart sorğu, test sorğu), test-tapşırıq, söhbət metodu, konkret situasiyaların təhlili metodu, qrafik proyektiv metodikalardan istifadı olunur.

Mövzu 2. İnsanın həyatında ailənin rolu, funksiyaları, təşəkkülü və tipləri

1. Ailə ər-arvad cütlüyünü və onların övladlarını özündə birləşdirən cəmiyyətin sosial birliyinin ilkin formalarından biridir. Ailə cəmiyyət üçün vacib əhəmiyyətə malik reproduktiv, tərbiyəedici, iqtisadi, psixoloji funksiyalarını yerinə yetirir. Ailənin insanın fiziki və mənəvi sağlamlığında oynadığı əhəmiyyətli rol haqqında çoxsaylı elmi araşdırmalar aparılmışdır. Cəmiyyətdə ailə mühüm sosial təsisatlardan biri olduğu üçün buradakı münasibətlər ailə hüququ tərəfindən tənzimlənir.

Demoqraf, sosioloq, psixloq və etnoqraflar XX əsrin 90-cı illərindən başlayaraq dünyada baş verən siyasi, iqtisadi, sosial və mənəvi proseslərin təsiri nəticəsində ənənəvi ailənin böhran dövrünə daxil olması barədə əsaslandırılmış fikirlər irəli sürürlər. **Ənənəvi ailə** kişinin ailə başçısı olması faktına əsaslanan ailə tipidir. Cəmiyyətdə tarixən qadının tebe vəziyyətdə olması ailədə də onun qeyri-bərabərliyinə səbəb olmuşdur. Ənənənvi ailədə ailə başçısı rolunu icra edən kişi ev sahibi, ailənin bütün tələbatlarını təmin edən və mühüm qərarları verən başlıca fiqur hesab edilir. Bu tipli ailələrdə qadın ailə ocağının qotuyucusu olmaqla v təsərrüfatını idarə edir, uşaq doğur və tərbiyə edir. Uzun əsirlər boyu qadınların əsas fəaliyyət sahəsi ev və ailə hesab olunurdu. Yaxın keçmişə qədər ailə həyatı quran qadınların əksəriyyəti ərə getdikdən sonra iş yerlərini tərk etməli olurdular. İndinin özündə də qadın ərinin razılığı olmadan işləmək hüququnu qoruyub saxlaya bilmir. Ənənəvi ailənin üstünlük təşkil etdiyi cəmiyyətlərdə kişilərin peşə və karyera maraqları, adətən, qadınlardan yüksək olur. XX əsrin sonlarından başlayaraq kişi və qadının hüquq bərabərliyi uyğunda aparılan gender dəyişiklikləri qadınların ailədə olduğu kimi, cəmiyyətdə də iqtisadi rolunu yüksəltmişdir. Yüksək məişət texnikalarının meydana gəlməsi ailədə qadınların əməyini əhəmiyyətlə dərəcədə yüngülləşdirmiş, onlara öz peşə karyeralarını yüksəltmək üçün daha çox vaxt qazanmaq imkanı yaratmışdır.

Cəmiyyətdə həyata keçirilən gender siyasəti və bunun nəticəsi olan kişilərlə qadınların sosial statuslarının bərabərləşdirilməsi öz təsirinə ailə münasibətlərinə də göstərmişdir. Patriarxal ənənəvi ailə zaman keçdikcə öz yerini eqaltar-tərafdaş ailə tipinə verilmiçdir. Eqalitar-tərəfdaş ailə ər-arvad cütlüyünün hüquq bərabərliyi, ev təsərrüfatının bərabər əsaslarda birgə idarə edilməsi, uşaqların tərbiyəsində valideyinlərin birgə iştrak və ailə büdcəsinin formalaşmasında ərlə arvadın hər ikisinin iştraki kimi əlamətlərlə səciyyələnir. Lakin cəmiyyətdə dəyərlər sistemində baş verən dəyişikliklər, ailədən kanar intim münasibətlərin liberallaşması ailə münaqişələrinin kəskinləşməsinə, boşanmaların sayının artmasına, nəticədə natamam ailələrin sayını çoxalmasına səbəb olmuşdur.

Ailənin insanın fiziki və mənəvi sağlamlığında ounadığı əhəmiyyətli rol haqqında çoxsaylı elmi araşdırmalar aparılmışdır. Cəmiyyətdə ailə mühüm sosial təsisatlardan biri olduğu üçün, buradakı münasibətlər ailə hüququ tərəfindən tənzimlənir.Azərbaycanda ailə hüququnun əsas mənbəyi "**Azərbaycan Respublikasının Ailə Məcəlləsi**"dir. Bu məcəllə nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydaları və şərtlərini müəyyən edir, ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda və həddə baçqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi (qeyri-əmlak) münasibətlərini tənzimləyir, habelə valideyn himayəsində məhrum olan uşaqların himayəyə götürülməsi qaydalarını müəyyən edir. Ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məslələrin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

Birgə fəaliyyətin gedişində öz məqsəd və hərəkətlərini başqa adamlarla müəyyən münasibətlərin qurulması məqsədi ilə uzlaşdırılması qabiliyyəti və bacarıqları inkişaf edir.

Şəkil 1.İnsan həyatının sahələri



Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurulmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının şəxsiyyət kimi yetişdirilmələri üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar.

2. Müdriklər çox doğru deyiblər: "Toxumun dəyəri onun məhsuldarlığı ilə, insanın dəyəri isə başqaları üçün gərəkliliyi ilə ölçülür". Bu baxımdan qeyd etmək yerinə düşər ki, insan cəmiyyət üçün dəyərli olan ilkin keyfiyyətləri məhz ailədə qazanır. Ailə ilk tərbiyə institutu olmaqla insanın dünyaya göz açdığı ilk günlərdən daimi və təbii təsir yolu ilə onun xarakterinin baza əlamətlərinin, əqidə

və inamının, dünyagörüşünün formalaşdırılmasının vacib amili rolunda çıxış edir. Ona görə ailənin funksiyalarından biri kimi onun "tərbiyəedici funksiyası"nın fərqləndirilməsi ictimai məna kəsb edir. Ailə ocağının isti və rahat olması, insanın tələbatlarının etibarlı təminatı,dərdə şəriklik, psixoloji və mənəvi dəstək müasir narahat dünyada hər bir insan üçün olduqca vacib amillərdir. Hər bir insan üçün ailə emosional və reaktiv baxımdan stresslərdən, ekstremal vəziyyətlərdən müdafiəyə olan ehtiyacların təmin edilməsi üçün ən etibarlı sığınacaq yeridir. **Ailənin xoşbəxtlik formulu** maddi firavanlıqla sağlam mənəvi münasibətlərin məcmuyundan ibartədir.

Yalnız "ər-arvadlıq-valideynlik-qohumluq" kimi üçlü münasibətlərin mövcudluğu artıq ailənin yaradılmasından ciddi formada danımağa imkan verir. Bu münasibətlərdən birinin, yaxud ikisinin olmaması haçansa məhz ailə olmuş qrupların fraqmentarlığını səciyyələndirir.

Müasir ailə özünəməxsus keçid dövrünü yaşayır. Köhnə , ənənəvi davranış normalları,ər –arvad ,valideynlərlə uşaqlar arasında qarşılıqlı münasibətlərin xarakteri dəyişir.Muasir ailənin insan həyatında məxsusi rolunu qiymətləndirmək oqədər də asan deyil.İnsan dünyaya gəldikdən sonra onun bir çoxn həyatı vacib problemləri ailə səviyyəsində həll olunur:uşaqların sosial oryentasiyası,yaşayış yerinin dəyişdirilməsi, ailədə uşaqların sayı, peşə və sosial mobillik və s.əsasən ailə-nikah münasibətlərinin vəziyyətindən və ailənin tipindən asılı olaraq müəyyən edilir. Yeni nəsillərin istehsalında, nəsilartımı və tərbiyəedici funksiyalarının yerinə yetirməklə ailə həm də genirator, baxışların , əxlaq normalarının, psixoloji ustanovka və davranış nümünələrinin qoruyub saxlamaq rolunu yerinə yetirir. Azərbaycan ailəsinin bənzərsiz dəyərlərində uşaqların tutumlu yeri var. Evin bərəkəti ağsaqqalında,nuru körpəsindədir-deyib ata –babalarımız.Ailənin affektiv mərkəzi uşaqlarla bağlıdır.Ana da onlar üçün yaşayır,ata da. "Səni görüm,övladdan yarayısan"-alqışı elin –obanın ən böyük alqışlardan biridir.Səni görüm,övladından yaramayasan-el-oba bu qarğışa dözmür,əlini göylərə açıb qarğış edənə "dilin- ağzın-qurusun" –deyirlər.

3. Ailə fiziki və mənəvi sağlamlığın, səadət və xoşbəxliyin mənbəyi olduğu kimi sosio-neqativ ustanovkaların: spirtli içkilərə, qumar oyunlarına, narkomaniyaya aludəçiliyin, uşaqlara və qadınlara qarşı zorakı münasibətin, psixi travmaların mənbəyi rolunda da çıxış edə bilər. Cəmiyyədə sosial sabitliyin pozulmasında, cinayət hallarının artmasında əlverişsiz, disfunksional və natamam ailələrdən çıxmış şəxslərin sayı daha çoxdurş Valideynlərin şəxsi nümunəsi və nüfuzu, ailədaxili münasibətlərin xarakteri və ailə tərbiyəsinin üslubu və modeli **ailədə tərbiyə işinin psixoloji əsasını** təşkil edir. Digər sosial institutlardan fərqli olaraq, ailə hər bir insana onun bütün həyatı boyu təsir etmək qabiliyyətinə malikdir. Uşaqların yaşlaşması və onların müstəqil həya başlaması ailəni bir qədər zəiflədərək "boş yuva"ya çevirsə də, onun tam yox olmasına gətirib çıxarmır. Yaşından asılı olmayaraq hər bir kəs həyatının ən çətin məqamlarında öz doğmalarına sığınır, onlardan psixoloji dəstək və qohumluq hissləri alır. Gənclərin ailənin heç nə ilə əvəz edilməsi mümkün olmayan keçici həyati dəyərolduğunu daim anlamalı və bu dəyərə hörmətlə yanaşaraq yaşlı nəslə qarşı qayğı və nəvaziş göstərməlidirlər.

Ailədə harmoniyanın olması hər bir ailə üzvünün iş yerində məhsuldar işləməsinə, diqqətini işinə cəmləşdirməsinə, başının qalmaqal xarakterli gərəksiz informasiya ilə yüklənmədən azad olmasına, qayğı və problemsiz dolğun həyat yaşamasına yol açır. Yalnız məhəbbət və cütlüklərin bir-birinə dərindən bağlı olması, səadət, etibar və məsuliyyət xoşbəxt birgəyaşayışa təminat verir.

Mövzu 3. Ailə və uşaqlar.

Plan

1. **Uşaqlara qarşı münasibətlər**
2. **Uşaqların hüquqları.**
3. **Ailə də qarşılıqlı münasibətlərin uşaqların tərbiyəsinə təsiri**

1. Uşaqlar cəməiyyətdə yalnız demoqrafik kateqoriya, yəni yaşca kiçik, böyüməkdə olan nəsil deyil, həm də sosiallaşma prosesində ictimai münasibətlərə daxil olan xüsusi sosial qrupdur.

Uşaqlara qarşı münasibətin dəyişməsi, uşaq paltarlarında yeni elementlərin meydana çıxması ilə bağlıdır. Orta əsrlər dövründə uşaq müstəqil olduqdan sonra, ona yaşlılara məxsus paltarlar geyindirirdilər. Yalnız XVI-XVII əsrdən başlayaraq uşaqlar üçün spesifik paltarlar meydana gəlmişdir. 2-4 yaşlı uşaqların paltarları cinsi fərqlər nəzərə alınmadan eyni formalı idi. Aries qeyd edir ki, müasir tipli uşaq geyimləri XX əsrin əvvəllərindən hazırlanmağa başlanmışdır.

L.Demos müxtəlif dövrlərdə cəmiyyətdə uşaqlara münasibətin müqayisəli – tarixi təhlilini aparmış və bir neçə mərhələni müəyyənləşdirmişdir.

1. Uşaqların qətli (ən qədim dövrlərdən b.e.-nın IV əsrinədək) dövrü adlanan bu dövr zorakılıq və uçaqların kütləvi qətli ilə xarakterizə olunur. Bu dövrdə ailənin uşağı təmin etməsində maddi amil əsas amil hesab edilirdi. Valideynlər uşaqları bəsləməkdə çətinliklərlə qarşılaşdıqda onları öldürürdülər.

2. Uşaqların tərk edilməsi (IV-XIII əsrlər). Cəmiyyətdə uşağın ruha malik olan bir varlıq hesab edilməsi ilə diqqəti cəlb edir. Bu dövrdə uşağın şərin təcəssümü olması haqqında rəy formalaşır. Uşaqların yad ailələrə, monastrlara verilməsi geniş yayılır. Ailədə iqlim emosional soyuqluğu və ciddiliyi ilə fərqlənirş

3. Ambivalent üslub (XIV-XVII əsrlər). Uşaqlara valideynlərin emosional aləminə daxil olamasına icazə verilir, onlara diqqət yetirilir, lakin onların müstəqil ruhi varlıq olması qəbul edilmir. Uşağa bu cür yanaşma gildən incəsənət əsərləri yaradan heykəltəraşın işinin anoloqudur. Əgər uçaq böyüklərə müqavimət göstərirdisə, onun bədənindəki şəri çıxarmaq üçün damğalayırdılar.

4. Bağlılıq üslubu (XVIII əsr). Bu dövr valideynlərin öz uçaqları ilə psixoloji yaxınlığı ilə səciyyələnir. Valideynlər uşaöın yalnız davranışına deyl, hm də daxili aləminə, düşüncə və iradəsi üzərində tam nəzarətə can atmaları ilə səciyyələnir.

5. Sosiallaşdırıcı üslub (XIXəsr, XX əsrin əvvəlləri). Bu dövrdə tərbiyənin məqsədi uşağı gələcək həyata hazırlamaqdan ibarət idi. Məşqlər və təmrinlər prosesi tərbiyəvi təsirin əsas vasitəsi hesab olunur. Bu münasibət üslubunun əsasında XX əsrdə psixologiyada mövcud olan bir çox modellərdə - Z.Freydin

psixoanalitik yanaşmasından tutmuş, C.Uotson və E.Torudaykın biheviorizminə qədər bütün psixoloji nəzəriyyələr dururdu.

6. Yardımçı üslub (XX əsrin ortaları). Bu üslub əsaslandırır ki, valideynləri uşaqlar qədər tanıyan başqa bir kimsə yoxdur. Odur ki, həyatın bütün mərhələlərində valideynlər uşaqların fərdi inkişafına kömək göstərməli, doğmalığı və yaxın münasibətləri itirməmək üçün uşağı anlamağa can atmalıdırlar.

2. Uşaq hüquqları - qanunla və ya əxlaqi olaraq dünya üzərindəki bütün uşaqların doğuşdan sahib olduğu, təhsil, sağlamlıq, sığınma, fiziki, psixoloji və ya cinsi istismara qarşı qorunma kimi hüquqlarının hamısını birdən təyin istifadə edilən universal anlayışdır.

Uşaq hüquqları insan hüquqları anlayışının içində ələ alınması lazım olan bir mövzudur. Bu gün, dünyanın bir çox yerində mövcud olan insan hüquqları pozuntuları, uşaq ölçüsündə daha geniş əhatəli və böyüyərək, müdaxilə edilməsi daha çətin bir şəkildə iştirak etməkdədir. Beynəlxalq Əfv Təşkilatının bildirdiyinə görə az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə, əmək istismarı, pornografi, şiddət, qanundankənar mənfi faktorların daxilində, uşaq hüquqlarının pozulması daha böyük ölçülərdə olur.

Uşaqların yeniyetmələrdən fərqli fiziki, fizioloji, davranış və psixoloji xüsusiyyətləri olduğu, davamlı böyümə və inkişaf göstərdiyi şüurunun yerləşməsi, uşaqların baxımının bir cəmiyyət problemi olduğu və elmi yanaşmalarla hər kəsin bu məsuliyyəti yüklənməsi lazım olduğu düşüncəsi, Cenevrə Uşaq Hüquqları Bəyannaməsi ilə şəkillənmişdir. Hal-hazırda uşaq hüquqları ilə əlaqədar olan beynəlxalq sənəd 20 noyabr 1989 tarixində Birləşmiş Millətlər tərəfindən qəbul edilən və 193 ölkə tərəfindən təsdiq edilmiş olan Birləşmiş Millətlər Təşkilatının Uşaq hüquqları haqqında Konvensiyaıdır.

XX əsrdə uşaqların hüquqlarının qorunması və müdafiəsi sahəsində etibarlı hüquqi baza yaradılmışdır. Beynəlxalq əhəmiyyətli bir sıra sənədlər qəbul edilmiş və sivil dövlətlərin əksəriyyəti həmin sənədləri razifikasiya etmişdir. Bu baxımdan "Uşaq Hüquqları haqqında Millətlə Liqasının Cenevrə Deklarasiyası" (1924), "Roma Avropa Sosial Xartiyası", (maddı 7-17) (1950), "Uşaq hüquqları haqqında Deklarasiya" (1959), "Uşaq hüquqları haqqında Konvengensiya" (1989), "Byaka Deklarasiyası Fəaliyyət Proqramı" bir hissəsi (1993), (maddə 45-53), "Pekin Deklarasiyası: Fəaliyyət Platforması" (2002), (bir hissəsi), kimi beynəlxalqəhəmiyyətli sənədlərin adlarını qeyd etmək olar.

Bütün ölkələrin alimləri qeyd edirlər ki, müasir dövrdə uçaq və yeniyetmələrin sosial fəallığı artmış və onun təzahür formaları rəngarəng olmuşdur.

Uşaq yaşının təbii tələbatlarından biri də müxtəlif qeyri-formal qruplara, komanda və kompaniyalara, təşkilat və assosiasiyalara daxil olmaq cəhdləridir. Uşağa inam, onun şəxsiyyətinə hörmət olan belə qrup və birliklərdə uşaqlar öz maraqlarını təmin edir, qabiliyyətlərini nümayiş etdirir, özünü reallaşdırmaq imkanı qazanırlar.

3.Müasir ailə, müasir sosial-iqtisadi münasibətlər sistemi müqayisəyə gəlməyəcək dərəcədə inkişaf etmiş və xeyli mürəkkəbləşmişdir. Kiçik yaşlarından uşaqlara belə bir fikir aşılamaq lazımdır ki, insanın nəcib əməyi bütün sosial inkişafın əsasıdır. Bu əmək nə qədərməhsuldar olarsa, cəmiyyət bir o qədər sürətlə tərəqqi edər. Hər bir uşaq öz əməyinin cəmiyyətin əsas vəzifələri ilə bağlı olduğunu bilmıli, cəmiyyətin xeyrinə olan sırvıtlırin qoruyucusu olduğunu bilməli, cəmiyyətin xeyrinə olan sərvətlərin qoruyucusu olmalıdır. Belə olduqda, o, yalnız öz ailəsi, məktəbi və ya kəndi miqyasında düşünməyi deyil, habelə öz müvəffəqiyyətini, öz vəzifəsini və nöqsanlarını dövlət və ümumxalq nöqteyi-nəzərindən qiymətləndirməyi də bacarır. Belə olduqda, uşaqlar şəxsi nailiyyətlərini artırmaq üçün ciddi səy göstərir, qüsurlarını aradan qaldırmağa çalışır, işgüzar və təşəbbüskar olurlar. Müasir uşaq və yeniyetmələrin fərdi şüurunun formalaşmasında mülkiyyətə münasibəti tərbiyə etməyin də böyük əhəmiyyəti vardır. Kiçik yaşlı məktəblilərin fiziki və mənəvi qüvvələrinin bir hissəsini maddi və mənəvi sərvətlərin qorunmasına və artırılmasına sərf etmələri nəinki ata-ananı, habelə cəmiyyət üzvlərini razı salır. Belə uşaqlar nəyinki ailədə, məktəbdə, məktəbkənar yerlərdə özlərini intizamlı aparır, insan əməyi ilə yaranan hər şeyə qayğı göstərir, təbii sərvətlərin qədrini bilirlər.

Kişilərin müxtəlif yaşlı uşaqların tərbiyəsində, hətta ata-ana arasındakı münasibətlər xoşagəlimli olmasa belə, tam ailəyə üstünlük verirlər. Qadınlar isə əksinə, uşaq üçün əlverişsiz ailədənsə, valideynlərin biri ilə yaçamasını daha məqsədəuyğun hesab edirlər. Bununla belə, ictimai şüurda natamam ailədə uşağın tərbiyəsinə neqativ münasibət geniş yayılmışdır. Boşanmış cütlüklərin uşaqları psixi xəstəliklərə qarşı daha davamsızdır:

- boşanmayaqədərki dövrdə uşağın xoşbəxt ailə haqqında təsəvvürlərinin subyektivliyi;
- uşağın və ananın yaşı;
- ailənin mənsub olduğu sosial qrupda boşanmaya qarşı neqativ münasibətin ifadəlilik səviyyəsi;

- uşaqla təkqalmış ata və ya ananın uşağın təhlükəsizliyini təmin edə bilmək qabiıiyyəti;

Psixoloqların qənaətinə görə boşanma hadisəsi 3 yaşdan aşağı olan uşaqlara daha az, yuxarı olan uşaqlara isə dahagüclü təsir edir.

Ailədə qarşılıqlı münasibətlər sisteminin təşəkkülü çoxölçülü parametrlərlə şərtlənir. Hər bir şəxsiyyətin sərvət meyili və ya şəxsiyyətinin istiqaməti ilə şərtlənən subyektiv məkanı var. Bu məkan çox vaxt onun obyektiv surətdə daxil olduğu ictimai münasibətlər məkanı ilə uyğun gəlmir. Ailədə formalaşan münasibətlər bir tərəfdən intellektuallaşır, digər təfdən özlərinin emosionallıq dərəcəsi ilə seçilirailədə formalaşn real münasibətlər sistemi və dəyərlər psixoloji iqlimin, sosial ab-havanın etalon keyfiyyətlərini formalaşdırır.

Ailənin pedaqoli xarakteristika baxımından yanaşdıqda iki əsas cəhətin – valideyinlərin təhsil-peşə səviyyəsi və uşaqların sayı tərbiyə uişinin məzmununu şərtləndirən amillər kimi önəmli əhəmiyyət kəsb edir. Uşaqların valideyinlərə münasibətlərinin formalaşmasında ailədaxili münasibətlərin, tərbiyə üslubunun təsiri başlıca amillər kimi diqqəti cəl edir. Psixoloqlara görə , ata ilə yaşayan uşaqlar arasında ana ilə yaşayan uşaqlarla müqayisədə pozulma, mənəvi deqradasiya və deviant davranışın hallarına dah çox təsadüf olunur. Son illər boşanma nəticəsində dağılan ailələrdə (2012-ci ildə Azərbaycanda 12,0% boşanma olub. Bu 2009-cu illə müqayisədə 2,1% çoxdur) uşaqların psixi inkişafı məsələsi yalnız pedaqoq, sosioloq və psixoloqların deyil, həm də psixiatr və nevropotoloqların da diqqətini cəlb edir. Ailənin mənəvi-affektiv həyatı uşaqlarla bağlıdır. Uşaqsız ailə quşu uçan quru budağa bənzəyir. Tam ailə müqaisədə natamam ailənin tərbiyə imkanları məhduddur. Məsələyə tipoloji xüsusiyyətlər baxımından yanaşdıqda qeyd etmək olar ki, tam ailənin mənəvi həyatı natamam ailə ilə müqaisədə daha zəngindir.

Ailədə hər şeyin qaydasında olduğuna baxmayaraq, müəyyən dövrdən sonra neqativ dəyişkənliklər müşahidə olunur. Ölüm, sosial statusdakı dəyişkənlik, iş yerini itirmə, meydana çıxan maddi problemlər, övladların ali təhsil alması, evdə xəstə və ya şikəst adamın, həbsdə olması tez-tez eyzamiyyət, xaricə səfərlər, ailənin sosial qayğılarını artırır. Biz həmişə yalnış olaraq inkişafda təbii alimlərin rolunu şişirdir, sosial şərtləri isə kölgədə buraxırıq. Darısqal mənzildə yaşayan çox uşaqlı ailənin asudə vaxtını necə səmərəli təşkil etmək olar? Bir çox ailələrdə uşaqlar vaxtının çoxunu həyət-bacada, küçədə keçirirlər. Ailənin yaxın qohumlarının uzun müddət ailə ilə birgə yaşaması (baldız, qayın) müxtəlif formalarda və ya gizli ixtilaflara səbə olur. Ailədə uşağın sosial inkişaf şəraiti,

valideyinlərin ailəni düzgün təşkil edə bilməməsi, məsuliyyətsizlik, pedaqoji baxımsızlıq və s.kimi amillər ailədə uşaqların tərbiyəsini əngəlləyən səbəblərdir.

Məşhur Çin deyimlərinin birində valideyinlərə xitabən deyilir: "Uşaqlarla elə davranın ki, eləbil əllərinizdə quş tutmusunuz. Onu əlinizdə bərk saxlamayın, çunki ölə bilər, amma çox boş da tutmayın uça bilər". Adətən, yüksək təhsilli qulluqcu ailələrdə uşaqların yaxşı oxuması üçün normal şərait, maddi təminat, qayğı və nəzarət güclü olur. Odur ki, ailədəki mənəvi psixoloji iqlimi və formalaşan münasibətləri həyatın sosial şəraiti ilə şərtlənən dərin qatlarındaki gizli laylalarda axtarmaq lazımdır. Ailənin tərbiyə mühiti bir yandan mənəvi-psixoloji, (ata, ana, ailə üzvlərinin arasındakı münasibətlərlə) digər tərəfdən maddi (mənzil şəraiti, ailənin rifahi vəs.) amillərlə şərtlənir.

Uşaq şəxsiyyət kimi çox cəhətli ailə münasibətlərinin qovşağında formalaşır. Ailənin tipoloji xüsusiyyətləri ailə münasibətlərinin xarakterini müəyyən edir. Ailədə hansı amillər uşaq şəxsiyyətinin formalaşmasına neqativ təsir edir? Təlimdə geridəqalma, assosial davranış, mənfi meyillər, valideyinlərin pis vərdişləri, sərxoşluq, narkomaniya, vaxtaşırı baş verən kəskin ixtilaflar, uşaqlara qarşı zorakılıq və baxımsızlıq – bunların sırasını genişləndirərək müasir dövrdə mənəvi-psixoloji iqliminə mənfi təsir göstərən amillərə aşağıdakıları aid etmək olar:

- Ailə daxilində və yaxın qohum-qonşular arasındakı münaqişələr və çəkişmələr, gərginlik;
- ərlə-arvadın öz münasıbətlərindəki gərginliyə uşaqları cəlb etməsi, onları öz tərəflərinə çəkmək meyli. Bu halda uşaq ailə qiyamının iştrakcısına çevrilir və onun psixi sağlamlığı zərbə altına düşmüş olur;
- qohumların ailənin işinə qarışması, münaqişəsinin alovlanmasında katalizator rolu oynaması, lağ edib, ələ salmaqla;
- ailədə valideyinlərdən və ya ailə üzvü olan evladlardan birinin əxlaqsızlığa, yüngül həyat tərzinə, alkoqolizmə, narkomaniyaya, qumar oyunlarına meyil etməsi.

Ailədə yeniyetmə və gəncin problemlərinə etinasızlıq çox keçmədən onun valideyinlərə qarşı müqavimət göstərməsinə səbəb olur. Yeniyetmə ailədən soyuyur, özgələşmə, yadlaşma başlayır, o, öz həmyaşıdları qrupunda mövge və nüfuzunu itirir, istehza hədəfinə çevrilərək sarsılır küçə qruplarının təsirinə düşür. Ailədəki yadlaşma mühitinin qurbanı olan uşaq və ya yeniyetmə ünsiyyət tələbatını təmin etmək üçün küçə qrupuna meyil etməyə başlayıb, küçə qrupunun sərvət və normalarını qəbul edir, özünütəstiq üçün fürsət axtarır. Tədricən küçə

qrupu yeniyetmənin qeyri-formal qrupuna çevrilir və o, öz rahatlığını burad tapır. Belə qruplar bəzən güclənərək, hətta mütəşəkkil kriminogen qruplarada çevrilir. Kriminogen qrupların isə öz sturkturu vardır: burada qrup üzvlərinin qup başcısından asılılığı yaranır.

Müasir dövrdə "çətin", mürəkkəb və ya destruktiv davranışlı , ipə-sapa yatmayan uşaq və yeniyetmələrinin sayının artması ciddi sosial problemə çevrilmişdir.

Hazırda cəmiyyətdə belə uşaq və yeniyetmələrin sayı 5-15% həddindədir. Sosial və psixoloji xarakteristikaya görə "çətin" uşaq və yeniyetmələrin meydana gəlməsininbir sıra səbəbləri vardır. Bunların sırasında hüquqi və əxlaqi şüurdakı qüsurlar, irsi meyllik şəxsiyyətin tələbatlarının məzmunu (sərvət meyli) xarakterinin xüsusiyyətləri iradi-emosional xüsusiyyətlər, uşağın və ya yeniyetmənin sosial əhatəsi və s.aid edilir.

Ailə tərbiyəsində yol veriələn qüsurlardan biri də uşaqlara **üzvermədir**. Uşaqlara üzvermə hər şeydən əvvəl onların yol verdikləri xoşagəlməz hərkətləri bağışlamaq, onlara güzəştə getmək deməkdir.

Böyük fransız mütəfəkkiri J.J.Russo demişdir ki, uşağın göz yaşları onun xahişidir. Əgər onlar yerinə yetirələrsə, həmin xahişlər sonralar əmr çevrilər. Ailə tərbiyəsində uşaqlara üzvermə bir sıra fəsadlara yol açır:

- hədsiz əzizləmə uşaqların xaraktersiz, iradəsiz, daşürəkli və xudbin böyüməsinə səbəb olur;
- müstəqil həyata qədəm qoyanda belələri aciz olur. Çünki həyat güzəştə getmir;
- valideyn məhəbbəti düşüncəli olmalıdır;
- mərifət və ölçü hissi daim gözlənilməlidir;
- uşağın əsaslandırılmış arzusunu və istəyini başa düşüb əməl etmək lazımdır;
- hər şeyi uşağa qadağa etmək olmaz;
- ailədə qarşılıqlı hörmət və tələb mühiti olmalı, uşağın gələcəyi düşünülməlidir.

Mövzu 4. Ailədə tərbiyə işinin psixopedaqoji əsasları

Plan.

1. **Ailədə psixopedaqoji vəzifələr.**
2. **Ailə tərbiyəsində "Adler modeli" haqqında.**

1. Ailə tərbiyəsi cəmiyyətdə özünü göstən mürəkkəb, sosial-psixoloji və pedaqoji hadisələrdən biridir. Şəxsiyyətin tərbiyəsinə və bu prosesin nəticələrinə ailədaxili münasibətlərlə şərtlənən ailə həyat tərzinin mühüm təsiri vardır. Ailədaxili münasibətlərin mübət və ya mənfi xarakteri tərbiyə prosesinə fərqli təsir göstərən psixisosial amillərdən biridir. Ailə tərbiyəsi mürəkkəb və çoxşaxəli sistemdir. Bu sistemə təsir göstərən amillər sırasında irsiyyət, uşaqların anatomik – fizioloji sağlamlığı, maddi-iqtisadi təminat, ailənin sosial vəziyyəti, həyat tərzi, ailə üzvlərinin sayı, yaşayış yeri, uşağa münasibət və s. başlıca yer tutur. Ailə tərbiyəsi qarşısında duran başlıca psixopedaqoji vəzifələr bunlardır:

1. Uşağın yetkinləşməsi və inkişafı üçün mümkün olan bütün şəraitin yaradılması;

2. Ailədaxili ənənələrin qorunub saxlanılması və uşaqların tərbiyəsində bu amilin tərbiyəedici imkanlarının reallaşdırılması;

3**.** Müsbət vərdiş və bacarıqların uşaqlara aşılanması və bu zəmində özünəxidmətə və başqalarına kömək etmək meylinin formalaşdırılması**;**

4. Şəxsi ləyaqət hisinin tərbiyə olunması.

Ailə tərbiyəsi işində sınaqdan çıxmış bir çox ümumi prinsiplər mpvcuddur. Həmin prinsiplərə ilk növbədə bunları aid etmək olar: inkişaf etməkdə olan uşağa humanist və qayğılı münasibət; ailədaxili münasibətlərin optimallılığının təmin edilməsi; uşağın ailənin daxili həyat və fəaliyyətinə cəlb edilməsi; ailədə açıq və inama əsaslanan münasibətlərin yaradılamsı; valideynlərin uşağa qarşı yönələn tələblərinin vahidliyi və davamlığı; uşağa mümkün olan hər bir yardımın göstərilməsi. Qeyd olunan prinsiplərlə yanaşı ailə tərbiyəsində müəyyən qaydalara da əməl edilməlidir: fiziki cəzanın yolverilməzliyi; nəsihətçilikdən

imtina; uşağa qarşı dərhal tabe olmaqtələbinin irəli sürülməsi; uşağın yerli-yersiz hər cür tələb və arzusunun dərhal yerinə yetirilməsi və s.

Cəmiyyətə münasibət baxımından ailənin başlıca funksiyalarından biri tərbiyə funksiyasıdır. Ailənin tərbiyəedici funksiyasl yeni nəsillərə biliklərin, bacarıq və vərdişlərin, norma və dəyərlərin, mənəvi sərvətlərin, ictimai tarixi təcrübənin ötürülməsini nəzərdə tutur. Psixoloji araşdırmaları ilə məşhur olan Penelopa Liç yazır: "Uşaqları tərbiyə etmək, boyütmək ən dəyərli, ən yaradıcı əmək növlərindən biridir. Siz yeni şəxsiyyət yaradırsızın, uşağa elə insan olmaqda kömək edirsizin ki, bu sizin görmək istədiyinizdir"

Psixoloqlar hesab edirlər ki, uşağın şəxsiyyətinin inkişafında valideynlərin uşağa münasibəti və nəzarətin xarakteri ən mühüm amillər kimi nəzərdən keçirilə bilər. Bu baxımdan valideynlər üç əsas qrupa ayrılır: demokratik, avtoritar və liberal valideynlər.

Demokratik tərbiyə üsulubu ailədə uşağa qarşı münasibətdə fəal əməkdaşlığa əsaslanır.

Müasir cəmiyyətdə avtoritar tərbiyə üsulubunun hökm sürdüyü ailələrə daha çox rast gəlinir. Avtoritar valideynlər uşaqlardan daha onların tələblərini sözsüz və qeyri-şərtsiz, qeyri-məntiqi olaraq qəbul edilməsini tələb edirlər.

Psixoloqlar liberal tərbiyə üslubuna malik valideynləri xüsusi olaraq fərqləndirməklə yanaşı, belə tərbiyə üslubunun da zərərli olduğu qənaətinə gəlmişlər.

2. Klassik və müasir pedaqoji psixologiyada ailə tərbiyəsi ilə bağlı bir sıra yanaşmalar mövcuddur. Bu yanaşmalar ailə tərbiyəsi modellərinin psixopedaqoji mahiyyətini əks etdirir. Ailə tərbiyəsi sahəsində diqqət çəkən tərbiyə modellərindən biri **Adler modeli** adlanır. Avstriya psixoloqu A. Adler (1870-1937) ailə tərbiyəsi konsepsiyası valideynlərin davranışının şüurlu və məqsədyönlü surətdə dəyişdirilməsi ideyasına əsaslanır. Alferd Adler nəzəriyyəsinə görə, ailədə mövcud olan psixoloji iqlim, ümumi yönlişlik, ailədaxili dəyərlər və qarşılılı münasibətlər, uşaq şəxsiyyətinin inkişafının və

tərbiyəsinin mühüm amilləridir. O, qeyd edirdi ki, valideynlər tərbiyə işində bərabərlik, əməkdaşlıq və təbii nəticələri ısas prinsiplər kimi qəbul etməlidir. Valideynlər hər bir uşaq şəxsiyyətində təkrarolunmazlığı, fərdiyyətliliyi və toxunulmazlığı ilə hesablaşmağa alışmalıdırlar. Ailə psixologiyasında ailə tərbiyəsinin modellərindən biri amerikan psixoloqu B.F.Skinner (1904-1990) tərəfindən irəli sürülmüşdür. Ailə tərbiyəsinin təlim-nəzəri modeli adlanan bu model biheviorizmin ümumi nəzəriyyəsinə əsaslanıt Bu nəzəriyyəyə görə, valideynlərin və onların uşaqlarının davranışını yenidən öyrətmə və öyrətmə metodu əsasında dəyişdirmək mümkündürş Təlim-nəzəri modeldə uşaqların davranışının formalaşmasının vasitələri sırasında müsbət möhkəmləndirmə rəğbətləndirmə yolu ilə mənfi möhkəmləndirmə isə cəza ylu ilə həyata keçirilməlidirş Valideynlər sosial öyrətmə nəzəriyyəsinin prinsiplərini praktik olaraq tətbiq etməklə ailə mühitində uşaqların davranışının dəyişilməsinə nail ola bilərlər. Ailə tərbiyəsi modellərindən bir də amerikan psixoloqu K.R.Rocersin (1902-1987) irəli sürdüyü hissi kommunikasiya modeli adlanır. Şəxsiyyətin fenomenoloji nəzəriyyəsinə əsaslanan bu modeldə şəxsiyyətin özünüifadəsi üçün əlverişli şəraitin yaradılması bir tələb kimi irəli sürülür. Ailə tərbiyəsinin hissi kommunikasiya modeli ailədaxili ünsiyyətin qarşılıqlı, səmimi və azad olmasının təmin olunmasında ifadə olunur. Bu modelə yiyələnən hər bir valideyn 3 mühüm bacarığa sahib olmalıdır: 1) aktiv dinləmək; 2) uşağın başa düşəcəyi şəxsi hisslərin ifadəsi; 3) ailədaxili münasibətlərdə “hər iki tərəf haqlıdır” prinsipinin praktik olaraq tətbiqi.

Ailə tərbiyəsinin modellərindən biri kimi **qrup terapiyası** modelinin mahiyyəti uşağın tələbatlarından asılı olaraq valideyinlərin öz mövqelərini dəyişdirərək yenidən qurmalarında asılı olaraq valideyinlərin öz mövqelərini dəyişdirərək yenidən qurmalarında əks olunur. Bu modelə görə, valideyinlərin tərbiyəsi qrup şəraitində aparılan məsləhətlər, terapiyalar və təlimatlar vasitəsilə həyata keçirilir. Qrup terapiyası modelinin əsas məqsədi valideynlərin şəxsiyyətinin strukturunda müsbət dəyişikliklərin təmin edilməsinə nail olmaqdır.

Valideynlərin maarifləndirilməsi və gənclərin ailə həyatına hazırlanması modeli rus pedaqoqu İ.V.Qrebennikov tərəfindən irəli sürülmüşdür. Bu modeldə valideynlərin pedaqoji maarifləndirilməsinin metodik proqramı işlənmiş və belə bir mövqe əsaslandırılmışdır ki, ailə tərbiyəsində və ailədaxili münasibətlərdə baş verən çətinliklərin əsasında valideynlərin pedaqoji psixoloji məlumatsızlığı durur.

Cəmiyyətdə münasib baxımından ailənin başlıca funksiyalarından biri **tərbiyə funksiyasıdır.** Ailənin tərbiyəedici funksiyası yeni nəsillərə biliklərin, bacarıq və vərdişlərin, norma və dəyərlərin, mənəvi sərvətlərin, ictimai tarixi təcrübənin ötürülməsini nəzərdə tutur. Psixoloji araşdırmaları ilə məşhur olan Penelopa Liç yazır: "uşaqları tərbiyə etmək, böyütmək ən dəyərli, ən yartadıcı əmək növlərindən biridir. Siz yeni şəxsiyyət yaradırsız, uşağa elə insan olmaqda kömək edirsiz ki, bu sizi görmək istədiyinizdir."

Görkəmli pedaqoq V.A.Suxomlinskiyə görə isə uşağın normal psixi inkişafı, şəxsiyyətinin formalaşması əhəmiyyətli dərəcədə ailə tərbiyəsi üslubundan asılıdır. Bunun psixoloji əsasları ilə bağlı tədqiqatcı yazır: "Uşağın qəlbini ədalətsizliyini doğurduğu emosional gönüqalınlıqdan daha çox eybəcərləşdirən başqa bir şey təsəvvür etmək çətindir. Uşaq özünə etinasız münasibəti hiss edərək, xeyirə və şərə həssaslığı itirir. Onun qəlbində şübhə, insanlara inamsızlıq yurd salır, bu isə qəzəbliliyin ən başlıca mənbəyidir". Psixoloqlar belə hesab edirlər ki, uşağın şəxsiyyətinin inkişafındavalideyinlərin uşağa münasibəti və nəzarətin xarakteri ən mühüm amillər kimi nəzərdən keçirilə bilər. Bu baxımdan valideynlər üç əsas qrupa ayrılır: demokratik, avtoritar və liberal valideynlər.

Demokratik tərbiyə üslubu ailədə uşağa qarşı münasibətdə fəal əməkdaşlığa əsaslanır. Demokratik valideynlər ailədə öz uşaqlarına, sərbəstlik verir, onların şəxsiyyətinə hörmətlə yanaşır, isti münasibət bəsləyir. Onlar uşaqlara qarşı tətbiq edilən cəzalardan maksimum dərəcədə uzaq olmağa çalışırlar. Demokratik tərbiyə mühitində uşaqların azad inkişafı, fəallıq və yaradıcı qabiliyyətlərinin inkişafı üçün əlverişli şərait təmin olduğundan, belə ailələrdə böyüyən uşaqlarda başqa adamlarla əməkdaşlıq etmək qabiliyyətləri yüksək səviyyədə inkişaf edir, onların

başqa adamlarla münasibətlər qurmaqda ünsiyyət çətinlikləri olmur. Bu tərbiyə üslubunun hakim olduğu ailələrdə uşağa və ailənin digər üzvlərinə qarşı humanist dəyərlər, qarşılıqlı hörmət, sevgi və məhəbbət hissləri daha üstün mövqeyə malik olur.

Müasir cəmiyyətdə avtoritar tərbiyə üslubunun hökm sürdüyü ailələrdə daha çox təsadüf olunur. Avtoritar valideynlər uşaqlardan onların tələblərinə sözsüz və qeyri-şərtsiz, qeyri-məntiqi olaraq qəbul edilməsini, "qayda-qanuna" tam əməl edilməsini, ailə ənənələrinə və valideynlərin nüfuzuna tabe olmalarını tələb edirlər. Avtoritar tərbiyyə ciddi surətdə məcburi intizama yönəlmiş tərbiyədir. Belə ailələrdə avtoritar tərbiyyə üsulları eyni vaxtda valideynlərin uşaqlara qarşı soyuq münasibəti ilə çulğalaşdıqda, uşaqlarda aqressivliyə və konfliktlərə cəhd daha tez-tez müşahidə olunur. Avtoritar ailələrdən çıxmış uşaqlar yeni həyat şəraitinə uyğunlaşmaqda çətinlik çəkirlər. Elə avtoritar ailələrə də təsadüf olunur ki, orada valideynlər uşağın gələcəyi üçün hədsiz narahatlıq keçirdiklərindən bir tərəfdən övladlarına isti münasibət göstərir, digər tərəfdən isə onların hər adddımını izləyir və nəzarət edirlər. Belə ailələrdən çıxmış uşaqlarda təşəbbüskarlıq olmur, onlar qapalı, qətiyyətsiz, müti, ünsiyyətsiz, infantil və eqosentrik təbiətli olurlar. Bir çox ailələrdə uşaqların gün rejimi düzgün planlaşdırılmadığından onlar yaşlarına uyğun olmayan televiziya verlişlərinə, kompyuter oyunlarına və serialları hədsiz maraq göstərir və onlardan ayrıla bilmirlər. Ailədə yeniyetmələrin həyat fəallığının və təşəbbüslərinin yaşlılar tərəfindən boğulması, fəaliyyətin zorakı vasitələrlə digər istiqamətlərə yönəldilməsinə təhriketmə və təzyiqlər, iradi azadlığa qarşı yönələn sanksiyalar onlarda asanlıqla stress və aqressiyalara, bəzən isə daha ağır formalı psixi pozulmalara və hətta intiharlara gətirib çıxara bilər.

Yeniyetmələrin davranışında, fəaliyyət və ünsiyyətində, ətrafdakı adamlarla qarşılıqlı münasibətlərində özünütəsdiqetmə motivi aparıcı amildir. Özünütəsdiqetmə cəhdi çox zaman maneələrlə, qadağanlarla üzləşdikdə yeniyetmə öz mühiti və onun qadağaları ilə açıq və ya gizli ziddiyyətlə daxil olur.

Açıq ziddiyyətə daxil olur. Açıq ziddiyyətlər konfliktlərə, gizli ziddiyyətlər isə əksər hallarda özünəqapanmaya səbəb olur ki, bu da əhvalın ümumi psixoastenik və depressiv fonunu yaradır.

Psixoloqlar **liberal tərbiyə üslubuna** malik olan valideynləri xüsusi olaraq fərqləndirməklə yanaşı, belə tərbiyə üslubunun da zərərli olduğu qənaətinə gəlmişlər. Uşaqlara qarşı laqeyd və etinasız olan valideynlər övladlarına heç bir isti nəfəs, lazimi diqqət, qayğı və nəzarət göstərmədiyindən, onlar necə deyirlər, "özbaşına" böyüyürlər. Onlarda bu baxımsızlıq və valideyn səhlənkarlığı hüquqa zidd əməllərə qədər ciddi davranış pozğunluqlarının yaranmasına gətirib çıxara bilər. Təsadüfi deyildir ki, azyaşlı cinayətkarlar və qanunpozanlar arasında məhz belə ailələrdən çıxmış uşaqlar çoxluq təşkil edir.

Uşaqların ailə tərbiyəsi işində valideynlərin qarşılaşdığı əsas çətinliklər yeniyetmələrin böyüdüyü ailələrdə özünü biruzə verir. Tərslik, hövsələsizlik, sözəbaxmazlıq və kobudluq "çətin" yeniyetmə yaşlı uşaqların tipik xüsusiyyətləridir. Yeniyetmələrin bu cür davranış öz-özlüyündə təbii olaraq meydana gələn normal yaş böhranının simptomlarıdır. Çox vaxt isə belə qarşıdurma halları və konfliktlər yaşlıların yeniyetmənin müstəqillik cəhdlərini anlamadıqlarından, onun şəxsiyyətinə qarşı hərmətsiz münasibətlərindən törəyir. Yeniyetmə nə qədər böyükdürsə, o bir o qədər maksimalistdir, azadlığın məhdudlaşdırılmasına qarşı bir o qədər dözümsüzdür.

Yeniyetmənin valideyn üçün əsas problem uşağa qarşı münasibətin, adət edilmiş müraciət formalarının dəyişdirilməsindən, tərəflər arasında dialoqun qurulmasından ibarətdir. Valideyn yeniyetmə övladı ilə münasibətdə hər şeydən əvvəl **psixoloji məsafəni gözləməli,** "üz açmamalı", "pərdə saxlamağı" bacarmalıdır.övladı ilə münasibətdə optimal məsafəni tapan valideynlər xeyirxah məsləhətçi olmaqla yanaşı, eyni zamanda öz nüfuzlarını qoruyub saxlayaraq tələbələrinin yerinə yetirilməsinə nail olmağı bacarırlar. Belə münasibətlər uşaq və yeniyetmənin şəxsiyyətinə hörmət üzərində qurulmalıdır. Yeniyetmənin öz maraq və meyillərindən, ehtiraslarından avtoritar tərzdə məhrum etmək, onu

yaşıdlarından təcrid etmək heç də arzu edilən nəticənin əldə edilməsinə yol açа bilməz. Müasir ailə tərbiyəsi psixologiyasında **optimal valideyn mövqeyi haqqında təsəvvürlər geniş yayılmaqdadır.** Uşaqların tərbiyəsində valideynlərin mövqeyi o halda optimal hesab edilə bilər ki, onlar uşağı başa düşsün , ona isti münasibət bəsləsin, onu obyektiv qiymətləndirsin və tərbioyə işini bu qiymətləndirməyə adekvat qurmağı bacarsın.

Hər bir uşaq lap erkən yaşlarından valideynlərin emosional rəğbət və stimullarına ehtiyac hiss edir. Nəvaziş, bəyənmə, təqdiretmə və tərif uşaqlarda öz qüvvəsinə inam yaradır. Danlaq və qadağalar isə əksinə, uşaqda ruh düşkünlüyü , bacarıqsız və sərasətsiz olması haqqında təsəvvürlərin yaranmasına səbəb olur. Ailədə valideyn nəvazişi almayan, **sevgidən doymayan uşaqlar** bu boşluğu tərbiyəçi və müəllimdən əldə etdiyi qayğı və sevgi ilə "doldurmağa" çalışırlar. Uşağın özünə inamsızlığlı yalnız qorxaqlığın deyil, həm də utancaqlığın əsas səbəbidir. Adətən yeksək iddialı olması ilə tanınan uşaqlarda təkəbbür və özündənrazılıq halları müşahidə olunur. Bu cür uşaqların davranışı psixoloji terminologiyada **"affektiv davranış"** adlanır**.** Affektiv uşaqlkara elə gəlir ki, valideynləri onları sevmir. Məktəbdəki uğursuzluqlar, yoldaşlarının təlimdə onları qabaqlaması, ədalətsizlikləri onlarda dərin sarsıntılara səbəb olur. Onlar hər vasitə ilə öz sinif yoldaşlarının diqqətini cəlb etməyə, müəllimlərin rəğbətini qazanmağa çalışsalar da, buna nail ola bilmirlər. Affektiv davranışlı uşaqlar, əsasən, valideyn məhəbbətinin və qayğısının çatışmadığı, hədsiz tələbkarlıq və ciddi münasibətin olduğu ailələrdə yetişirlər. Belə ailələrdə valideynlər həmişə özlərini haqlı hesab edir, hətta ailədə uşaqlara qarşı münasibətin dəyişdirilməsinin zəruriliyi haqqında psixoloqların və müəllimlərin tövsiyələrini qəbul etmirlər. Onlar müəllimlərlə dialoji ünsiyyətlərdən qaçır, heç kimin məsləhətlərinə ehtiyaclarının olmadığını söyləyirlər. Uşaqlara qarşı etinasızlıq çox vaxt ata və ananın şəxsiyyətinin fərdi xüsusiyyətləri, özünə və öz şəxsi problemlərinə münasibəti ilə bağlı olur. Valideynlərin uşaqlara qarşı etinasız və mənfi münasibətinin bir sıra səbəbləri vardır: boşanma nəticəsində ailənin

tamamlığının pozulması; valideynlərin uşağın şəxsiyyətinə hörmət qoymaması, uşağa yaşına uyğun olmayan hədsiz tələbkarlıqla yanaşılması; gücü çatmayan işlərə sövq edilməsi nəticəsində uşağın əldə etdiyi səviyyə ilə qane olmamaq; daim uşağa qabiliyyətsiz və bacarıqsız olduğu barədə tənqidlər ünvanlamaq və s. Valideyn məhəbbəti mühitində böyüyən uşaqlarda müdafiə, özünə və öz qüvvəsinə inam hiss yüksək olur. Ailədə mövqeyi qəbul edilən uşaqlarda ədalətlilik, qərəzsizlik və qəbahətli hərəkətlərinə görə günah hissi formalaşır. Əksinə, istehza və gülünc hədəfinə çevrilən uşaqlar daim sıxıntı icində olur, qəmqin görünürlər. Onlar qaim pərt edildiyindən utancaq və kinli olur, böyüyüb sərbəstlik əldə etdikdən sonra , uşaq vaxtı ona edilmiş haqsızlıqlara görə valideynlərinə qarşı soyuq və etinasız münasibət göstərirlər.

Alman psixoloqu İ.B.Hippenreyter valideynlərə uşaqla ünsiyyət zamanı aşağıdakı qaydalara əməl etməyi tövsiyə edir:

- Bütövlükdə uşaqdan deyil, onun ayrı-ayrı hərəkətlərindən narazı olduğunuzu bildirin;
- Nə qədər yolverilməz olsa belə, onun hisslərini deyil, əməllərini məzəmmət edin;
- Heç vaxt uşaqdan mümkün olmayan və ya yerinə yetirilməsi çətin olan işlər tələb etməyin. Yaxşısı budur, fikir verin, ətrafda nəyi dəyişdirmək mümkündür;
- Uşağın hərəkətlərindən narazı imkanını itirmiş olar;
- Uşağın emosional problemlərini öz üzərinizə köçürməyə və onunla yüklənməyə çalışmayın.
- Uşağa öz mənfi hərəkətlərinin nəticələri ilə üzləşmək imkanı verin. Bu, ona öz səhvlərini anlamaqda kömək edir.

Mövzu 5. Məhəbbət mənəvi estetik bir hiss kimi və məhəbbətin növləri

Plan.

3. Məhəbbət estetik hiss kimi.
4. Kişi və qadın arasında məhəbbət.
5. Məhəbbət dostluqdur.

1. Ailənin yaradılması üçün ən başlıca mənəvi şərt sevgidir. Sevgi hər bir kəsin başqa birisi üçün özünü fəda etmək cəhdlərində əks olunan fərdi-seçici, dərin və davamlı, mənəvi-estetik hiss, ailə-nikah münasibətlərinin əsas amilidir. Tarix boyu məhəbbəti uca tutan xalqımız sevgini insanı həyata bağlayan ecazkar qüvvə hesab etmiş "Tarir-Zöhrə", "Əsli-Kərəm", "Aşıq Qərib", "Abbas-Gülgəz", "Leyli-Məcnun", "Valeh-Zərnigar", "Soltan-Qəndab" və s. kimi ondan artıq məhəbbət dastanları yaratmışdır. Məhəbbət-elmi təhlilə gəlməyən, insan idarakının hüdudlarından da kənara çıxan ruhi-mənəvi hiss, həyati vacib tələbatların və maraqların ifadısi olan obyektlərə qarşı seçici münasibətin yüksək emosional ifadəsidir. Dahilər məhəbbət anlayışına ümumi və fərdi qütbdən yanaşmışlar. XII əsr Azərbaycan ədəbiyyatının qüdrətli siması, ölməz Nizami Gəncəvi məhəbbət anlayışına bəşəri konteksdən yanaşaraq yazmışdır:

Eşqdir mehrabınca uca göylərin
Eşqsiz ey dünya, nədir dəyərin?

Məhəbbətin obyekti çoxcəhətlidir. Onun konkret fərdə yönəlmiş təzahür forması sevgi adlanır. Sevgi həm də insanı həyata bağlayan ecazkar bir qüvvədir. Bu baxımdan qeyd etmək olar ki, sevgi yaşamaq, yanmaq, başqa biri üçün təmənnasız fədakarlıq, empatiyadır. O, bir çox digər emosiyalarla – zəriflik, məftunluq, heyranlıq, riqqətlə çulğalaşır. V.Şekspir "Venera və Adonis poemasında yazı; məhəbbətin hökmran olduğu yerdə qısqanclıq onun əbədi keşikçisidir". Məhəbbət nifrətin qılıncı, nifrət isə məhəbbətin zəhəridir. Məhəbbət haqqında tarix boyu çoxsaylı dastanlar, nağıl və əfsanələr minlərlə ədəbiyyat və incəsənət əsərləri yaradılmış, filmlər çəkilmişdir. Lakin indiyədək məhəbbətin əsil mükəmməl fəlsəfəsini yaratmaq heç kəsə nəsib olmamışdır. Şərqdə "Leyli və

Məcnun", Qərbdə "Romeo və Cülyetta" kimi onlarla məhəbbət dastanları yaradılmışdır. Məhəbbət həyatın bəzəyidir. O, təbiəti çiçəklənməyə, rənglərlə oynamağa, sehrli mahnılar oxumağa, məharətli rəqslər etməyə məcbur edir. Məhəbbət haqqında zaman-zaman bir çox mütəfəkkirlər, dahilər, şair və yazıçılar dəyərli fikirlər söyləmişlər.

Qədim fəlsəfi təlimlərdə məhəbbət cəzibə qüvvəsinə bənzər kosmik bir qüvvə hesab olunur, dünyanın qurucu, birləşdirici, qovuşdurucu və hərəkətverici enerjisi kimi təqdim edilirdi. Qədim yunan filosofu Platona görə, məhəbbət bir tərəfdən gözəl cismə (bədənə) qarşı hissi aşıqlik və estetik heyranlıq, digər tərəfdən isə mütləq səadət və mütləq gözəllik, insanın mənəvi yüksəlişinin ali pilləsidir. Sipinozaya görə, məhəbbət sadəcə olaraq başqa insana müsbət, xeyirxah münasibətdir və bu hissin qüvvətli olması mütləq deyil. Bir çox filosofların fikrincə, məhəbbət obyektini əldə etmək və saxlamaq, onu razı salmaq və narahatlıq gətirəcək şeylərdən qorumaq arzusunu yaradır.

Müasir insana xas olan məhəbbət hissi, cəmiyyətin və insan şəxsiyyətinin özünün uzunmüddətli tarixi inkişafının nəticəsidir.

Fransız yazıçısı Ann Filip "Bir qöz qırpımı" adlı hekayəsində yazır: "İllər keçdikdə duyuruq ki, məhəbbətimiz sayəsində hər şeyə qadir olacağıq. Uşaqlarımız olacaq, sənətimiz, dostlarımız olacaq, evlər tikəcəyik, bəlkə daha yaxşı bir dünya yaradılmasında da xidmətimiz olacaq. Biz cuşa gəlmiş inşaatçılar kimi hey qurub yaradırıq".

2. Məhəbbət haqqında söhbət düşəndə ilk növbədə kişi ilə qadın arasındakı sevgi başa düşülür. Bu baxımdan məhəbbətin uşaqlara, valideynlərə, peşəyə, vətənə olan digər növləridə az əhəmiyyətli deyildir. Insanda haradasa, on dörd yaşında hər şeyə üstün gələ biləcək bir seksual enerji axını başlayır. Belə bir təəssürat yaranır ki, sanki insanın bütün bəndləri açılır. Insan özündə indiyə qədər tanımadığı, bilmədiyi bir enerji qaynağı aşkarlayır... Təbii prosesdir. Bu enerjiyə özünü tamamilə verəndə, onun qarşısını almağa çalışmayanda 40 yaşında eyni

enerji axını, eyni hal baş verir. Təxminən 42 yaşında geri çəkilmə prosesi başlayır. Enerji axını yavaş-yavaş azalır.[38, s.70]

Kişi ilə qadın arasında məhəbbətdən söhbət gedərkən onun da çox fərqli növlərindən söz açmaq mümkündür. Bu mənada məhəbbət in sevgi, yetkin məhəbbət, sevgi-ehtiras, sevgi-adət, istehlakçı məhəbbət və s. kimi növlərini fərqləndirmək olar.

Antik dövrün fəlsəfi sistemlərində məhəbbət anlayışı əsas anlayışlardan biri kimi diqqət mərkəzində olmuşdur. Empedolm mənəbbəti insanı şadlandıran əsas amil, ümumdünya vəhdətinin başlanğıcı, Platon isə varlığının kamilliyə çatması və oradan gözəllik yaratmağın mənbəyi hesab edirdi. O, özünün "Pir" ("Ziyarət") adlı əsərində məhəbbətlə idrakın əlaqəsini formulə etmiş, onu fasilasiz proses adlandırmışdır. Platonik eros dərketmə erosudur.

3. Aristotelin fikrincə, məhəbbətin məqsədi hissi həzzalma yox, dostluqdur. O, məhəbbət anlayışını belə müəyyən etmişdir; "sevmək özünə yox, başqa birinə onun xoşbəxtliyi naminə nə isə arzulamaq, onun bu xoşbəxtliyə çatması üçün qüvvə sərf etməkdir". Orta əsrlər dövründə Qədim Şərqin sufi filosof və ədiblər məhəbbətə fərqli mövqedən yanaşmışlar. Ömər Xəyyam və Əlişir Nəvainin poeziyasında məhəbbət sufi ənənələri ruhunda şərabla eyniləşdirilir, nəşə gətirən qüvvə hesab edilirdi.

Böyük Nizami eşqi ilahi qüvvə kimi ucalara yüksəldir, onu "uca göylərin mehrabı", M.Füzuli isə "sehr", "ilahi qüvvə" adlandırırdı. Şərqin böyük şairi Sədi Şirazi "məhəbbəti arzuya qovuşmağın vasitəsi" adlandırır və yazırdı;

Kimə yar olubsa, incə bir nigar,
Onun ürəyində qalmaz arzular.

M.Füzuliyə görə məhəbbət aşiqlərin həyat yolunu işıqlandıran bir qüvvədir, ülvi və müqəddəs hissdir. Məhəbbət elə bir kamil nəşədir ki, şərab öz hərarətini, musiqi sədası təsir qidasını ondan almışdır.

Fransız yazıçısı Sent-Ekzüperi yazırdı; "Sevmək bir-birinə baxmaq deyil, hər ikisi eyni tərəfə baxmaq deməkdir". Məşhur rus yazıçısı L.N.Tolstoy yazırdı

ki, “Sevgi insan həyatının daxili qanunu və insanın arzu etdiyi xoşbəxtliyə çatmasının yeganə vasitəsidir”.

Azərbaycan filosofu Asif Əfəndiyev “Müdriklik səlahiyyəti” adlı əsərində “məhəbbət” anlayışının məzmunu-semantik quruluşunu aşağıdakı kimi açıqlayırdı;

- məhəbbət – müdriklikdir, mənəvi emosional bağlılıq, səcdədir.
- məhəbbət – sevilən insanın idealizə edilməsi, ilahi varlıq səviyyəsinə qaldırılmasıdır.
- məhəbbət – xəstəlikdir, lakin bu xəstəlik insana verilən ən böyük nemət, ən böyük səadətdir.
- məhəbbət – şirin, dadlı əzablar, işıqlı qüssədir.
- məhəbbətdə alov mövcuddur, o, ədalətsiz cəmiyyətdə kəskin konflikdədir.
- məhəbbət – heyrətdir. İnsana şairanə təbiət bəxş edir.
- məhəbbət – enişli – yoxuşlu yoldur. Bu yolu yalnız qəhrəmanlar axıradək başa vura bilərlər.
- məhəbbət ruhi – mənəvi yaxınlıq, şəxsi intim ünsiyyət donunda yaranır.

Avropa ölkələrində orta əsrlər dövründə məhəbbət dini mistikanın predmeti olmuş, qadın kultuna həsr edilmiş ideallaşdırılmış cinsi məhəbbət mövzusu poeziyada dərin kök salmışdır. Sitayiş, şəfqət və utancaqlıq harmonik məhəbbətin üç elementi kimi fərqləndirilmişdir.

Psixologiya elmi çərçivəsində sevgi probleminin sistematik şəkildə araşdırılmasına XX əsrin 40-cı illərində başlanılmışdır. Sevgi haqqında ilk tədqiqatlar əsasən nəzəri xarakter daşımış, zəmanəmizdə isə əhəmiyyətli dərəcədə empik məzmun almağa başlamışdır. Fəlsəfə ensiklopediyasında “sevgi” anlayışı “öz obyektində qarşı ypönəlmiş təmənnasız və fədakar can atmada ifadə olunan mənəvi-estetik hiss kimi” nəzərdən keçerilir. Filosofların

nöqteyi-nəzərincə, bu hissin spesifik məzmunu bu zəmində meydana çıxan mənəvi yaxınlıq əsasında özünü fədaetmə, qurbanverməkdən ibarətdir. Psixoloqlar sevgini əks cinsdən olan obyektə unikal dəyərli varlıq kimi seçici münasibət hesab edirlər. Məhşur fransız yazıçısı Anatol Frans qeyd edirdi ki, həyatın məşəqqətlərinə dözmək üçün onu mütləq bir qadınla bölüşmək laqzımdır. Məhəbbət obyektinə yönəlişlik birtərəfli eqoist məzmunlu olmamalı, sevən fərd kimi fərdiyyətini itirmədən məhəbbət obyekti ilə eyniləşdirməyə, "məni", "biz"lə əvəz etməyə əsaslanmalıdır. Müasir psixologiyada şərtli olaraq "pessimistik" və "optimistik" olmaqla iki məhəbbət modeli mövcuddur.

Pessimistik istiqamətin tərəfdarları qeyd edirlər ki, sevənin sevgi obyektindən asılılığı anı və süvginin mənfi yaşantılarla əlaqəsi hər şeydən əvvəl sevgi qorxusu ilə bağlıdır. **Pessimistik məhəbbət modelinə** görə, sevgi insanı qorxaq və asılı vəəziyyətə salır, onun şəxsi inkişafına mane olur (Məcnun vı ya Romeo sindromu). Dünyanın əksər xalqlarının məhəbbət dastanlarında nakam sevginin yanğılı bir hiss olduğu, insanı bəlalara düçar etdiyi qeyd edilmişdir. Nakam sevgi pessimistliyə yol açır, tərəflərdən biri öz fərdiyyətini itirərək digərində əriyib yoxa çıxır. Belə çütlüklərin sevgisində vüsal yosdur, çoxlu iztirab və əzablar vardır, onlar qovuşa bilmir, yəni iki "mən"in bir "biz"ə çevrilməsi mümkünsüz olur. Müəyyən hallarda sevgin şəxsiyyət psixologiyası simptomuna, melanxologiya xəstəliyinə, obrazlı desək, "məcnunluğa" gətirib çıxarır.

Məhəbbətin "optimistik" modelləri ABŞ psixoloqu A.Maslou (1908-1970) və humanistik psixologiyanın digər nümayəndələri tərəfində irəli sürülmüşdür. Bu modellərdə məhəbbət qorxunun aradan qaldırılması və tam psixoloji komfortun yaradılması amili kimi səciyyələndirilir. "Optimistik" modellərin güşə daşı sevənin sevgi obyektindən asılı olmadığı haqqında təsəvvürlərdən ibarətdir. A.Maslonun tərtib etdiyi "insan tələbatlarının piramidasında" məhəbbət mənsub olmaya tələbat üçüncü pillədə qərar tutmuşdur.

Amerikan psixoloqu Dorotti Tennov “**Məhəbbət və məftunluq**” adlı kitabında ehtiraslı romantik məhəbbəti, sələflərimizin çoxalma mexanizm kimi təqdim edir. O, məftunluğu əsil sevgi hesab etmir, əksinə, bir sıra siptomları olan xəstə hal kimi səciyyələndirir. Onun fikrincə, belə vəziyyətdə insanın beynində daim sevgi obyekti haqqında anlaşılmaz fikirlər dolaşır, qarşı tərəfin cavab hissinə kəskin tələbat yaranır, qarşılıqlı intim əlaqə zamanı eyforik duyğular baş qaldırır, obyektin təhrif olunması müşahidə olunur. Belə sevgi anında insan qarşı tərəfin müsbət keyfiyyətlərini hədsiz şişirdir, onun neqativ, qüsurlu xüsusiyyətlərini ya görmür, ya da onları əhəmiyyətsiz hesab edir, sevgi obyektinə qarşı güclü seksual oyanma baş qaldırır.

Alimlərin bir çoxu romantik məhəbbəti adi, bayağı fizioloji nöqteyi-nəzərdən tədqiq etməyə təşəbbüs götərmişlər. Onlar romantik duyğuların insanlarda hansı biokimyəvi proseslərə səbəb olduğunu araşdırarkən maraqlı nəticələr əldə etmişlər. Məsələn, eksperimentlərin birində gənc jurnalist qız gənclərə yaxınlaşmış və müsahibədən sonra öz telefon nömrəsini onlara vermişdir. Romantik maraq kişiləri həmin qıza dəfələrlə zəng etməyə təhrik etmişdir. Bu zaman romantik oyanmanın emosional gücü o gədər yüksək olmuşdur ki, bu, dağ çayından keçmək üçün tələb olunan fiziki yükə bərabər tutula bilər. Bir çox hormonlar və maddələr məhz sevgi ilə bağlıdır.

Romantik ehtiras zamanı insan beynində olduqca az miqdarda **feniletilamin** adlı maddə hasil olur. Məhz həmin maddə “ağəlsız” məhəbbət hissinin baş qaldırmasını stimullaşdırır. Bu maddənin təsiri o qədər güclüdür ki, onu kakoin və ya stimulyatorlar sinifinə aid edilən digər narkotiklərlə müqayisə etmək olar. Onun təsiri ilə insanda sevgi zamanı eyforik və seksual oyanma ehtirası və cinsi əlaqə arzusu baş qaldırır. Feniletilaminin təsiri müvəqqətidir və insan ona alışdıqdan sonralar əvvəlki təsirə malik “kimyəvi reyaksiya” doğurmu.

Həm kişilərdə, həm də qadınların beynində cinsi noyanma və həzzalmaya səbəb olan **oksitoksin** adlanan hormon hasil olunur. Bu hormon körpə uşaqları əmizdirən qadınlarda südün yaranmasını stimullaşdırır. O, toxunma zamanı cinsi

hissiyatın baş qaldırılmasına, erotik həvəsin yüksəlməsinə səbəb olur. Stresslərə qarşı güclü müqavimət qabiliyyətinə malikdir. Yaxın adamlarda ünsiyyət zamanı taktil əlaqə olduqda (əllə, dodaqla) qanda oksitoksinin miqdarı artır.

Psixoloq Zik Rubin romantik məhəbbətin **bağlılıq, qayğı və intimlik** olmaqla üç elementdən ibarətdir olduğu fikrini irəli sürmüşdür. Onun qənaətinə görə, bağlılıq başqa adamla fiziki yaxınlığa, bəyənilməyə və qayğıya tələbatla şərtlənir. Məsələn, insan tənha olduqda və ya əhvalı pisləşdikdə dərhal dərdini bölüşmək sevdiyi insanın dəstəyinə, ehtiyac duyur, onunla görüşmək, dərdini bölüşmək arzusunda olur.

Qayğı öz şəxsi tələbatlarından daha artıq başqa adamların xöşbəxtliyinə və tələbatlarına həssaslıq göstərmək və yardım əlini uzatmaqdır. Qayğı hissi bizi başqa adamların maraq və ehtiraslarını ön plana keçirməyə məcbur edir, ona kömək göstərməyə təhrik edir. Intimlik iki insanı birləşdirən ümumi fikirləri, istək və hissləri ifadə edir. Intim münasıbətlər nə qədər dərin olarsa, insanlar arasında etibar, inam, ideya və emosiyaları bölüşmək tələbatı bir o qədər çox olar. Zik Rubin qeyd olunan 3 element əsasında test tərtib etmişdir ki, həmin test vasitəsilə insanlar arasında "**məhəbbətin gücü**"nü ölçmək və qiymətləndirmək mümkündür.

Mövzu 6. Analığa psixoloji hazırlıq.
Plan.

6. Qadının özünü ana kimi qəbul etməsi
7. Ana olmağa hazırlaşan qadınlarda depressiya.
8. Analığa hazır olan və hazır olmayan qadınlar.

1. Analığa psixoloji hazırlıq ilk növbədə qadının özünü məhz qadın kimi qəbul etməsi, ana olacağı barədə düşünməsi, analıq hissinə, ana obrazına sahib olmasıdır. Hər bir qadın öz-özlüyündə necədirsə, ana olduqdan sonra da məhz elədir. Onun hissləri, düşüncələri, temperament tipi, sosial-mənəvi yetkinlik səviyyəsi, ideal ana obrazı haqqında formalaşmış təsəvvürləri, sərvət meyli, şəxsiyyətinin əxlaqi tərbiyəlilik səviyyəsi onun necə ana olacağının əsas əlamətləridir. Analıq səadəti həyata sağlam uşaq bəxş etmək və onu tərbiyələndirib, boya-başa çatdırmaqdan ibarətdir.

Hamilə olan hər bir qadın hələ doğulmamış uşağına qarşı xüsusi yönəlişliyi ilə fərqlənir. Bu münasibət bir tərəfdən instiktivdir, digər tərəfdən isə qadının şəxsiyyət yetkinliyindən asılıdır. Qadınlarda analıq instinkti kişilərin atalıq instinkti ilə müqayisədə daha güclü inkişaf etmişdir. Atalar daha çox "yaxşı" uşaqlarını sevdikləri halda, qadınlar bütün uşaqlarını sevirlər.

Müasir psixologiya elminin yeni sahələrindən olan perinatal psixologiya qadınların hamiləlik dövründə davranış xüsusiyyətlərini və analığa psixoloji hazırlığın vəziyyətini tədqiq edir. Perinatal psixologiyaya görə qadınların analığa psixoloji hazırlığı ilk növbədə onların uşaqlıqda qazandıqları kommunikativ təcrübəsi ilə, digər tərəfdən hamiləlik dövründə keçirdiyi hisslərin xarakteri ilə şərtlənir. Burada hamiləliyin iki formasının-arzu edilən hamiləlik və arzu edilməyən hamiləliyin doğurduğu hisslər, ailədə hamilə qadına qarşı münasibətin xarakterinin güclü təsiri ciddi amil kimi nəzərə alınmalıdır. Perinatal psixologiya psixosomatika ilə sıx bağlıdır. Insanın müxtəlif vəziyyətləri, psixikanın müdafiə mexanizmləri müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxara bilər. Ana bətnində qidaya şərik olan körpə həmdə ananın keçirdiyi hisslərə, onun yaşantılarına, sevinc və kədərinə də şərikdir.

Adətən, uşaqların cinsi tərbiyəsi, ailə quran gənc qızın intim həyat haqqında təsəvvürlərinin bəsit olması və təcrübəsizliyi mayalanma prosesinə əlverişsiz təsir göstərir, bu prosesi mürəkkəbləşdirir və hamiləliyin baş verməsini əngəlləyir. Qinekoloq-mütəxəssizlərin qənaətinə görə, qadının hamiləliyə dərk edilmiş hazırlığı onun reproduktiv sisteminin işini asanlaşdırır, hormon balansını tarazlaşdırır.

Hələ uşaqlıq illərində ailədə doğulan uşaqların sayı, qız uşaqlarına münasibət, ata ilə ananın qarşılıqlı münasibətlərinin xarakteri, uşağın oynadığı oyunla hamiləlik dövründə gələcək ananın davranışına təsir göstərən amillərdir. Ana olmağa hazırlaşan qadının sosial-mənəvi yetkinliyi, valideyinlik hissləri haqqında təsəvvürlər, uşağın tərbiyəsi strateqiyası barədə düşüncələri analığa psixoloji hazırlığa təsir göstərir. İlk və arzu edilən hamiləliklər hamilə qadında analığa psixoloji hazırlığın yüksək, əksinə, arzu edilməyən, sonrakı hamiləliklər isə aşağı

səviyyə kimi qiymətləndirilir. Ana olan qadında analıq instiktinin işə düşməsi üçün müəyyən böhranlı dövr mövcuddur ki, burada da ilk 24 saatın rolu xüsusilə vacibdir. Analığa psixoloji hazırlıq ailənin yaşlı digər üzvlərinin qadının hamiləliyinə münasibəti, onun işləyib-işləməməsi ailədə mənzil-məişət şəraitini, ailənin maddi vəziyyəti və s. kimi amillərlə sıx bağlıdır. Hamiləlik dövründə ana olmağa hazırlaşan qadınla mülayim rəftar olunmalı, onun qida və yuxu rejimi ciddi nəzarətdə saxlanılmalıdır. Hamilə qadının stress və depresiyalardan uzaq olması bətn daxilində körpənin normal inkişafının mühüm şərtidir.

2. Ana olmağa hazırlaşan qadınlarda hamiləlik dövründə və doğuşdan sonra depressiya halları yaranır. Xüsusən ilk dəfə ana olmağa hazırlaşan gənc qadınlarda uşağının və özünün həyatını itirmək qorxusu kimi xəyali təhlükə daim onların qorxu və həyəcan keçirmələrinə səbəb olur, əhvalın ümumi deöressiv fonunu yaradır. Əhvali-ruhiyyədə kəskin dəyişiklik hamiləliyin sonlarında, xüsusilə, doğuşa az müddət qaldıqda daha da qabarıq görünməyə başlayır. Qadınlarda doğuşdan sonrakı depressiya, adətən, onların doğum evindən ailələrinə qayıtdıqları vaxt özünü göstərir. Qadınlar analığa doğuşdan əvvəl, hamiləlik dövründə hazırlaşdıqları halda, kişilər atalığa uşaq dünyaya gəldikdən sonra onun həyatının ilk aylarından başlayırlar.

Söhbət analardan düşəndə həmişə biz bu adı daim uca tutur, onun qarşısında səcdə edir və deyirik; "Analar olmasaydı, nə qəhrəmanlar, nə alimlər, nə də şairlər olmazdı". Bu doğrudur, bəs paradoksal yanaşsaq necə? Analar olmasaydı qorxaqlar, satqınlar, oğrular və quldurlar olardımı? Deyirlər, yaxşı övladın arxasında onun anası durur. Bəs pisin?

Ana olmağa özlərinin yüksək psixoloji hazırlığı ilə fərqlənən qadınlar uşağa sahib olmaq üçün qərar qəbulunda tərəddüd etmir, əksinə, hamilə olduqlarını bildikdə sevinir, hamiləlikdən sonra müsbət hisslərlə yaşayır, bətnindəki körpə ilə "söhbət edirlər". Belə qadınlar ana olduqdan sonra yumşaq rejimə əməl edir; qidalanarkən özlərini deyil, uşağın tələbatlarını nəzərə alır, körpəni təbii ana südü ilə qidalandırmağa üstünlük verir, uşaqlarını daha çox qucaqlarında saxlamağa diqqət yetirir, ona qayğı və nəvazişlə yanaşırlar.

Adətən belə anaların uşaqlıqda qazandıqları kommunikativ təcrübə onların köməyinə gəlir. Analarının uşaqlıq illərində onlara göstərdiyi qayğı və bağlılıq, onların nəzakətli və mehriban rəftarı, uşaq oyuncaqları, müsbət ünsiyyət təcrübəsinin əsasını təşkil edir. Analığa psixoloji cəhətdən yüksək səviyyədə hazırlıqlı olan qadınlar ana olduqdan sonra uşaqla ünsiyyətə, onun oyunlarına, qulluğa daha çox vaxt ayırır, nitqinin, hərəkəti fəallığının inkişafına həssaslıqla yanaşırlar. Belə anaların uşaqları böyüdükdən sonra daha təşəbbüskar olur, ünsiyyətə asanlıqla qoşulur, daha tez dil aşırlar. Sonralar onlarda aydın emosionallıq, insanlarla münasibətdə açıq və xeyirxah münasibətlərə meyillilik, hər şeyə qarşı maraq hissi yüksək inkişaf edir.

Psixoloji cəhətdən analığa aşağı səviyyəli hazırlığı olan qadınlardan doğulan uşaqlarda "**canlanma kompleksi**"nin komponentlərinin göstəriciləri nəinki aşağı

səviyyədə olur, habelə onlar ünsiyyətdən yayınır, öz sevinclərini ana ilə bölüşmək cəhdi zəif inkişaf etmiş olur. Sonralar belə uşaqlar kənar adamlarla ünsiyyətə çətinliklə qoşulur, nitqi zəif mənimsəyir, oyun bacarıqlarına çətinliklə yiyələnirlər.

3. Analığa hazır və hazır olmayan qadınların ana və onun rolu haqqında təsəvvürləri fərqlidir. "Bağlılıq" nəzəriyyəsinin yaradıcıları, amerikan psixoloqları C.Boulbi və M.Eynsvort qeyd edirlər ki, uşağın valideynləri ilə münasibətində, xüsusilə həyatın birinci ilində qazanılmış təcrübə onun sonrakı psixi inkişafında həlledici rol oynayır. Bu nəzəriyyə uşağın anaya bağlılığını psixoanalizin qeyd etdiyi kimi, fiziki həzzlə deyil, müdafiə və təhlükəsizlik instinktində görür. Onların fikrincə, bağlılıq anadangəlmə və genetik mexanizmlərlə şərtlənmişdir. C.Boulbiyə görə heyvanlarda olduğu kimi, insanlarda da ana öz balasını ətraf mühitin xoşagəlməz təsirlərindən qoruyur. Təkamül nəticəsində bütün canlılarda xüsusilə təhlükəli şəraitdə anaya bağlılıq instink mexanizmi yaranmışdır. Onlar qeyd edir ki, bu instink genetik mənşəli olsa da, o, xarici amillərdən, başlıca olaraq ana ilə ilk münasibətin xarakterindən asılıdır. Əgər ana körpənin həyatının ilk aylarında ona qarşı həssaslıq, qayğıkeşlik, maraq və tələbatlarına mehribanlıq göstərirsə, körpədə etibarlı bağlılıq və bunun əsasında təhlükəsizlik hissi yaranır. Ananın körğəyə qarşı əks münasibəti isə onda ümidsizlik, soyuqluq hissinin mənbəyinə çevrilir. Bir yaşın sonunda körpənin anaya bağlılığı motivləşmə, davranış sisteminin bazasına çevrilir və onun bazasında uşağın şəxsiyyətinin formalaşması davam edir. Son dövrlərdə amerika və avropa psixologiyasında uşağın anaya qarşı bağlılığının onun həyatının müxtəlif sahələrində-məktəblərdə uğurları, sosial və idraki problemlərinin həllində, yaşıdları ilə münasibətində, sosial mühitə uğurla uyğunlaşmasında həll edici təsiri xüsusi tədqiqatlar vasitəsilə sübut edilmişdir.

Öz eyş-işrəti xatirinə uşaqlarına baxmayan və onu peşəkar olsalar belə, dayələrin himayəsinə verən analar uşaqlarına qarşı etinasızlıq göstərir, uşağına analıq hissiyatının möcüzələrini bəxş edə bilmirlər. Özgələrin, yad adamların qucağında yuxuya gedən, kədər və həsrət içində yatan belə uşaqlar ayıq vaxt da qəmgin olurlar.

Demək olar ki, bütün qızlar hələ erkən uşaq yaşlarında ana haqqında müəyyən təsəvvürlərə malik olur. Bu təsəvvürlər ailədə ananın onlara qarşı yönəlmişmünasibəti, davranışı əsasında formalaşır. Bu onların uşaq oyunlarında gəlinciklərlə olan münasibətində öz əksini tapır. Yeniyetməlik və erkən gənclik dövründə qızlarda analıq duyğularının ruşeymləri cücərməyə başlayır, həya hissi açıq emosional təzahürləri ilə diqqəti cəlb edir. "Əgər qız düzgün tərbiyə edilmiş və xoşbəxt nikaha daxil olmuşsa, normal cinsi həyat yaşayırsa, hamilələlik onun üçün təbii, qanunauyğun və arzu edilən bir hadisədir".

Mövzu 6. Analığa psixoloji hazırlıq.

Plan.

1. Qadının özünü ana kimi qəbul etməsi
2. Ana olmağa hazırlaşan qadınlarda depressiya.
3. Analığa hazır olan və hazır olmayan qadınlar.

1. Analığa psixoloji hazırlıq ilk növbədə qadının özünü məhz qadın kimi qəbul etməsi, ana olacağı barədə düşünməsi, analıq hissinə, ana obrazına sahib olmasıdır. Hər bir qadın öz-özlüyündə necədirsə, ana olduqdan sonra da məhz elədir. Onun hissləri, düşüncələri, temperament tipi, sosial-mənəvi yetkinlik səviyyəsi, ideal ana obrazı haqqında formalaşmış təsəvvürləri, sərvət meyli, şəxsiyyətinin əxlaqi tərbiyəlilik səviyyəsi onun necə ana olacağının əsas əlamətləridir. Analıq səadəti həyata sağlam uşaq bəxş etmək və onu tərbiyələndirib, boya-başa çatdırmaqdan ibarətdir.

Hamilə olan hər bir qadın hələ doğulmamış uşağına qarşı xüsusi yönəlişliyi ilə fərqlənir. Bu münasibət bir tərəfdən instiktivdir, digər tərəfdən isə qadının şəxsiyyət yetkinliyindən asılıdır. Qadınlarda analıq instinkti kişilərin atalıq instinkti ilə müqayisədə daha güclü inkişaf etmişdir. Atalar daha çox "yaxşı" uşaqlarını sevdikləri halda, qadınlar bütün uşaqlarını sevirlər.

Müasir psixologiya elminin yeni sahələrindən olan perinatal psixologiya qadınların hamiləlik dövründə davranış xüsusiyyətlərini və analığa psixoloji hazırlığın vəziyyətini tədqiq edir. Perinatal psixologiyaya görə qadınların analığa psixoloji hazırlığı ilk növbədə onların uşaqlıqda qazandıqları kommunikativ təcrübəsi ilə, digər tərəfdən hamiləlik dövründə keçirdiyi hisslərin xarakteri ilə şərtlənir. Burada hamiləliyin iki formasının-arzu edilən hamiləlik və arzu edilməyən hamiləliyin doğurduğu hisslər, ailədə hamilə qadına qarşı münasibətin xarakterinin güclü təsiri ciddi amil kimi nəzərə alınmalıdır. Perinatal psixologiya psixosomatika ilə sıx bağlıdır. Insanın müxtəlif vəziyyətləri, psixikanın müdafiə mexanizmləri müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxara bilər. Ana bətnində qidaya şərik olan körpə həmdə ananın keçirdiyi hisslərə, onun yaşantılarına, sevinc və kədərinə də şərikdir.

Adətən, uşaqların cinsi tərbiyəsi, ailə quran gənc qızın intim həyat haqqında təsəvvürlərinin bəsit olması və təcrübəsizliyi mayalanma prosesinə əlverişsiz təsir göstərir, bu prosesi mürəkkəbləşdirir və hamiləliyin baş verməsini əngəlləyir. Qinekoloq-mütəxəssizlərin qənaətinə görə, qadının hamiləliyə dərk edilmiş hazırlığı onun reproduktiv sisteminin işini asanlaşdırır, hormon balansını tarazlaşdırır.

Hələ uşaqlıq illərində ailədə doğulan uşaqların sayı, qız uşaqlarına münasibət, ata ilə ananın qarşılıqlı münasibətlərinin xarakteri, uşağın oynadığı oyunla hamiləlik dövründə gələcək ananın davranışına təsir göstərən amillərdir. Ana olmağa hazırlaşan qadının sosial-mənəvi yetkinliyi, valideyinlik hissləri haqqında təsəvvürlər, uşağın tərbiyəsi strateqiyası barədə düşüncələri analığa psixoloji hazırlığa təsir göstərir. İlk və arzu edilən hamiləliklər hamilə qadında analığa psixoloji hazırlığın yüksək, əksinə, arzu edilməyən, sonrakı hamiləliklər isə aşağı

səviyyə kimi qiymətləndirilir. Ana olan qadında analıq instiktinin işə düşməsi üçün müəyyən böhranlı dövr mövcuddur ki, burada da ilk 24 saatın rolu xüsusilə vacibdir. Analığa psixoloji hazırlıq ailənin yaşlı digər üzvlərinin qadının hamiləliyinə münasibəti, onun işləyib-işləməməsi ailədə mənzil-məişət şəraitini, ailənin maddi vəziyyəti və s. kimi amillərlə sıx bağlıdır. Hamiləlik dövründə ana olmağa hazırlaşan qadınla mülayim rəftar olunmalı, onun qida və yuxu rejimi ciddi nəzarətdə saxlanılmalıdır. Hamilə qadının stress və depresiyalardan uzaq olması bətn daxilində körpənin normal inkişafının mühüm şərtidir.

2.Ana olmağa hazırlaşan qadınlarda hamiləlik dövründə və doğuşdan sonra depressiya halları yaranır. Xüsusən ilk dəfə ana olmağa hazırlaşan gənc qadınlarda uşağının və özünün həyatını itirmək qorxusu kimi xəyali təhlükə daim onların qorxu və həyəcan keçirmələrinə səbəb olur, əhvalın ümumi deöressiv fonunu yaradır. Əhvali-ruhiyyədə kəskin dəyişiklik hamiləliyin sonlarında, xüsusilə, doğuşa az müddət qaldıqda daha da qabarıq görünməyə başlayır. Qadınlarda doğuşdan sonrakı depressiya, adətən, onların doğum evindən ailələrinə qayıtdıqları vaxt özünü göstərir. Qadınlar analığa doğuşdan əvvəl, hamiləlik dövründə hazırlaşdıqları halda, kişilər atalığa uşaq dünyaya gəldikdən sonra onun həyatının ilk aylarından başlayırlar.

Söhbət analardan düşəndə həmişə biz bu adı daim uca tutur, onun qarşısında səcdə edir və deyirik; "Analar olmasaydı, nə qəhrəmanlar, nə alimlər, nə də şairlər olmazdı". Bu doğrudur, bəs paradoksal yanaşsaq necə? Analar olmasaydı qorxaqlar, satqınlar, oğrular və quldurlar olardımı? Deyirlər, yaxşı övladın arxasında onun anası durur. Bəs pisin?

Ana olmağa özlərinin yüksək psixoloji hazırlığı ilə fərqlənən qadınlar uşağa sahib olmaq üçün qərar qəbulunda tərəddüd etmir, əksinə, hamilə olduqlarını bildikdə sevinir, hamiləlikdən sonra müsbət hisslərlə yaşayır, bətnindəki körpə ilə "söhbət edirlər". Belə qadınlar ana olduqdan sonra yumşaq rejimə əməl edir; qidalanarkən özlərini deyil, uşağın tələbatlarını nəzərə alır, körpəni təbii ana südü ilə qidalandırmağa üstünlük verir, uşaqlarını daha çox qucaqlarında saxlamağa diqqət yetirir, ona qayğı və nəvazişlə yanaşırlar.

Adətən belə anaların uşaqlıqda qazandıqları kommunikativ təcrübə onların köməyinə gəlir. Analarının uşaqlıq illərində onlara göstərdiyi qayğı və bağlılıq, onların nəzakətli və mehriban rəftarı, uşaq oyuncaqları, müsbət ünsiyyət təcrübəsinin əsasını təşkil edir. Analığa psixoloji cəhətdən yüksək səviyyədə hazırlıqlı olan qadınlar ana olduqdan sonra uşaqla ünsiyyətə, onun oyunlarına, qulluğa daha çox vaxt ayırır, nitqinin, hərəkəti fəallığının inkişafına həssaslıqla yanaşırlar. Belə anaların uşaqları böyüdükdən sonra daha təşəbbüskar olur, ünsiyyətə asanlıqla qoşulur, daha tez dil aşırlar. Sonralar onlarda aydın emosionallıq, insanlarla münasibətdə açıq və xeyirxah münasibətlərə meyillilik, hər şeyə qarşı maraq hissi yüksək inkişaf edir.

Psixoloji cəhətdən analığa aşağı səviyyəli hazırlığı olan qadınlardan doğulan uşaqlarda "**canlanma kompleksi**"nin komponentlərinin göstəriciləri nəinki aşağı səviyyədə olur, habelə onlar ünsiyyətdən yayınır, öz sevinclərini ana

ilə bölüşmək cəhdi zəif inkişaf etmiş olur. Sonralar belə uşaqlar kənar adamlarla ünsiyyətə çətinliklə qoşulur, nitqi zəif mənimsəyir, oyun bacarıqlarına çətinliklə yiyələnirlər.

3.Analığa hazır və hazır olmayan qadınların ana və onun rolu haqqında təsəvvürləri fərqlidir. "Bağlılıq" nəzəriyyəsinin yaradıcıları, amerikan psixoloqları C.Boulbi və M.Eynsvort qeyd edirlər ki, uşağın valideynləri ilə münasibətində, xüsusilə həyatın birinci ilində qazanılmış təcrübə onun sonrakı psixi inkişafında həlledici rol oynayır. Bu nəzəriyyə uşağın anaya bağlılığını psixoanalizin qeyd etdiyi kimi, fiziki həzzlə deyil, müdafiə və təhlükəsizlik instinktində görür. Onların fikrincə, bağlılıq anadangəlmə və genetik mexanizmlərlə şərtlənmişdir. C.Boulbiyə görə heyvanlarda olduğu kimi, insanlarda da ana öz balasını ətraf mühitin xoşagəlməz təsirlərindən qoruyur. Təkamül nəticəsində bütün canlılarda xüsusilə təhlükəli şəraitdə anaya bağlılıq instink mexanizmi yaranmışdır. Onlar qeyd edir ki, bu instink genetik mənşəli olsa da, o, xarici amillərdən, başlıca olaraq ana ilə ilk münasibətin xarakterindən asılıdır. Əgər ana körpənin həyatının ilk aylarında ona qarşı həssaslıq, qayğıkeşlik, maraq və tələbatlarına mehribanlıq göstərirsə, körpədə etibarlı bağlılıq və bunun əsasında təhlükəsizlik hissi yaranır. Ananın körğəyə qarşı əks münasibəti isə onda ümidsizlik, soyuqluq hissinin mənbəyinə çevrilir. Bir yaşın sonunda körpənin anaya bağlılığı motivləşmə, davranış sisteminin bazasına çevrilir və onun bazasında uşağın şəxsiyyətinin formalaşması davam edir. Son dövrlərdə amerika və avropa psixologiyasında uşağın anaya qarşı bağlılığının onun həyatının müxtəlif sahələrində-məktəblərdə uğurları, sosial və idraki problemlərinin həllində, yaşıdları ilə münasibətində, sosial mühitə uğurla uyğunlaşmasında həll edici təsiri xüsusi tədqiqatlar vasitəsilə sübut edilmişdir.

Öz eyş-işrəti xatirinə uşaqlarına baxmayan və onu peşəkar olsalar belə, dayələrin himayəsinə verən analar uşaqlarına qarşı etinasızlıq göstərir, uşağına analıq hissiyatının möcüzələrini bəxş edə bilmirlər. Özgələrin, yad adamların qucağında yuxuya gedən, kədər və həsrət içində yatan belə uşaqlar ayıq vaxt da qəmgin olurlar.

Demək olar ki, bütün qızlar hələ erkən uşaq yaşlarında ana haqqında müəyyən təsəvvürlərə malik olur. Bu təsəvvürlər ailədə ananın onlara qarşı yönəlmişmünasibəti, davranışı əsasında formalaşır. Bu onların uşaq oyunlarında gəlinciklərlə olan münasibətində öz əksini tapır. Yeniyetməlik və erkən gənclik dövründə qızlarda analıq duyğularının ruşeymləri cücərməyə başlayır, həya hissi açıq emosional təzahürləri ilə diqqəti cəlb edir. "Əgər qız düzgün tərbiyə edilmiş və xoşbəxt nikaha daxil olmuşsa, normal cinsi həyat yaşayırsa, hamilələlik onun üçün təbii, qanunauyğun və arzu edilən bir hadisədir".

Mövzu 7. Kişi və qadın psixologiyası

Plan.

1. Şəxsiyyətin fərdiliyinin təşkili.
2. Qadın psixologiyası haqqında.
3. Kişi psixologiyası haqqında.

1. Hər bir insan təkrarsız və unikal xüsusiyyətlərə malikdir və bunlar onun şəxsiyyətinin fərdiyyətini təşkil edir. Insanlar arasındakı əsas fərqlərin başlanğıcı və ən çox diqqəti çəkəni kişilər və qadınlar arasındakı cinsi fərqlərdir. Bu fərqlər yalnız cinsin fərqləndirici xarici amilləridir. Lakin elm sübut etmişdir ki, kişilərin və qadınların eyniadlı daxili orqanlarıda fərqli xüsusiyyətlərə malikdir və onlar maddələr mübadiləsinin intensivliyində, tənəffüsün və ürək döyüntülərinin tezliyində, qanın tərkibində və s. də özünü göstərir.

Kişilər və qadınlar arasındakı fərqlərə həsr olunmuş çoxsaylı müqayisəli elmi tədqiqatlar bu iki fərqli cins arasında fərqlərin qarayış, məntiq və intuisiyasında, ətrafdakı adamlarla qarşılıqlı münasibətlərində, maraq, qiymətləndirici mühakimələrində, fiziki parametrlərində, təfəkkür və təxəyyülündə, fəqallıq və ünsiyyət tələbatında, xarakter, qabiliyyət, temperament xüsusiyyətlərində və bir çox digər sahələrində də mövcudluğunu təsdiq edir.

Cinslər arasında gender fərqlərinin öyrənilməsində ilk təşəbbüslər XX əsrin 30-cu illərinə təsadüf edir. 1936-cı ildə Amerikan psixoloqları Luyis Terman və Ketrin Koks-Maylz maskulnitivlik və feministliyin ölçülməsi sistemini işləyib hazırlamışlar. Onların tərtib etdikləri sprğunun məqsədi "cinslər arasındakı maraq və münasibətlərin təhlili" adlanırdı. Bu sorğuya müxtəlif keyfiyyətləri, maraqlar, meyllər, həmçinin, müxtəlif sözlərlə ifadə olunan assosiasiyalar daxil idi. Tədqiqatçılar maskulinitiv keyfiyyətlərə uca səsi, ov etmək həvəsini, uşaqlarla nadincliyi, fiziki ağrıya qarşı dözümü, feministik keyfiyyətləri isə bunlara tamamilə əks olan keyfiyyətləri aid etmişlər. 1974-cü ildə Amerikan psixoloqu Sandra Bem maskulinizm və feminizm probleminı yeni konsepsiyadan yanaşmağa təşəbbüs göstərmişdir. Əvvəlki tədqiqatlardan fərqli olaraq o, femin və maskulin xüsusiyyətləri müəyyən edilməsini cəmiyyətin öhdəsinə buraxmışdır. Çoxsaylı oğlan və qız tələbələrlə apardığı tədqiqatlar vasitəsilə o, 400 insani keyfiyyəti qiymətləndirmək təklifi ilə çıxış etmiş, müasir kişiyə məxsus 20, qadına məxsus 20, hər iki cinsə məxsus 20 neytral keyfiyyətləri aid etmişdir. Öz tədqiqatları vasitəsilə Sandra Bem maskulinist (kişiyə məxsus) keyfiyyətlərə özünə inam hissini, öz mövqeyini müdafiə etmək meylini, riskə meyilliliyi, problemi təxirə salmadan tez həll etmə xüsusiyyətini, hakimiyyətə və liderliyə meylliyi, kişiliyi, başqasını öz arxasınca aparmaq qabiliyyətini, qətiyyətliliyi, fərdiyyətçiliyi, yarışa qoşulma riskini, ambisiyalılığı (özündən razılılığı), femisint xüsusiyyətlərini isə güzəştə getməni, həyatsevərliyi, utancaqlığı, zərifliyi, sədaqətliyi, qadınlığı, dərdə şərik olmanı, qayğıkeşliyi, asta səslə danışmanı, istiqanlılığı, yumşaq, etibarlı, infantil davranışı, uşaqları sevməni, sakitliyi, söyüşdən uzag olmanı və s. aid etmişdir. Müasir dövrdə gender sxemində bu xüsusiyyətlərin sırası daha da genişlənmiş, onların sırasına hər iki

cinsə aid olan bəzi ortaq xüsusiyyətlərdə aid edilmişdir. Bir çox elmi tədqiqatlarda artıq sübut olunmuşdur ki, kişi və qadınlar arasında mövcud olan həqiqi fərqlər 5%-dən çox deyil və ciddi əhəmiyyət kəsb etmir. Öz-özlüyündə kişi və qadının psixoloji xarakteristikasında oxşar cəhətlər fərqlərdən daha çoxdur.

2. Ailə mühitində qadın bu ocağın iki əsas sütunundan biridir. Analıq və evdarlıq vəzifələri onun üzərinə düşür. Ev təsərrüfatının idarə edilməsində, uşaqların tərbiyəsi işində və onlara qulluqda ananın rolu böyükdür. Islamın müqəddəs kitabı "Quran"da cinslərin mövqe məsələsidə gender baxımından çox maraqlıdır. "Nəml" surəsinin 22-ci ayəsində deyilir: "Orada bir qadın gördüm, Mələkədir, hər şey verilmiş ona, böyük bir taxt yiyəsidir". Bu ayə müqəddəs "Quran"da hakim qadın, idarəetmə taxtında əyləşən hökmdar qadın obrazının verilməsinə və qadının uca tutulmasına işarədir.

Qadınları yüksək dəyərləndirən tanınmış Azərbaycan maarifçisi S.M.Qənizadə öz zamanında qadında qul münasibəti bəslənilməsi əleyhinə kəskin çıxış etmişdir. Qadına alçaq nəzərlə baxanlara ciddi etiraz edən S.M.Qənizadə yazırdı: "Övrətlər insaniyyət aləmində ziyarətgah mənzilləsindəndirlər. Millətlər dilində övrətə "gözəl tərəf", "şan verib" adlandırırlar, yəni insaniyyıtin gözəl tərəfi və ya gözəl yarısı deyib çağırırlar. [21, s.171]" Xalqımızın tarixində ailəsinə sadiq, qəhrəman və mübariz qadın obrazlarına heç də az təsadüf olunmur.

Milli müstəqillik dövründə elmli, təhsilli, siyasi xadim kimi tanınan qadınlarımızdan Mehriban xanım Əliyeva, Bahar Muradova, Aqiyə Naxçıvanlı, Gövhər Baxşəliyeva, Qənirə Paşayeva, Gülçöhrə Məmmədova, Nurlana Əliyeva və onlarla başqalarının adlarını iftixarla çəkmək olar. Müasir Azərbaycan qadını öz xalqının tarixi köklərinə, mental dəyərlərinə, milli adətlərinə sadiq və sədaqətlilik nümunəsidir. Azərbaycanda əhalinin 51%-ni qadınlar təşkil edir.

Qadın – ana, bacı, qız deməkdir və o, böyük qüvvə, ailənin dayağıdır. Əsrlər boyu qadınlar sübut ediblər ki, onlar yaxşı ana, bacı, həyat yoldaşı olduqları kimi, alim, siyasətçi, dövlət xadimi də ola bilər.

3. Kişilərin supermen, donjuan, kolleksiyaçı, ailəcanlı, utancaq olmaqla beşəsas tipi diqqəticəlbedir.

Supermen – qəhrəman kişi tipidir. O, igidiliyi, qorxmazlığı, qətiyyəti və əzmkarlığı ilə fərqlənir. Belə kişilərin həyatında qadınlar əhəmiyyətsiz rol oynayır. Onları yalnız parlaq, gözəl, cazibədar və seksual geyimli qadınlar özünə cəlb edəbilər. Supermenlərə həyatda nadir hallarda təsadüf olunur. Bir çox kişilər sadəcə olaraq həyatda belə kişi obrazını təqlid etməyə çalışırlar.

Donjuan - əslqadındüşkünüolan, daimyeniqadınaxtarankişitipidir. Onunüçünəslsevgivəsədaqətlilikmövcuddeyildir.Sanqviniktiplişair, yazıçı, rəssam, aktyorkimiyaradıcıinsanlararasındabeləkişitipinədahaçoxtəsadüfolunur. Donjuankişiüçüngözəlqadınyaradıcıilham, həyatenerjisi, həyatıngözəlliyisimvolu, maddiləşmişarzuvəincəsənətilahəsikimizövqmənbəyidir. Simpatiyalartez-tezdəyişənbeləkişilərsevdikləriqadınlarlaheçvaxtailəyaratmır,

sadəcəolaraqəyləncələrinidəyişirlər.Onlargözəlolur, qadınlarıyoulndançıxarmaqüçünhipnotiktəsirgüclərііləfərqlənirlər.A.S.Puçkin, İ.S.Turgenev, Höte, Bayronvə s. kimibirsıraşairvəyazıçılarməhzbuxüsusiyyətlərəmalikolmuşlar. Onlarsevdiklərihərbirqadındayeniqadınxüsusiyyətləriaxtarırvəonlarınsərhədbilməyənyenivəfərqlicəhətlərinikəşfedirdilər.Gözəlqadınlarçoxasanlıqladonjuanların hisslərqammasınadüşərəktəslimolurlar.Onusevdiyiniyəqinedənqadınlardonjuanlarqarşısındahərhansıvəzifəvəöhdəlikqoyduqda, onlarməharətləaradançıxmağıbacarırlar.

Kolleksiyaçı – müflisləşmişdonjuanöz "kolleksiyasını" doldurmaq üçün tez təsir altına düşən yeni bir qadın axtarışına çıxır. Adətən belə davranış əvvəlki qadınla münasibətlərin korlanmasından yaranan incikliklə bağlı olur.Məsələn, donjuanın rədd edilən sevgisi və ya kişi olaraq qadın tərəfindən təhqir edilməsi onda əvvəlki qadında qısqanclıq hissləri oyatmaq üçün yeni və daha cazibədar qadını öz toruna salmaq motivini gücləndirir.Kişi bununla əvvəlki qadına dərsvermək,necə bir səhvə yol verdiyini sübut etmək istəyir. Kolleksiyaçı kişi seksual baxımdan hərisdir. Ayrıca mənzildə yaşamağa üstünlükverir, qəşəng geyinir, qadınları şirnikləndirmək üçün qısa müddət hər şeyə malik olur.

Ailəcanlıkişi – özailəsinə, xanımınavəuşaqlarınahədsizbağlıolur. Cinsimünasibətlərdəözxanımınınistəklərinəuyğunlaşır, sədaqətlidir.Onunqocalığınıqəbuledirvəyeniqadınlamünasibətqurmağameylgöstərmir. O, evdəvəişdəçalışqandır, özünəməxsushobbisi (avtomobil, balıqtutmaq, ovvə s.) olur.

Utancaqkişi – qətiyyətlivəenerjiliqadınüçünmüqabiltərəfdaşdır. Beləkişiyəxanımıanaqayğısıiləyanaşır.Utancaqkişiüçünsevməkqadınarəhmigəlmək, onuhimayəetmək, qorumaqdeməkdir. Adətənbeləkişilərailədə "ayaqaltı" olurlar.Onlarişdəməsuliyyətli, intizamlıolmalarıiləseçilir, gizlipotensiallarıiləfərqlənirlər.Beləərlərіolanqadınlarailədəhakimiyyətiələaldıqdaonlarınərləriyabununlabarışır, ya da ailənitərkedirlər.

Qadınlar da psixoloji cəhətdən kişilərlə davranış baxımından sərti olaraq beş əsas tipə bölünür. Qadın tiplərini bilmək hər bir kişiyə öz gələcəyini proqnozlaşdırmaq və gələcək uğurlu ailə həyatı üçün optimal tərəfdaş seçimində olduqca vacibdir.

Qadın-ana tipli qadınlar ailə qurduğu tərəfdaşın yaşı ilə uyğunluğun olub-olmamasından asılı olmayaraq, həmişə özünü tənha hiss edir. O, ərini öz uşağı kimi himayə edir, ona rəhmi gəlir, daim ərinin maraq və tələbatlarını özününkündən üstün tutur. Belə qadın uğurlu ailə üçün ən layiqli tərəfdaşdır, o, ailədə heç vaxt problem yaratmır, əksinə, yaranan problemləri özü həll etməyə çalışır. "qadın-ana" xeyirxah və istiqanlıqdır, əri və ailəsi üçün mənəvi dayədir. O, ərinin kariyera yüksəlişi üçün hər cür əzab-əziyyətə qatlaşmağa hazırdır. Kişilər məhz belə qadınlarla ailə qurmağa daha çox önəm verirlər. Bu tipli qadınlar həmişə ailə həyatı qurmağa nail ola bilirlər və onların təhsil səviyyəsi ərləri üçün heç də önəmli olmur. Onlar ərlərini çox sevir, ona pərəstiş edir, yaşça

kiçik olsalar da, mənəvi cəhətdən onların səviyyəsinə yüksəlməyə çalışırlar. Ər-arvadlıq münasibətlərində heç vaxt ərlərini incik salmır, ərinə məmnunluq bəxş etmək üçün hər şeyə razı olur. Yüksək alturizmç onlar üçün səciyyəvi xüsusiyyətdir. "Qadın-ana"lar heç vaxt liderliyə can atmır və ailədə müsbət psixoloji iqlim yaratmağa bacarırlar. Belə qadın tipi ailə həyatı üçün son dərəcə gözəl tərəfdaşdır.

"**Qonaq evinin bəzəyi**" tipli qadınlar heç vaxt özündən kiçik tərəfdaşla ailə qurmurlar. Belə qadınlar daim uşaq kimi özlərinə qarşı qayğı və diqqət tələb edirlər, ərköyün və şıltaqdırlar, ərinə uşaqlarına, ailənin yaşlı üzvlərinə qulluq göstərməkdən boyun qaçırırlar. Onlar yalnız özlərini düşünən eqosentristirlər, həmişə diqqət mərkəzində olmağı sevirlər. Mürəkkəb xarakterli olan belə qadınlar ərlərini yoraraq, təngə gətirərək onu öz iradələrinə tabe etməyi bacarırlar. Yalnız özlərini, öz rahatlıqları və firavanlıqları, geyim-kecimi, bəzək-düzəyi barədə düşünən bu tip qadınlar ərlərinin və uşaqlarının səliqə-səhmanına etinasız yanaşırlar. Onlar ərləri üçün yalnız zahiri bəzəkdir. Belə qadınların ərini xoşbəxt hesab etmək olmaz. "qonaq evinin bəzəyi" tipli qadınlar öz cazibədarlıqları ilə daim ərlərini özlərinə bağlı vəziyyətdə saxlamağı məharətlə bacarırlar və onlardan ayrılmaq olmur.

"**Qadın-dost**" tipli qadınlar əvvəlki iki qadın tipindən daha müsbət xüsusiyyətlərə malikdirlər. Belə qadınlar ağıllı, sədaqətli, düşüncəli və realistdirlər, onlara etibar etmək olar. "Qadın-dost" öz ərinə həyatda liderliyin dadını duymaq şansı yaratmağa qadirdir. Ailədə ərinin nüfuzunu qəbul edir və hörmətini saxlayırlar. Onlar yaxşı sevgili, qayğıkeş ana, etibarlı dost, konfliktlərdən uzaq olmağa çalışan sədaqətli qadın kimi hamının hörmətini qazanmağa bacarırlar. Güclü xarakter sahibi olan belə qadınlar ərlərini həyat planlarınahörmətlə yanaşır, onlara yaxından kömək göstərirlər.

"**Qansovuran qadın**" heç vaxt tərəfdaşın yaşına əhəmiyyət vermir və bu onlar üçün əhəmiyyətsiz məsələdir. Belələrinin nəzərində qoca və ya cavan olmağın heç bir fərqi yoxdu. Onların kişinin var-dövləti maraqlandırır. Ərinin yaşı kimi təhsil səviyyəsi, vəzifə sahibi olub-olmaması, həyatda mövqeyi də onları üçün əhəmiyyətsizdir. Belələrini düşündürən yeganə amil kişinin faydalı olmasıdır. Ancaq maddi rifah haqqında düşünən belə qadınlar əsl "qansovuran", zalım hökumdardır. O, ərini daim xidməti nərdivanın yüksək pilləsinə itələyir, nəyin bahasına olursa-olsun gəlirlərinin çoxalmasını arzulayır. Ərlərini öz toruna salmağa məharətlə bacarır, ciddi xarakterə və iradəyə malikdirlər, heç vaxt öz niyətlərindən əl çəkmillər. Ailələrdə intim münasibətlərdə belə qadınlar çox fəaldırlar. Ərlərinin xəyanətini onlar heç də faciə kimi qarşılanmır. Bir daha belə halın baş verməməsi üçün fəal mövqe tutur, ərinin məşuqəsi ilə döyüşərək onu məğlub etməyi bacarırlar. Evdə səliqə-səhman yaradan belələri həm də yaxşı ev sahibəsi ola bilirlər. Onlar özlərindən razı görünür, həyatdan nə istədiklərini bilir və onu əldə etməyi bacarırlar. Ərin lider ola bilmədiyi ailələrdə belə qadfınla ailə başçısı funksiyasını bacarıqla yerinə yetirirlər.

İşgüzar qadınları şəxsi həyatlarından daha daha çox işgüzarkariyera və şəxsi intim məsələlər maraqlandırır. Ev, ailə, ər, uşaqlar ona gətirən ciddi problemdir. O, evdarlığı bacarsa da, ev işləri onu maraqlandırmır. Onlar cəlbedici görünməyi və ciddi geyinməyi sevirlər. Onları daha çox kişi xarakterli, yəni maskulunist olur və kişi rolunun ifaçısını xatırladırlar. Işgüzar anaların ailəyə, uşaqlara və ərinə qulluq üçün mənəvi qüvvələri və vaxtları çatışmır.

Müasir dövrdə qadın və kişi münasibətlərində əsas problem heç də bizim çox vaxt düşündüyümüz kimi pulla deyil, ünsiyyətlə bağlıdır. Müasir ailələrdə qarşılıqlı münasibətlərin xarakterini müəyyənləşdirən əsas alim bir-birinin emosional tələbatlarına qayğıkeş münasibətlərdir. Səmimi söhbətlər qadınlar üçün əhvalı yaxşılaşdırmağın təsirli vasitəsidir. Kişilər bir qayda olaraq öz probleemləri və bununla bağlı hisslərini ailədə çox vaxt açıb-ağartmağı, çox danışmağı xoşlamadıxları halda, qadınlar səmimi sözləri, sevgiyə layiq olduqları barədə sözləri məmunluqla qarşılayır və buna daim ehtiyac hissi edirlər.

Mövzu 8. Gənc ailənin psixologiyası.

Plan.

1. Gənc ailə dedikdə nə başa düşürsən.
2. Gənc ailənin adaptasiya və inteqrasiyası.
3. Ailədə səbr və güzəştə getmənin rolu.

1.“Gənc ailə” dedikdə, nikah yaşı beş ildən az olan ailə nəzərdə tutulur. Bu orta hesabla cütlüklərin 23-30 yaş hədlərini əhatə edir. Nikahın ilk beş ilində cütlüklər bir-birilərinə uyğunlaşır, mənzil üçün əlavə avadanlıqlar alır, adətən şəxsi mənzil olmadığından valideynlıəri ilə birlikdə və ya kirayədə yaşayırlar. Gənc cütlüklər mənzilə sahib olduqdan sonra özlərinin şəxsi ev təsərrüfatını yaradır, uşaq gözləyir, ailə planlaşdırılması əsasında arzu edilən uşaqların sayını müəyyənləşdirirlər. Ailədə körpə uşaqların olması gənc ailənin qayğılarını artırır, onlara qulluqla bağlı meydana çıxan yeni problemlərin həllinə daha çox vaxt sərf etməli olurlar. Ər- arvad cütlüyündən ibarət gənc ailənin həyatında uşaqların olub-olmamasından asılı olmayaraq ilk 5 il ən məsuliyyətli bir dövrdür. Gənc ailə həm də uşaq gözləyən və y körpə uşaqları olan ailədir.

Lakin həyat sübut edir ki, ailə quran və gənc ailə adlanan cütlüklərin heç də hamısı həm iqtisadi, həm sosial, həm də psixoloji planda ailə həyatına tam hazırlıqlı olmurlar.

Mövcud həyati reallıqlar göstərir ki, hər gənc ailədən 4-ü tam sərbəst yaşaya bilmir, vlideynlərin bu və ya digər formada köməyinə etiyac hiss edirlər. Mənzil- məişət, maddi təminat, işlə bağlı problemlər,

həmçinin ailədə körpə uşağa qulluqla bağlı çətinliklər gənc ailəyə dəstək göstərilməsini tələb edir. Müasir gənc ailənin qarşılaşdığı ən başlıca problem mənzil-məişət problemidir. Gənc ailənin möhkəmləndiril-məsində, ər –arvad cütlüyü arasında adaptasiya dövrünün uğurla keçməsində ad günlərinin qeyd edilməsinin, bayramlarda hədiyyələrin bəxş edilməsinin, sürpriz və komplimentlərin, birgə gəzinti və istirahətin önəmli təsiri vardır.

Qadın öz xarici görüşünə, ona yaraşan paltar bəzək və kosmetika vasitələrinə düzgün dəyər verməyi bacarmalı, bu məsələdə ərinin zövgü ilə hesablaşmalıdır. Ailə münasibətlərində bu məsələ mühüm rol oynayır. Bu, göstərilən məsləhətlərə əməl etməklə yanaşı, ər-arvadın hər ikisi həyatda baş verə biləcək çətin hallarda şəraitə müvafiq olaraq birgə səylə çıxış yolu tapsalar, ailədə həmişə birlik, məhəbbət və sevginin olacağı şübhəsizdir. Həyatda yaxşı anaolmaq üçün ailəyə və evə bağlılıq mühüm amillərdən biridir. Gənc ailədə ər-arvad arasında intim hisslərin qüvvəsinə baxmayaraq, həmişə narazılıq olur və bu narazılıq əsəbiliyə, incikliyə və küskünlüyə gətirib çıxarır. Bəzi gənc qadınlar arzuladığı və xəyal qurduğu bir çox şeylərə nail ola bilməyəcəklərini düşünərək özlərini bədbəxt hesab edirlər. Bəzi qadınlar ev xanımı olmaq mövqeyi ilə razılaşmır, ərinin rəyi ilə hesablaşmadan işləmək istəyirlər. Onların şəxsi maraqları ailə maraqları çərçivəsindən kənara çıxır. Bu da ailədə tez-tez münaqişələrin baş verməsinə səbəb olur.

Məlumdur ki, yaxşı ailə bir gündə yaranmır. Bunun üçün vaxt lazımdır və o, tədricən qurulur. Gənc ailənin həyatının ilk günlərində, birgəyaşayış şəraitində cütlüklərə aydın olur ki, məhəbbətn əsasında birləşən taleləri yalnız məhəbbətin gücü ilə qoruyub saxlamaq olar və bunun üçün yaxşı fürsət yaranmışdır. Nigahagədərki mərhələdə özünü göstərən romantik məhəbbət tədricən real məhəbbətə keçir. Qarşılıqlı anlaşma və güzəşt, qarşılıqlı hörmət və məsuliyyət real məhəbbətin təməl prinsipinə çevrilir. Normal intim münasibətlər gənclərin ailə həyatına cəlbedici rənglər qatır.

2. Gənc ailənin həyatı bir neçə mərhələdən keçir. Bunların sırasında adaptasiya və inteqrasiya adlanan mərhələlər xüsusilə önəmlidir.

Adaptasiya mərhələsində yeni ailə quran gənclərin ailə naminə öz mövqelərini, təsəvvür və rəylərini, zövq və tələbatlarını könüllü şəkildə birləşdirməlidir. Buraya qarşılıq münasibətlərin üslubu, maddi və

məişət problemləri, ailə büdcəsi, mənəvi həyatın, asudə vaxtın və istirahətin birgə təşkili, intim həyat, ilk uşağın doğuşunun gözlənilməsi, valideynlərlə qarşılıqlı münasibətlər, biri-birinin peşə və ictimai fəaliyyətinə, habelə mənəvi dəyərlərə münasibətin formalaşması daxildir. Ailənin inteqrasiyasında uğurlar ailə quran gənclərin ağıllı və düşünülmüş adaptasiya olmadan qeyri-mümkündür. Adaptasiya dedikdə, ər-arvadın bir-birinə, habelə ailənin ümumi iqliminə uyğunlaşması, ərlə-arvadı birləşdirən ümumi dəyərlərin birgə axtarışı nəzərdə tutulur. İnteqrasiya və adaptasiya qarşılıqlı asılı olan və qarşılıqlı şərtlənmiş, bir-birni tamamlayan sosial-psixoloji və mənəvi proseslərdir. Bu proseslər o halda uğurla nəticələnir ki, gənclərdən hər biri bu proseslərə öz töhfəsini versin, bir-birinə əl uzatsın, biri-birinin hisslərini anlayışla qarşılasın, biri-birinə dəstək verib həmdəm olsunlar. Eqoistik maraqlar, təzyiq və zorakılıq təzahürləri, kobudluq, bacarıqsızlıq, pintilik, tənbəllik, moda aludəçiliyi, ailənin real imkanları ilə hesablaşmamamq, şübhəmeyillilik, sosioneqativ vərdişlər, xəyanət və s. ailənin sütunlarında çatlar yaradır. Uzunmüddətli ayrılıq, tez-tez küsüşmə, inciklik ər-arvad cütlüyünün psixikasına zərbə vurur, mənəvi sağlamlığı zədələyir.

Gənc ailə sözün əsil mənasında cütlüklərin bir-birinə adapatasiyası bir sıraşərtlərdən asılıdır. Buraya düşüncəli səbr və dözüm, başqasının haqlarını tanımaqla səmimi hörmət, öz ləyaqətini qorumaqla yanaşı, başqası üçün fədakarlıq və s. kimi müsbət davranış nümunələri daxildir. Bunlar isə birtərəfli yox, qarşılıqlı olmalıdır. Ailənin möhkəmliyində sevgi əsas şərtdir, lakin bu həm də aysberqin görünən romantik tərəfidir. Əsil sevgi isə həm də ailə həyatı dövründə onu qoruyub saxlamaqdır.

Adətən, gənc ailədə ərlə arvad arasında ev təsərrüfatının və məişət həyatının təşkilində problemlər olur. Gənc ər mağazaya getməyi, mənzili yığışdırmaqda xanımına kömək etməyi və s.kimi işləri görməkdə yardımçı olmağı heç də eyib saymır. Belə ailələrdə qarşılıqlı adaptasiya dövründə konfliktlər nadir hallarda olur.

Burada əsrlər öncə yaranmış müdrik xalq misalını xatırlatmaqyerinə düşərdi.

“Qədim dövrlərdə qeyri-adi, təəccüblü bir ailə yaşayırdı. Bu ailə 100 nəfərdən ibarət idi. Bu ailədə söz birliyi, məhəbbət və hörmət hökmran idi. Bu ailə haqqında söz-söhbət imperatora gəlib çatmışdı. O, bu ailəyə baş çəkməyə gedir. İmperator heç nəyin şayə olmadığına

gözləri ilə şahid oldu. İmperator ailə başçısında belə əmin-amanlıq, mehribanlıq şəraitindən, inciklikdən uzaq bir mühitdə yaşamağın sirrini soruşdu. Ailə başçısı vərəq götürdü və bu suala cavab yazdı. O, 100 söz yazdı. İmperator cəld kağızı alıb oxudu. Orada 100 dəfə "səbr" sözü yazılmışdı".

3. Psixoloqlar ən xoşbəxt və mehriban həyat sürən, yaşlı, uşaq tərbiyə edib böyütmüş, öz gümüş toylarını etmiş 5 cütlüyə anket paylamış və ərlə- arvadın sahib olmalı olduqları 8-10 əsas keyfiyyətin adını yazmağı xahiş etmişlər. 5cütlükdən 4-ü digər keyfiyyətlərlə yanaşı, səbr və güzəştə getmənin adını da qeyd etmişlər. Lakin ailədə insan ləyaqətini alçaldan, qüruru ayaqlar altına salıb əzən hərəkətlərə güzəştə getmək olmaz. Cütlüklər qarşılıqlı olaraq biri-birlərinin şəxsi ləyaqətinə, mənliyinə aid dəyərlərə hörmətlə yanaşmalıdırlar.

Bir çox hallarda ailənin həyat ahəngini və rahatlığını pozan səbəb böyüklərin gənc ailədən özləri kimi yaşamalarını, düşünmələrini və hərəkət etmələrini israrla tələb etməlidir. Bu tələb və tələbkarlıq yerinə yetirilməyəndə ailənin böhranı, qiyamətli günləri başlayır. Bu təzyiqlər gah oğlanın, gah da qızın valideynləri tərəfindən edilir və incikliklər qohumluq əlaqələrinin tellərini qırır, ailənin isti mühitini soyudur. Gənc ailənin həyatına yersiz müdaxilələr istər cəhalətdən, istərsə də səmimiyyətdən irəli gəlsin, hər iki halda yanlışlıqdır. Qaynana ağılı və həyat təcrübəsi ilə örnək, ibrətverici olmalı, yeni ailə qurmuş gənclərə, oğluna və gəlininə qarşı səxavətini artırmalıdır. Gəlin-qaynana problemi tarix boyu iki əsas qaynaqdan yarnıb: cəhalət və qısqanclıq. Ailə həyatında gənc xanımların qarşılaşdıqları ən ciddi problemlərdən biri "qaynana fobiyası"dır.

Məhz buna görədir ki, gəlin köçən gənc qızların əksəriyyəti bəyin valideynləri ilə deyil, ayrıca həyat sürməyə üstünlük verirlər.

Cəmiyyətdə əxlaqi fəzilətə dəyər verən insanlar həmişə öz doğmaları ilə isti və ahəngdar münasibətlərdə olmağa önəm vermiş, bu məsələyə hssaslıqla yanaşmışlar. Əxlaqi fəzilət ədalət, doğruluq, səmimiyyət, mehribanlıq, həyat, uyğunluq, gülərüzlülük, sədaqət və hörmətdən ibarətdir. Nəsillərdən-nəsillərə keçərək günümzədək gəlib çatmış bu mənəvi dəyərlər ailə ocağında mehribanlıq və xoşbəxtliyin əsasıdır.

Mövzu 9: Nikahda uyğunluq və psixoloji uyuşma

Plan:

1. Kişi və qadın arasındakı münasibətlərin istiqamətləri.
2. "İdeal Nikah" haqqında məlumat.
3. Nikah müqaviləssinin bağlanması haqqına.

1. Cinslər arasındakı intim münasibətlər insanların dərin maraq dairəsində olan məsələlərdən biridir. Bu münasibətlər ailənin təşkil olunması, nikah üçün tərəfdaşın seçilməsində və əks cinsə olan tələbat əsasında ailənin reproduktiv funksiyasının yerinə yetirilməsində əks olunur. Hələ qədimlərdən kişi və qadın arasındakı cinsi yaxınlıq bir neçə müstəqil istiqamətə bölünmüşdür. Birincisi, bu nəsli davam etdirm\k üsuludur. Ikincisi, bu elə bir ünsiyyət vasitəsidir ki, onun nəticəsində kişi ilə qadının münasibətləri formalaşır, hər ikisinə qarşılıqlı məmnuniyyət hissi bəxş edən enerji mübadiləsi baş verir.

İntim münasibətlər sahəsində ərlə arvad bir-birini təmin edə bilmədikdə, ailədə söz-söhbət, dava-dalaş üçün şərait yaranır, ailə münasibətləri tədricən pozulmağa başlayır, kişi və ya qadın evdən soyuyur, kişilərin yeni məhəbbət macəraları başlayır. Bu isə seksual uyğunsuzluğun nəticəsidir və boşanmaların 30%-i məhz bu uyğunsuzluqla əlaqədar baş verir.

Ailənin intim həyatı ər-arvada insan bünasibətlərinin özünəməxsus hərarətini bəxş edir. Bu münasibətlər qarşılıqlı məhəbbətə və uyğunluğa əsaslananda daha da gözəlləşir, qarşılıqlı ünsiyyətin, simpatiyanın fərəhli anlarına çevrilir.

Görkəmli mütəfəkkirlər intim münasibətlərdə qadının roluna həmişə böyük əhəmiyyət vermişlər. Qadın hər zaman özünün cəzibədarlığını, zərifliyini, mehribanlığını, gözəlliyini qoruyub saxlamalıdır. Yaşı, peşə sahəsi, təhsil səviyyəsi çərçivəsində həmişə səliqə-səhmanlı olmalı, öz cazibədarlığını itirməməlidir. Intim münasibətlər qadının rəftar və davranışı ilə birləşəndə daha da nəcibləşir. Fransız mütəfəkkiri J.J.Russo "Yuliya" və ya "Yeni Elioza"

romanında yazırdı: "... ən sədaqətli qadınlar ərlərinin ixtiyarını öz əllərində, adətən, daha çox axlayırlar, onlar nə şıltaqlıq edir, nə də ərlərini rədd edirlər. Ağıllı və incə təmkinlilik sayəsində öz ərləri ilə çox zərif rəftar edib, onları müəyyən məsafədə saxlamağı bacarır və heç vaxtı doymağa qoymurlar".

Bütün kişilər cinsi əlaqədən əvvəl qadın bədənindəki "**erogen zonalar**" adlanan müəyyən sahələrin stimulyasiyasını praktik olaraq yerinə yetirirlər ki, bu da cinsi aktdan daha çox məmunluq verir. Bədəndə oyanmaya cavab verən dəqiq və sabit nöqtələr olsa da, bunların əksəriyyəti öz yerini dəyişə və yox ola bilər. Bədəndəki əsas erogen zonaları bilmək həm kişi, həm də qadın üçün orqazım hissinin yaranmasını şərtləndirən əsas alimdir. Erogen zonalar stimulyasiya yolu ilə cini oyanmaya səbəb olan bədənin xüsusi həssas sahələridir. Erogen həssas nöqtələrin yerləşməsi qadın bədəninin fədrdi quruluşundan, iqlim, stress, uşağın doğulması kimi bir sıra xarici amillərin təsirindən asılıdır. "**Fransız öpüşü**" adlanan üsul dildən istifadə vasitəsilə həyata keçirilir və qadınların yalnız 20%-də cinsi oyanmaya səbəb olan üsullardan biridir. Bundan başqa qadınlarda göbək, qulaqlar, boyun, kürəklərin arası, döş, yanlar, budların arxası, klitor, uşaqlıq divarının 5-6 sm içərisi, uşaqlıq, dizlər və s. erogen zonalara aid edilir. Seksoloqlar əlavə erogen zonalar başdakı tükləri də aid edirlər. Kişi və qadın bədənində birinci erogen zonalara dodaqlara, cinsiyyət dodaqları, dil və dişlər aiddir. Qadınlarda klitor, vegetativ sinir sisteminin açarıdır. Kişilərdə isə penesin (follosun) başlığında ürəyin əksi zonaı yerləşir.

2. Nigaha daxil olmanın bir çox motivləri vardır ki, onların sırasında məhəbbət, daimi cinsi tərəfdaşın olması istəyi, uşaqlara sahib olmaq arzusu, məişət problemlərin birgə həlli və yaranmış vəziyyət kimi amillər aparıcı yerdə durur. Ahəngdar nikah ilk növbədə cütlüklərin sosial yetkinliyi, cəmiyyət həyatında fəal iştirak, öz ailəsini maddi cəhətdən təmin etmək, borc və məsuliyyətin dərk edilməsi, özünüələalma və çeviklik sayəsində mümkündür. Daha uğurlu nikaha o adamlarda rast gəlinir ki, onlar öz həyat yoldaşlarına inam bəsləyir, ona etibar edir, sədaqətlidir, ailəyə sevgi ilə yanaşı və ciddi xarakterə

malikdir. "**İdeal nigah**"da cütlüklər, adətən, şəxsiyyətin dözümlülük, təmkinlilik, əməksevərlik, qayğıkeşlik, fədakarlıq və çevik davranışa sahibolma kimi keyfiyyətlərinə üstün əhəmiyyət verirlər. Bunlar dolayı yolla ər-arvad həyatına müsbət təsir göstərən amillərdir. Yeni ailə həyatı qurmaq istəyən çütlüklər ilk növbədə seçdikləri oğlanın (qızın) ailəsindəki mənəvi-psixoloji iqlimdən xəbərdar olmalı, biri-birinin ailələrindəki həyat tərzi və ailə qaydalarına. Maddi rifaq səviyyəsinə, valideyn ailələrindəki ailədaxili münasibətlərin xarakterinə bələd olmalıdırlar. Psixoloqların qənaətinə görə, ən kiçik travma belə uşaqların psixologiyasında dərin iz qoyur və uşaqlardan mənfi baxışlar və mövqe formalaşdırır.

Öz dünyagörüşlərinə görə bir-birindən kəskin fərqlənən tərəfdaşlar arasında daim həlli mümkün olmayan və get-gedə dərinləşən konfliktlər daha tez-tez baş verir. Təhsil səviyyəsi yüksək dünyagörüşü üçün təminat versə də, heç də həmişə ailə münaibətlərinin sabitliyinə etibarlı təminat hesab edilə bilməz. Hətta ali təhsil müəssisəsini bitirmiş gənclər arasında bağlanmış nigahlarda da baş qaldıran konfliktlər vaxtında aradan qaldırılmadıqda boşanmaya gətirib çıxarır. Lakin nikaha daxil olan tərəfdaşların intellektual səviyyəsi və xarakteri bir-birindən kəskin fərqlənməməlidir. Psixoloqların fikrincə, iş yerini tez-tez dəyişməyə meyilli olan şəxlər ailə həyatında da etibarlı olur. Belə şəxslər özlərini təmkinsizliyi, hədsiz eqoist olmaları, kollektivdə uzunmüddətli münasibətlər qura bilməmələri və konfliktlərə meylli olmaları ilə fərqlənirlər. Uğurlu nigahda **yaş amili** heç də az əhəmiyyət kəsb etmir. Yaş nikaha daxil olan cütlüklərin şəxsiyyət yetkinliyinin, ər-arvad və valideynlik öhdəliklərini yerinə yetirməyə hazırlığının etibarlı göstəricilərindən biridir. **Qeyri-bərabər nikahlar** adlandırılan nikahların davamlılığı bir çox cəhətdən heç də yalnız hər iki tərəfdaşın xarakterindən, onların qarşılıqlı hisslərindən deyil, həm də cinsə uyğun formalaşmış yaş xüsusiyyətlərindən, ətrafdakı adamların tənələrinə müqavimət göstərə bilmək bacarığından da asılıdır.

Qadınlarla kişilər araındakı münasibətləri, davranış və hərəkətləri müəyyən qaydalar əsasında tənzimləyən cinsi normalar **intim normalar** adlanır.

Hər bir cəmiyyətin özünəməxsus intim norma və qanunları mövcuddur. Əgər bu norma və qanunlar təbiilikdən və sağlam düşüncədən məhrumdursa və insanın intim ehtiyaclarını ödənilməsinə imkan vermirsə, o zaman insanın şüurunda təbii intim enerjinin qarşısında maneələr yaranır ki, bu da öz növbəsində ruhi müvazinətin pozulmasına – günah hissinə , narahatlığa, həyatdan küskünlüyə və son nəticədə hansısa xəstəliyin yaranmasına səbəb olur.

Uğurlu nikahı şərtləndirən amillər sırasında **tanışlıq dövrü** də önəmli amillərdən biridir. Tanışlıq dövründə tərəfdaşların biri-birini yalnız optimal deyil, həm də çətin vəziyyətlərdə yaxşı tanıması vacib amildir. Çünki insanların şəxsi keyfiyyətləri və xarakterinin gizli əlamətləri məhz belə vəziyyətlərdə özünü daha qabarıq biruzə verir. Qeyd olunan bütün bu amillər gələcək cütlüklərin nikahda uyğun olub-olmamasına təminat verir. Psixoloji uyğunsuzluq dedikdə, ilk növbədə böhranlı vəziyyətlərdə biri-birini anlamanın mümkünsüzlüyü nəzərdə tutulur. Nikahda cütlüklərdə hər biri "psixi-travmatik" subyekt kimi özünü göstərə bilər. Bu cütlüklərdən birinin digərinin hər hansı bir tələbatının təmin edilməsinə maneə olduğu zaman özünün biruzə verir. **Psixoloji uyğunluq isə** tərəfdaşların ünsiyyətdə, birgəyaşayış və birgə fəaliyyətdə bir-birini qəbul etməsi kimi anlaşılır. Bu, sərvət meylində, şəxsi və psixofizioloji xüsusiyyətlərin uyğunluğunda və bir-birini tamamlamasında özünü göstərir. Hazırda elmi əsaslarda sübut olunmuşdur ki, yaşlı adamların dolğun seksual həyat yaşaması, həyatın bütün məqamlarında onların fəal olmaları üçün çox vacibdir. Ömrü boyu müntəzəm cinsi əlaqədə olan qadınlar orta hesablama öz həmyaşıdlarından 7 il çox yaşayırlar. Müntəzəm cinsi həyat həm də qadınlarda klimaksın cinsi keçid dövrünün nisbətən yüngül keçməsinə, kişilərdə isə prostat vəzinin adenomasının profilaktikasına zəmin yaradır. Subyektlərin psixoloji uyğunluğu çoxəviyyəli və çoxcəhətli hadisədir. Ailə münasibətlərində onun **psixofizioloji uyuşma, şəxsi uyuşma**, habelə **koqnitiv** (özü, başqaları və bütövlükdə dünya haqqında

təsəvvürlərin dərk edib yadda saxlanılması), **emosional** (insanın xarici və daxili aləmində baş verənlərə münasibəti), **davranış və mənəvi uyuşma** kimi səviyyələri fərqləndirilir. Beləliklə, şəxsi ölçülər baxımından ahəngdar ailə-nikah münasibətlərinin bir sıra elementlərini sadalamaq olaq: a) ər-arvad münasibətlərinin emosional cəhəti, bağlılıq səviyyəsi; b) özünü, tərəfdaşı, bütövlükdə dünyanı dərketmədə baxış və təsəvvürlərin oöşarlığı; ç) tərəflərdən hər birinin üstün hesab etdiyi ünsiyyət və davranış modelinin oxşarlığı; c) tərəfdaşların seksual, daha geniş mənada psixofizioloji uyğunluğu; d) ümumi mədəni səviy yə, tərəfdaşların psixoloji və sosial yetkinlik səviyyəsi, tərəfdarın psixoloji və sosial yetkinlik səviyyəsi və cütlüklərin dəyərlər sisteminin oxşarlığı.

3. Əgər nikaha daxil olmaq üçün aktivlər və ya stimullar passivləri keçirsə, onda nikah müqaviləsinin bağlanması haqqında qərar qəbul edilir. Bunun üçün **ikinci** zəmin ondan ibarətdir ki, nikah üçün tərəfdaş seçimi özündən gənc insanların keçməli olduğu bir sıra ardıcıl mərhələləri birləşdirilir. Hər hansı mərhələnin şərtlərinə uyğun gəlməyən şəxs **"oyundan"** çıxır. **Birinci** mərhələni B.Mursteyn "stimul" adlandırmışdır. Kişi və qadın bir-birini gördükdə ilk növbədə başqa adamın xarıcı görünüşü, onun ağlı, cəmiyyətdəki yeri haqqında ilk rəy formalaşır, onlarda başqa adam üçün cəlbedici ola biləcək şəxsi keyfiyyətlərin qiymətləndirilməsi və qavranılması baş verir. Əgər tərəfdaşlar arasında attraksiya – ilk təəssüratların cəlbediciliyi rəyi formalaşırsa, cütlüklər **ikinci,** "dəyərlərin müqayisəsi" mərhələsinə keçirlər. Tərəfdaşlar özlərinin həyata baxışlarını, nikah, ailədə uşaqların tərbiyəsində kişi və qadın rolu və s. barədə müzakirələr aparırlar. Kişi və qadın özlərində onlar arasında ümumilik təşkil edən cəhətlərin az olduğunu yəqin etdikdə, biri-biriləri ilə əlaqəni kəsirlər. Əgər, birinci mərhələdə meydana gələn zahiri cəlbedicilik dəyərlərin oxşarlığı ilə möhkəmlənərsə, tərəfdaşların qarşılıqlı münasıbətləri "rol" mərhələsinə daxil olur.

Üçüncü, "rol" mərhələsində tərəfdaşlar özlərinin rol davranışınındigərinə uyğun olub-olmadığını yoxlayırlar. Əlbttə, bir-birinə vurulan və qısa tanışlıqdan

sonra heç bir qorxu və təhlükə gözləmədən yalnız hisslərin gücü ilə olan nikaha daxil olan insanlar heç də az deyil. Lakin tərəfdaşların əksəriyəti biri-birinin ləyaqətini, nöqsan və qüsurlarını tanımaqla, qarşı tərəfi ətraflı öyrənməklə 0702579197 son qərar qəbul edirlər. Nikah üçün tərəfdaş çimində bir neçə mərhələlənin olması ideyası A.Kerkhoff və K.Devisin "**filtirlər**" **nəzəriyyəsinin**əsasını təşkil edir.

Sxematik olaraq bu prosesi ardıcıl filtirlər seriyasından keçmək kimi təsəvvür etmək olar. Bu prosesdə insan çox saylı mümkün tərəfdaşları fərdi olaraq imkanı qazanmış olur. Birinci filtir **yaşayış yeri** adlanır. Burada insan həyatda hrç vaxt qarşılaşa bilməyəcəyipotensial tərəfdaşı seçir. Sonra homoqam filtirdə fərdin sosial meyarlarına uyğun gəlməyənlər kənarlaşdırılır. Bu mərhələdəinsan onun üçün cəlbedici görünən adamlarla əlaqələrə daxil olur. Sonuncu mərhələdə seçim aparan tərəfdaşların dəyərlərinin və rol gözləmələrinin uyğunluğu müəyyənləşdirilir. Bütün filtirlərdən uğurla keçidin nəticələri nikaha daxil olmağa əsas yaradır.

1. **Qarşılıqlı əlaqələrin qurulması.** Bu, iki insanın bir-biri ilə asan ünsiyyət yaratmasını və hər kəsin öz "boşqabında" başqasınınecə qəbul etməsini əks etdirir. Qarşılıqlı əlaqələrin qurulması sosial-mədəni (sosial sinif, təhsil, din, üslub və həyat tərzi, tərbiyə) amillərdən, habelə şəxsin başqaları ilə ünsiyyətə daxil olmaq qabiliyyətindən asılıdır.
2. **Özünüaçma.** Başqa adamla qarşılıqlı münasibət duyğusu yüngülləşmə və inam hissləri doğurur və özünü başqalarına təqdim etməni asanlaşdırır. Burada da sosial-mədəni amillərin gücləri təsiri vardı.
3. **Qarşılıqlı asılılığın formalaşması.** Tədricən kişi və qadında qarşılıqlı əlaqədə olma vərdişləri baş qaldırır və inkişaf edir, onlar biri-birlərinə tələbat hissedir və biri-biriləri üçün darıxırlar
4. **Şəxsiyyətin əsas tələbatlarının, xüsusən sevgi, inam və etibar hisslərinin reallaşması və stimulyasiyası.**Məhəbbəthissinin inkişafı birinci mərhələdən dördüncüyə doğru gedir. Şübhəsiz ki, bu mərhələdə

tərəfdaşlardan birinin burahdığı ciddi səhv, yol verdiyi neqativ hərəkətlər sevgi münasibətlərinin inkişafında ciddi əngəl ola bilər. Alman alimi R.Zidlər belə hesab edir ki, Avropanın sənayə cəhətdən inkişaf etmiş bir sıra ölkələrində insanların əksəriyyətindənikaha daxil olmaq niyyəti uzunmüddətli prosessdən keçir və onların nikaha və ailəyə olan sosial-mədəni yönəlişliklərindən asılıdır. R.Zidlerin fikrincə, nikah üçün tərəfdaş seçimini filtirləşdiermə prosesi ilə müqayisə etmək olar. Əvvəlcə sosial cəhətdən uyğun gələn tərəfdaşlar kateqoriyası müəyyənləşdirilir. Bu insanın yaşadığı sosial mühitdə olar ki, hiss edilmədən baş verir. Sonra mümkün tərəfdaşlar toplumu sırasından **psixoloji, seksual-erotik və estetik** meyarlar əsasında spesefik seçim aparılır. Bu zaman gənc insanların daxil olduğu ailənin **ilkin peşə karyerası, təhsil səviyyəsi sosial statusu** barədə təəssüratlar əsas amil kimi nəzərə alınır.

Mövzu 10: Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi

Plan:

1. Cinsi tərbiyəni başqa tərbiyə formaları kimi nə vaxtdan başlamalıdır.
2. Yeniyetmə oğlan və qızların dostluğu haqqında.
3. Z.Freyd cinsi röyalar haqqında, baxışları haqqında.

1. Cinsi tərbiyənin məqsədi şəxsiyyəti düzgün tərbiyələndirmək, ictimai və əxlaqi normaları, özünün psixoloji və fizioloji xüsusiyyətlərini dərk etmək və buna görə öz cinsi ilə müqabil cins arasında optimal münasibətlər yaratmağa kömək etməkdir. Cinsi tərbiyə, ictimai-əxlaq prinsipləri və gigiyenik tələblərə uyğun olaraq inkişafda olan şəxsiyyətlərə - kiçik oğlan və qızlara, gənc oğlanlara və qızlara gəldikdə, isə yalnız kişi və qadın rolunu deyil, həm də ər-arvad, ata və ana olmaq rolunu mənimsənilməsinə kömək etməlidir. Cinsi tərbiyənin, ümumiyyətlə , tərbiyə kimi nə şəkildə və nə həcimdə, yaşa müvafiq

olaraq uşağın şüuruna nə çatdıracağı, tərbiyəçi tərəfindən nəzərə alınmalıdır. Düzgün cinsi tərbiyə vermək üçün böyük yaşlılar uşağın seksual inkişafının bütün dövrlərini və seksuallığın normal və patoloji təzahürlərini bir-birindən seçə bilməlidirlər.

Cinsi tərbiyəni də başqa tərbiyə formaları kimi mümkün qədər tez başlamaq lazımdır. Demək olar ki, o, uşağın həyatının 7-8-ci günlərindən başlayır, ona görə ki, doğum evindən körpənin onun cinsinə müvafiq – oğlan mavı, qızı çəhrayı və ya qırmızı yorqançaya büküb aparırlar. Deməli elə buradan körpəyə cinsə müvafiq şəkildə olur. Üç yaşına çatmış uşaq artıq özünün hansı cinssə mənsub olduğunu dərk edir. Üç yaşlı qızının saçlarını darayan hörən və açının uçuna qırmızı lemt bağlayan ana: - "Ah, sən necədə gözəl qızsan, bu lent sənə necə də yaraşır" və ya 5 yaşlı oğlunu uşaq bağçasına aparan ana yolda oğluna: - "Axı, sən kişi qırığısan, gərək qızları incitməyəsən, onları müdafiə edəsən" – dedikdə, onların heç biri öz kiçik yaşlı uşaqlarına cinsi tərbiyə verdiklərini yəgin ki, dərk etmirlər. Amma bu həqiqətən cini tərbiyənin təməlidir.

Uşaqların sekual məsələlərə aid sualları valideynləri, xüsusilə, qorxudur. Amma belə suallardan qorxmaq, cavab verməkdən yayınmaq lazım deyil, onlar təbiidir və uşağın "pozulduğunu" göstərmir. Alman alimi P.Noybertin məlumatına görə, 5-7 yaşlarında uşaqlar doğulmaq haqqında, 6-8 yaşlarında isə atanın rolu haqqında onları maraqlandıran məlumatları bilməlidirlər. Tədqiqatçılar müəyyən etmişlər ki, uşaqlar 5 yaşında özlərinin haradan əmələ gəldiklərini , 6-7 yaşlarında isə "anasının qarnına" haradan düşməsini və atanın bu məsələdə roluna maraq göstərirlər.

2. Yeniyetmə oğlanların qızlarla dostluğu valideyinləri həyəcanlandıran səbəblərdən biridir. Məlumdur ki, insanda ilk sevgi də yeniyetmə yaşlarında baş verir. Bu zaman valideyinlər çətinlik qarşısında qalaraq, öz uşaqlarını bu təbii xöşbəxtliklər qorumağın yollarını bilmirlər. Əlbəttə, əgər bundan əvvəlki dövrlərdə valideynlər öz oğluna və qızına cinsi tərbiyənin

əsaslarını, seksual instinktlərin lazimi nöqtədə saxlanmasının zəruriyyətini öyrətmişsə, narahat olmaq üçün heç bir əsas da ola bilməz.

Oğlanlar 13-14 yaşlarında haddən artıq tez aşiq olurlar. Düzdür, bu zaman onların istəklərinin sərhəddi öpüşməkdir, lakin hisslərin gərginliyi bununla sakitləşmir. Oğlanlar bu zaman dərslərə qarşı diqqətsiz, sözəbaxmayan və əsəbi olurlar. Həmyaşıd qızlardan fərqli olaraq, onlar seksual xülyalara daha çox qapılırlar. Bu isə erotik yuxular, pollyusiya və masturbasiya ilə nəticələnir.

Hələ kiçik yaşlarından başlayaraq uşaqlarda başqa cinsə qarşı instiktiv maraq yaranır. Əgər qızların qarşısında 8-10 yaşlı oğlan dəcəllik edib onların hörüklərini dartırsa və yaxud dərsini bilən qız tənbəl, pis oxuyan oğlana kömək etməyə çalışırsa, bunları oğlan üçün tərbiyəsizlik və qız üçün nə isə qeyri-adi bir hərəkət hesab etmək düzgün olmaz. Bu sekslə əlaqəsi olmayan və biri-birinə olan instinkt cazibəsindən əmələ gələn prosesdir.

Qızların oğlanların təklifsiz rəftarına münasibəti, adətən, seçici xarakter daşıyır. Oğlanlarda cinsi həvəsin təklifsiz neqativ cinsi meyl şəklində təzahürlərinə 13-14 yaşlarda daha çox təsadüf olunur. Bu yaşlarda bəzi oğlan və qızların öpüşməsi hallarına da təsadüf olunur. Ə.Ə.Əlizadənin qeyd etdiyi kimi, böyük məktəbli yaşı dövründə oğlan və qızların əksəriyyətinin məhəbbəti "fiziki hiss" hesab etməməsi heç də təsadüfi deyildir. Məktəbli yaşı dövründə cinsi həvəsin inkişafında iki mərhələni fərqləndirmək mümkündür. **Birinci mərhələdə** o, sesifik formalarda təzahür etsə də, **ikinci mərhələdə** cinsi maraq vasitəsilə tədricən etik-əxlaqi məzmun kəsb edir. Cinsi mövqe formalaşdıqca, yeniyetmə və gənclərin əks cinsi haqqında təsəvvürlərində köklü dəyişikliklər əmələ gəlir. Cinslərin fiziki xüsusiyyətləri uşaqlardan gizlədilsə də, onlar bunu çox tez aşkar edirlər. Ailədə valideyinlərin qeyimlərinin fərqli, atanın üzünün tüklənməsi, onların səslərindəki fərq, ananın kosmetika ilə çəşğul olması, onun süd vəzləri və s.müşahidələr fərqliliyi uşağa aydınlaşdırır.

Yeniyetmələr arasında düzgün münasibətlərin yaratmasında, demək olar ki, ən başlıca vasitələr elmi, texniki, ədəbi və bədii məşğələlərdəki birgə iştrakdan, birgə turizm və idməndan ibarətdir. Məktəb məşğələlərindən əlavə maraq və meyl doğuran bu rəngarəng fəaliyyətlər yeniyetmələri öz cinsi hisslərinə hədsiz diqqət yetirməkdən yayındırır.

Erkən gənclikdə çox zaman **ilk məhəbbət hissi** meydana çıxır. Adətən, bu hiss xalis mənəvi, ruhi maraqlarla şölələnmiş olur. Gənc sevişənlər hər zaman birlikdə olmağa, oxumağa, dərslərini hazırlamağa, kino, teatr və ya konserlərə birgə getməyə, öz estetik təəssüratlarını biri-birinə danışmağa çalışırlar. Onlar biri-birini qorumaqla cismani yaxınlıq haqındakı hər cür fikirləri özlərindən qovurlar. Lakin bəzi valideynlər buna başqa gözlə baxırlar. Onları müxtəlif qorxular bürüyür və ona görə öz övladlarına heç də hər zaman nəzakətli olmayan, bəzən də çox kobud surətdə qadağalar qoymağa başlayırlar. Valideynlərin işə belə qarışmaları çox zaman saf, yaxşı dostluğu pozur. Əgər valideynlər öz övladlarına inansalar və onların münasibətlərinə hörmət etsələr, belə nəticələr olmaya da bilər.

3. Gənc oğlanlara və qızlar evlənməyi qərara almışlarsa, onların qarşılıqlı məsuliyyətini inandırıcı və xeyirxahcasına izah etmək lazımdır. Deməli, cinsi tərbiyə gənc oğlan və qızlara öz münasibətlərini cəmiyyətimizin əxlaqına müvafiq surətdə qurmağa öyrətməli, ata və ana kimi məsuliyyətli vəzifənin yerinə yetirilməsi üçün hazırlamalıdır.

Psixoseksual inkişaf haqqında nəzəriyyənin müəllifi Z.Freyd bu inkişafı fərdin bioloji mövcudluğuna və dilində baş verən dəyişikliklərlə izah edirdi. Onun baxışlarına görə, insanın əsas instenktləri cinsi meyl və aqressiyaya meyldən ibarətdir. Bunlar bir-biri ilə **seksual enerji-libedo** ilə əlaqədardır. Onun fikrincə, fərdin sosial təcrübəsi inkişafın hər bir mərhələsində özünüdə sonra xarakter əlamətləri, dəyərləri və yönəlişiklər şəklində izlər qoyub gedir. Freyd qeyd edir

ki, psixoseksual inkişaf öz-özlüyündə dəqiq sərhədləri olan beş mər ələdən ibarətdir:

1. **Oral mərhələ (0-1,5yaş)** uşaq seksuallığının birinci mərhələsidir. Bu dövrdə uşağın ağzı sovurma və əmmə prosesində həzzalmanın ilkin mənbəyi rolunda çıxış edir. Oral mərhələ ağız sahəsində böyük enerjinin (libido) cəmləşməsi ilə səciyyələnir. Ağız uşağın idarə edı bildiyi ilk bədən orqanıdır. Freyd qeyd edirdi ki, ağız nahiyəsini ilk erogen zona adlandırmaq ola. Ilk dəfə uşaq onu əmizdirərkən oxşayan və yırğalayan anası ilə münasibətlər yaradır. Psixoseksual inkişafın oral mərhələsində ləngimələri olan uşaqlarda bir sıra mənfi adətlər-siqaret çəkmək, dırnaqları çeynəmək, dodaqları dişləmək, açdan tük qoparmaq, saqqız çeynəmək və s. kimi bir sıra xüsusiyyətlər uşaqlığın və gəncliyin sonrakı dövrlərində də özünü göstərir. Uşağın yedizdirilməsi zamanı ona nəvaziş göstərilir, yelləndirməklə və dilə tutmaqla sakitləşdirməl kimi rituallar gərginliyi azaltmağa kömək edir və bu, yəni yedizdirilmə məmnunluq prosesi ilə assosiaiya olunur.

2. **Anal mərhələ (1,5-2,5yaş)** uşaq seksuallığın ikinci mərhələsidir. Bu mərhələdə uşaq öz bədəninin tədqiqatçısı olur, öz bədən orqanlarına tamaşa edir, onlara toxunur, ifrazat proseslərinə nəzarət etməyə başlayır. Uşaq ayaqyoluna getmək istədikdə böyüklər onları tərifləyir, özünü buladıqda isə danlayırlar. Bu mərhələdə uşağa sərt yanaşan valideynlər onda utanclıq və ikrah hissinin yaranmasına səbəb olurlar.

3. **Fallik mərhələdə** (2,5-4 yaşlar) uşağın diqqəti tədricən ağız nahiyəsi və anusdan cinsiyyət orqanlarına yönəlir. Bu mərhələdə cinsiyyət orqanları uşaq üçün yeni həzz mənbəyinə çevrilir. Oğlan və qızlarda cinsi fərqlər bariz şəkild\ özünü göstərir.

4. **Edip kompleksi mərhələsi (4-6yaşlar)** Edip kompleksi öz adını Sofoklun "**Çar Edip**" əsərində götürmüşdür. Bu əfsanəyə görə, əsərin baş qəhrəmanı bilməyərəkdən öz doğma atasını öldürüb, öz anası ilə evlənir. Freydin fikrincə, bu rəvayət müəyyən dövrdə meydana çıxan, lakin sonralar şüurdan

sıxışdırılıb çıxarılan uşaq fantaziyalarına bənzəyir. Bu baxımdan uşaq əks cinsli valideyn libidonun əsas obyektidir.

5. **Latent mərhələ (6-12 yaş)** uşaq seksuallığının dördüncü mərhələsi olub, cinsi marağın zəifləməsi ilə səciyyələnir. Bu mərhələdə uşağın "mən" psixi instansiyası "ana "tələbatına tam nəzarət edir, seksual məqsədlərdən ayrılmalar baş verir: libido enerjisi elm və mədəniyyətdə yer alan ümumbəşəri təcrübənin mənimsənilməsinə, habelə, ailə əhatəsi çərçivəsində həm də yaşlılar, həəm də həmyaşıdlarla dostluq münasibətlərinin qurulmasına köçürülür.

6. **Genital mərhələ -** Freydin psixoseksual konsepsiyasının sonuncu, altıncı mərhələsidir. Pubertat dövründə hormonal dəyişikliklər cinsi orqanların inkişafı ilə və seksual aktivliyin yüksəlməsi ilə müşahidə olunur. Bu mərhələdə yetkin seksual münasibətlər formalaşır və əsasən yeniyetməlik dövrü ilə başa çatır.

Məşhur Ukrayna pedaqoqu V.A.Suxomlinski **nikaha hazırlığı** düzgün anlamağı aşağıdakı kimi səciyələndirirdi: "Ailəni yaratmazdan əvvəl özünü yoxla, sən buna hazırsanmı? Doğru və sədaqətli olmağı bacaracaqsanmı? Qəlbində duyğusuzluq, eqoizm, tənbəllik yoxdur ki; öz istəklərinə hökmran olmağı bacarırsanmı? əgər xanımın uzun müddət işləməzsə, ailəni maddi cəhətdən təminetməyə hazırsanmı? O, sənin uşaqlarının anasıdır ".

Ailə həyatına psixoloji hazırlıq ilk növbədə insanın özünün özü haqqında düşüncələrində, daha sonra tərəfdaş olaraq seçdiyi başqa biri ilə söhbətlərdə təzahür edir. Belə məqamlarda məsələ ciddi şəkildə qoyulur: öz ailəsini, evini yaratmağın zamanı nə dərəcədə yetişmişdir?

Ailə hər bir gənc üçün vacib həyatı tələbatdır. Təsadüfi deyil ki, nikaha daxil olmağa hazırlıq özündə kişi və qadının qarşılıqlı məhəbbətini, onların nikah yaşına çatmasını, müəyyən ümumtəhsil səviyyəsini həyata ümumi baxışlarının olmasını, ər-arvad sədaqəti, müstəqil yaşamaq üçün maddi imkanların olmasını, müəyyən səviyyədə etik-psixoloji mədəniyyət, tərbiyəçilik və evdarlıq bacarıqlarının olmasını özündə əks etdirir.

Gələcək ailədə tərəflərin harmoniyasını şərtləndirən mühüm amillərdən biri nikaha daxil olanların **ailə həyatına etik-psixoloji hazırlığıdır.** Bu isə öz növbəsində bir-biri ilə sıx qarşılıqlıəlaqədə olan bir sıra amillərlə şərtlənir. Elm sübut edir ki, insan orqanizmi 16-18 yaşlarında anatomik-fizioloji, 18-21 yaşlarında isə etik və sosial-psixoloji yetkinlik həddinə çatır.

Oğlan və qızlar müasir ailə idealı və modeli haqqında aydın təsəvvürlərə malik deyillərsə, ailədən nə gözlədiklərini, nikaha daxil olmağın səbəbini, hansı tipli ailə münasibətlərinə sahib olmaq istədiklərini, ər-aevadlığın funksiyalarını və vəzifələrini, valideynlik hisslərinin və məsuliyyətinin nədən ibarət olduğunu dərk etmirlərsə, onda onların etik-psixoloji cəhətdən ailə həyatına hazırlıqlı olduqlarından danışmaq olmaz. Artıq seçim etmiş cütlüklər isə birgə şüurlu səyləri ilə öz gələcək ailələrinin dolğun və mənalı həyatını yaratmaq üçün qarşılıqlı məsuliyyət hissinə sahib olmalıdırlar.

Nikaha daxil olmaq insan orqanizmini anatomik-fizioloji baxımdan tamamlandığı dövrdən sonra olmalıdır. Bədən, çəki, döş qəfəsinin çevrəsi, əzələlərin inkişafı, 18yaşında, əsasən normaya, yaşlı adamın ölçülərinə çatmış olur. 16-19 yaşlı gənclərin isə yalnız 75-80%-i bu həddə uyğun gəlir. 18 yaşda qan təziqi sabitləşir, daxili sekressiya vəzilərinin ritmik işi təmin olur. Oğlanlarla qızlarda bu göstəricilərdə müəyyən fərqlər özünü göstərir. Nikaha daxil olmaq üçün cinsi yetişmə təbii ilkin şərt olsa da, kafi deyildir.

Düzgün cinsi tərbiyə ailədən başlamalıdır. Burada valideynlərlə, qardaş-bacı ilə münasibətlərin müstəsna rolu vardır. Hələ kiçik yaşlarında uşaqlar ailədə qeyri-cinsi məhəbbət nümunəsində cinsi məhəbbətə hazırlıq alırlar. “Oğlanların və qızların gələcək ailə həyatı haqqında təsəvvürləri ilk növbədə doğulduqları və boya-başa çatdıqları ailədə formalaşır. Oğlan öz atasının çəxsində kişi (ər) obrazını mənimsəyir. Qızlarda isə anaya münasibətdə qadın (arvad) haqqında təsəvvür yaranıb formalaşır”.

Uşaq və yeniyetmələrin cinsi tərbiyəsində və gələcək nikaha hazırlığında anatomik-fiziki inkişaf tiplərinin rolu heç də az deyildir. Anotomik-fiziki inkişafın bir sıra tipləri vardır:

I tip - yüksək anatomik-fiziki inkişaf yüksək boy artımı, sümük və əzələ sisteminin yaxşı inkişaf etməsi ilə səciyyələnir.

II tip - normal anatomik-fiziki inkişaf boy artımında orta göstəricilər özünü göstərir. Bədən çəkisi, döş qəfəsinin çevrəsi boya uyğun olur.

III tip – bədənin normadan aşağı inkişafı anatomik-fizioloji göstəricilərin artımının ləng gedişi, cinsi yetişmənin gec başlaması ilə diqqəti cəlb edir.

IV tip – bədənin çəkisi və boy artlmlnda əhəmiyyətli ləngimələr boy və bədənin çəki artımında ifadəli geridəqalma ilə nəzərə çarpır.

V tip – disharmonik inkişaf harmonik inkişafın pozulması, bədənin çəki artımının yüksək, boy artımının isə zəif olması ilə səciyyələnir.

VI tip – yüksək piylənmə dərialtı piy qatının çox olması, cinsi yetişmənin oğlanlarda gec, qızlarda tez başlaması boy artımında siçrayışlarla diqqət çəkir. Bu inkişaf tipində yuxarı tənəffüs yollarının xəstəliklərinə və kəskin respirator xəstəliklərə daha çox təsadüf olunur. Belə qızlarda hamiləlik və doğuş çətin keçir.

VII tip – cinsi yetişmədə endokrin və irsi patologiyanın, qidalanmanın rolu böyükdür.

VIII tip – arıqlıq və cılız bədən quruluşu ilə fərqlənir. Onlar klinik müayinəyə ehtiyacı var.

IX tip – hədsiz piylənmə ilə seçilir. Onların piylənmə göstəriciləri orta həddi 2-3 dəfə keçir. Belə adamların funksional və energetik xarakteristikaları zəifdir.

Cinsi yetişmə dövrünü fizioloji stress dövrü kimi də nəzərdən keçirmək olar. Bu dövr anabolik mərhələ - mübadilə proseslərinin sürətlənməsi və ya oyanıq zülal sintezi dövrü kimi xarakterizə olunur.

Əlverişli irsi zəmin və mühit amillərinin təsiri nəticəsində yeniyetmələr normal və daha tez inkişaf edir. 14 yaşdan aşağı yeniyetmələrdə böyümə prosesləri və cinsi yetişmə patologiyası müşahidə olunarsa, onları müayinə etdirmək lazımdır. Fizioloqların qənaətinə görə, suni tərkibli, vitaminləşdirilmiş qidalar, az hərəkətdə olma orqanizmin mübadilə proseslərinin və funksional sistemlərinin, endokrin aparatın normal fəaliyyətinə mənfi təsir göstərir, piylənməyə səbəb olur. Bədənin yekun inkişaf göstəriciləri boy, cinsi yetişməninin səviyyəsi və boya uyğun çəki kimi 3 mühüm amillər səciyyələnir.

Mövzu 11. Ailədə şəxsiyyətlərarası münasibətlər

Plan:

1. Hər bir cəmiyyətdə uşaqlar xüsusi qayğı obyekti kimi.
2. Uşaqlarla qəddar rəftar edilməsinin əsas səbəbləri.
3. Depresiya şəraitdə böyüyən uşaqlar.

1. Hər bir cəmiyyətdə uşaqlar xüsusi qayğı obyekti kimi qəbul edilsə də, hələ də onlara qarşı müxtəlif zorakılıqların kökü kəsilməmiş, uşaq hüquqlarının qorunmasında etibarlı hüquq sistemi formalaşmamışdır. Həm ailədə, həm müxtəlif ictimai təlim-tərbiyə müəssisələrində, həm də bütövlükdə cəmiyyətdə uşaqlara qarşı fiziki, emosional, psixoloji və aktual xarakterli zorakılıqlara heç də az təsadüf olunmur. Yaşlıların fikrincə, uşağa verilən fiziki cəza onun intizama tabe edilməsinin, xoşagəlməz davranışdan uzaqlaşdırılmasının təsirli vasitəsidir. Çox vaxt məktəbdə zorakılıq vasitəsi olan fiziki cəzaya məruz qalan uşaqlar bunu etdikləri qəbahətli, intizamsız hərəkətlərə cavab kimi qavrayır və bu barədə heç kimə şikayət etmirlər. İctimai şüurda fiziki cəzanın tərbiyə vasitəsi olmaması haqqında dəqiq təsəvvürlərin olmaması belə "tərbiyə üsulu"nun əsrlər boyu yaşamasına və bugünədək gəlib çıxmasına səbəb olmuşdur. Bu məsələdə kütləvi informasiya vasitələrinin də günahı çoxdur.

Müxtəlif televiziya kanalları və kompyuter oyunları ilə nümayiş etdirilən filimlərdə və digər verişlərdə praktik olaraq zorakılığın təbliğatı geniş yer tutur. Belə verişlər uşaq və yeniyetmələrin əxlaqi şüurunda zorakılığın yol verilən bir hal olması rəyini doğurur. Uşaqlar filimlərdə gördükləri zorakı səhnələri öz məqsədləri üçün gündəlik həyatda təkrarlaya bilərlər. Konstitusiyada vətəndaşların təsbit edilmiş şəxsi toxunulmazlıq hüququnun tapdanması ilə müşayət olunan zorakılıq halları çox vaxt ağır cinayətlərin baş verməsinə səbəb olur. Zorakılığın artmasına səbəb olan amillər sırasında cəmiyyətdə zorakılığın ciddi sosial problem kimi qəbul edilməməsi, əhalənin hüquqi savadının aşağı səviyyədə olması, uşaqların öz hüquqları haqqında lazımi məlumatlara malik olmaması və s.qeyd etmək olar.

Uşaq zorakılıqla ilk dəfə ailədə üzləşir. Bu halın yaranmasında ailə-məişət zorakılıqları **situativ** (ailə münasibətlərinin pozulması, aşağı özünüqiymətləndirmə, uşağın doğulmasının arzu edilməməsi) və **struktur** (işsizlik, sosial təcrid, maliyyə çətinlikləri) kimi stressorların təsiri olduqca böyükdür.

Ailənin gəlirlərinin az olması və daimi pul çatışmazlığı ailə üzvlərinin əsas tələbatlarının ödənilməsinə əngəllər yaradır və ailədaxili münasibətlərdən gərginliyi artır. İ.sizlik və ya daimi işin olmaması, atanın az əməkhaqqı alması, ailə üzvlərinin (xüsusilə, həddi-buluğa çatmamış) çoxluğu, valideynlərin gənc olması, valideynlərdən birinin yoxluğu (natamam ailə), pis mənzil şəraiti, ailə başçılarının müəyyən qrup azlığına təmsil olunması (müəyyən dini icma və sektanın üzvü olması) ailədə xroniki stresslərin, davamlı ailədaxili münagişələrin yaranmasına səbəb olur.

2. Psixoloqlar (Brovne və Ştraus) ailədə uşaqlarla qəddar rəftar edilməsinin əsas səbəblərini aşağıdakı amillərlə izah edirlər:

1. Ailənin natamamlığı və çoxuşaqlı olması;
2. Ailədə ögey ata və ya ögey uşaqların olması;
3. Ailə üzvləri arasında konfliktli və ya zorakı münasibətlər;

4. Ər-arvad arasındakı problemlər;
5. Valideynlərin tərbiyə üsullarında varislik;
6. Valideynlərlə uşaqların qarşılıqlı münasibətlərində problemlər;
7. Ailənin emosional və fiziki baxımdan təcrid olunması;
8. Valideynlərin fərdi psixoloji xüsusiyyətləri (depressivlik, aqressivlik, impulsivlik, şübhə meyllilik, emosional labillik, qapalılıq, aşağı özünüqiymətləndirmə və s.);
9. Valideynlərin ətrafdakılara və uşağa neqativ münasibəti;
10. Sosial vərdişlərin aşağı səviyyədə olması;
11. Valideynlərin psixi sağlamlığı;
12. Valideynlərin alkoqoliamə və narkomaniyaya aludə olması
13. Sağlamlıqla bağlı problemlər;
14. Emosional kütlük və əqli gerilik;
15. Valideynlik vərdişləri və hisslərinin inkişafında qalması.

Valideynlərin uşaqlara qarşı zorakı münasibətlərinin yaranmasında risk faktorunun artıran amillər sırasında uşağın şəxsiyyətinin bir sıra xüsusiyyətlərinin, fiziki və psixi inkişaf problemlərinin də adı çəkilir. Ailələrdə ən çox aşağıdakı xüsusiyyətlərə malik uşaqlar zorakılıqlara üzləşirlər:

- Arzuolunmaz, eləcə də əvvəlki uşağın itkisindən sonra doğulan uşaqlar;
- Patoloji çəki azlığı ilə doğulan uşaqlar;
- Coxuşaqlı ailədə yaşayan və aralarında yaş fərqi az olan uşaqlar;
- Psixi və fiziki qüsurlarla, xroniki və irsi xəstəliklərlə doğulan uşaqlar;
- Dalğın və davranışında qüsurlar olan (yuxu pozğunluğu, hiperaktivlik, coşğunluq, impulsivlik və epurez) uşaqlar;
- Valideynlərin əsəblərinə təsir edən pis vərdişləri olan uşaqlar;
- Sosial vərdişləri aşağı səviyyəli uşaqlar;öz xarici görkəmi, səliqə-səhmanı ilə valideynlərə utanc gətirən, rol-cins davranışında qüsurlar olan uşaqlar;

- Anada kəskin doğuş ağrılarının və ya cərrahi müdaxilənin yaranmasına səbəb olmuş
- Dul qalan qadınlar daha uzun ömür yaşayırlar

3. Emosional depresiya şəraitində böyüyən uşaqlar isə, əksinə, çox vaxt bu mühitin qurbanı olurlar. Asosial amillərin üstün olduğu ailələrdə daim konfliklər fonunda emosional həyat yaşanır. Aqressiya, dava, zorakılıq belə ailələrin gündəlik həyat tərzində çevrilir. Nəticədə, belə ailələrrə üz verən bədbəxtliklərə qarşı uşaqlarda etinasızlıq yaranır, sanki onların hissləri "donmuş" olur. Erkən uşaqlıq illərindən valideynlərin qadağaları, haray-qışqırıqları ilə üz-üzə qalan uşaq başqalarının kədərinə şərik olmaq, uğurlarına sevinmək kimi hisslərə sahib ola bilmir, onlarda empatiya (başqasının halına acımaq) qabiliyyəti zəif inkişaf edir. Yaşa dolduqdan sonra belə uşaqlar nəinki başqaadamların hisslərini anlayır, ümumiyyətlə bundan uzaq olmağa, qorxmağa başlayırlar. Psixoloqların fikrincə, uşağa qarşı münasibətdə aşağıdakı hərəkətlər **emosional zorakılıq hərəkətləri** sayılır:

- uşağın normal sosial ünsiyyətdən təcrid edilməsi;
- uşağın qarşılaşdığı problemin həllindən imtina etmə;
- "qadağalarla alver" (məsələn, uşaq müəyyən edilmiş vaxtda dərslərini oxumamış və ya, çarpayını yığışdırmamışsa, onun müəyyən müddət gəzməyə getməkdən və ya televizora baxmaqdan məhrum edilməsi);
- Uşağın təhgir edilməsi;
- Uşağın dəftərlə təhgir edilməsi vasitəsilə ondan stabil qorxu hisslərinin yaradılması;
- Daim qorxu və hədə altında saxlanması;
- Cəza ilə qorxutma (Bir də "2" aslan, mən kəmərə əl atmalı olacağam);
- Söyüş və ələsalma;

- Mənəvi zorlama, uşağı ictimai normaları pozmağa, ona mənəvi zərbə vura biləcək hərəkətlərə-oğurluğa, alkoqolizmə, narkomaniyaya, təhlükəli vasitəçiliyə və s. təhriketmə:

Uşağın emosional zorakılığa məruz qalması özünü onun bir sıra fiziki və davranış reaksiyalarında göstərir:

- emosional kütlük və laqeydlik;
- qəmginlik və ifadəli depressiya;
- barmaqları sovurma, menoton yırğalanma (auteopotik hərəkətlər);
- hisse qapılma və ya əksinə aqressivlik;
- istilik və diqqət axtarışı ilə istənilən yaşlıya "yapışma";
- gecə yuxu qorxuları, pis yatma;
- oyuna marağın olmaması.

Emosional zorakılığa məruz qalmış uşaqlarda artan fizioloji reaktivlik fonunda gündüz və ya gecə epurezi (sidikburaxma), psixosomatik mənşəli şikayətlər-baş, mədə və ürək sahəsində ağrılar, fiziki və ümumi inkişafın zəifləməsi halları müşahidə olunur. Uşağın fiziki və emosional şəraitdə tərbiyəsi şəxsiyyətin deformasiyasına gətirib çıxarır. Daim zorakılığa məruz qalan uşaqda valideyinlərinin onu sevmədikləri haqqda ona rəe formalaşır, arzuolunmaz adam olduğu qənaəti yaranır, o, daim utancaqlıq və günah hissi ilə yaşayır, sanki dünyaya gəldiyinə peşiman olur. Emosional zorakılığın qurbanına çevrilmiş uşağa elə gəlir ki, o, hamı üçün pis və əhəmiyyətsiz bir adamdlr.

Uşağa qarşı **psixoloji zorakılıq** onun potensial qabiliyyətlərinin inkişafının ləngidilməsinə və ya zərər vurulmasına yönəlmiş hərəkətlərdir.

Psixoloji zorakılığa ailədə tez-tez baş verən münaqişələri, uşağa qarşı valideynlərin ağlasığmaz hərəkətlərini misal göstərmək olarş. Psixoloji zorakılıq həm də, öz mahiyyəti etibarlı ilə mənəvi zorakılıqdır və o, uşağın intellektual inkişafını ləngidir, idrak proseslərini və adaptasiya qabiliyyətlərinin adekvat inkişafının təhlükə altında qoyur.

Mövzu 12: Ailə konfliktləri və onların tipləri

Plan:

1. Sosial psixologiyada "konflikt" anlayışı haqqında.

2.Ailənin psixoloji iqlimi.

3.Ailə həyatının böhranları.

1. Fərdi sosial həyatı başqa adamlarla çoxsaylı birgə fəaliyyət formalarının və qarşılıqlı münasibətlərinin mürəkkəb sistemidir. Müxtəlif insanlar öz fərqli xüsusiyyətlərindən və şəxsi təcrübələrindən asılı olaraq, həyatda qarşılaşdıqları situasiyalara fərqli reaksiya göstərirlər.

Konflikt (latınca confliktus - toqquşma) insanların bir-birinə münasibəttə mənafe, görüş və meyillərin toqquşması, son nəticədə qarşıdurmaya gətirib çıxaran ciddi ixtilaf, kəskin mübahisədir. Psixoloji mənada konflikt insanlar arasındaki ziddiyətlərə və bu ziddiyyətlərin kəskin emosional vəziyyətdə həlli cəhdinə əsaslanan ünsiyyət növüdür. Sosial pssixologiyada "konflikt" anlayışı bir-birinə əkss olan maraqların, məqsədlərin, baxışların habelə fərdlər və qruplar arasında ideologiyaların toqquşması kimi izah olunur. Bir çox psixoloqlar konfliktləri sosial, pedaqoji və psixoloji anlamda müxtəlif məntiqi əsaslarla təsnif edirlər: 1) *ziddiyyətlərin reallıq dərəcəsinə görə:* ***real konfliktlər*** *(real ziddiyyətlərə əsaslanır);* ***qeyri-real konflikt*** *(təhrif olunmuş təsəvvürlərə əaslanır);****qeyri-real konfliktlər*** *(təhrif olunmuş təsəvvürlərə əsaslanır); 2) ziddiyətlərin xarakterinə görə;* ***obyektiv*** *(obyektiv ziddəyyətlərə əsaslanan) və* ***subyektiv*** *(subyektiv ziddəyyətlərə-baxış və motivlərin toqquşmasına əsaslanan) konfliktlər; 3)dərk olunma dərəcəsinə görə:* ***dərk olunan*** *və* ***dərk olunmayan****konfliktlər; 4)miqyasına görə:* ***məhdud****(fərdlər arasında) və* ***əhatəli*** *(qrup və ya bütün kollektivi əhatə edən) konfliktlər; 5)ziddiyətlərin təzahürünə*

görə: ***açıq*** *(təzahür edən) və* ***gizli*** *(təzahür etməyən) konfliktlər; 6)məzmununa görə:* ***şəxsi*** *(şəxsi münasibətlərə əsaslanan) və* ***fəaliyyətlə bağlı*** *(fəaliyyət prosesində yanan) konfliktlər; 7) qarşılıqlı münasibət tipinə görə:* ***asılılıq****(rəhbərlə işçi arasındakı) və* ***status bərabərliyi*** *(müəllim-müəllim, şagird-şagird arasında) münasibətlərində yaranan konfliktlər; 8) sahələrinə görə:* ***sosial, siyasi, iqtisadi,hərbi*** *və s. konfliktlər; 9)obyektinə görə:* ***şəxsiyyətlərarası, qrupdaxili, qruplar arası, ailə-məişət, etnik, pedaqoji*** *konfliktlər; 10) funksialarına görə:* ***konstruktiv*** *(qrupun inkişafına müsbət təsir göstərən) və* ***destruktiv (****qrupdakı qarşılıqlı münasibətlərə mənfi təsir göstərən****) konfliktlər.*

Konfliktər öz stukturuna görə də fərqli xüsusiyyətlərə malikdir. Hər bir konfliktdə **münaqisə tərəfləri** (haqlı və haqsız tərəf), **münaqişə obyekti, münaqişə şəraiti** və bir çox hallarda isə əlavə iştirakçılar olur. **Münaqişə obyekti dedikdə,** münaqişə predmeti**, münaqişə şəraiti** dedikdə isə, münaqişənin səbəbləri və şərtləri başa düşülür. Sosial-psixoloji ədəbiyyatlarda iştirakçıların sayından asılı olaraq **sadə** və **mürəkkəb** konfliktlər fərqləndirilir. Yalnız münaqişə tərəflərinin iştirak etdiyi konflikt sadə sadə konflikt, tərəflərdən əlavə çoxlu iştirakçı olduqda isə belə konflik mürəkkəb konflikt adlanır. **Münaqişənin iştirakçıları** dedikdə isə münaqişədə marağı olan adamlar və sosial qruplar nəzərdə tutulur.

Ailə psixologiyası problemlərinin tanınmış tədqiqatçılarəndan olan. İ.V.Qrebennikova görə, **ailə konflikt** ailə üzvlərinin baxış, maraq və tələbatlarının uyğunsuzluğundan irəli gələn ciddi fikir ayrılığıdır.

2. Ailənin soial-psixoloji iqlimi onun həyat tərzi və **məişət mədəniyyətinin** əsasıdır. Normal ailə həyat tərzində yaşayan bütün insanları ümumi maraq və mənafelər birləşdirir. Ailə üzvləri ailənin həyat tərzini məişət mədəniyyətini formalaşdırırlar. Buraya: ailədə məsləhətləşmələr (növbəti həftə üçün fəaliyyət strategiyasını planlaşdırmaq);yayda harada istirahət etməli; kimə hansı paltar alınmalıdır; hansı xeyir-şər işlərdə iştirak edilməlidir; bayramları necə

keçirməli; hansı qohumlara baş çəkməli və s. aiddir. Ailənin məişət mədəniyyətinin təşəkkülündə formalaşmış **ailə ənənələrinin** müstəsna əhəmiyyəti vardır.

Ailədaxili münasibətlər konfrontasiya, əməkdaşlıq mühiti və mövcudluq (hərə özünə) olmaqla üç əsas tipə ayrılır. Ailədə bu və ya digər səviyyədə mövcud olan davamlı emosional əhvallar **ailəninpsixoloji iqlimini** yaradır. Ailənin pixoloji iqlimi əlverişli və əlverişsiz olmaqla iki yerə ayrılır. Psixoloji iqlim özündə ailənin ümumi yaşayış və həyat üslubu, qarşılıqlı münasibətlərin xarakterindən asılı olaraq tədricən formalaşır. **Əlverişli psixoloji iqlimin** başlıca və əsas şərti **ər-arvad arasında psixoloji uyuşmadır.** Psixoloji uyuşma qarşılıqlı xeyirhaqlıq, qayğı, hörmət, müdafiə, səbirlilik hissi, yüksək daxili intizam, məsuliyyət, istiqanlılıq, tələbkarlıq kimi münasibətlər fonunda tədricən təşəkkül tapır. Ailədaxili münasibətlər mühitini formalaşdıran həmin xüsusiyyətlər həm də ailəni sosial sistem və qrup kimi səciyələndirməyə əsas verən başlıca dəyərlərdir. **Əlverişsiz psixoloji iqlim** ailəni depressiya və strsslərə, mübahisə və münaqişələrə sürükləyir. Belə ailələrdə müsbət emosiyaların çatışmazlığı, gərginlik, küsülülük və inciklik halları tez-tez baş verdiyindən bu artıq bir həyat tərzinə çevrilir.

Ər-arvad taleyin birləşdirdiyi cütlüklərdi. Onların birgə xoşbəxt həyatı sosial-psixoloji uyuşmanın səciyyəsindən bilavasitə asılıdır. **Sosial uyuşma** dünyagörüşünün, əqidə, ideal zövq, tələbat və maraqların, dəyərlər sistemi və sərvət meyllərinin ümumiliyində, **psixoloji uyuşma** isə xarakter, temperament, şəxsi-iradi keyfiyyətlərin uyğunluğunda əks olunur.

Ər-arvad konflikti ailə kinfliktinin xüsusi növü olub, ər-arvad cütlükləri arasındakı etik münasibətlərin, biopsixoloji uyğunluğun, tələbat və maraqların, uşaqların tərbiyəsi ilə bağlı fərqli baxışların, qohumlara müxtəlif münasibətlərin və s. zəminində meydana gələn konfliktlərdir. Ər-arvad münasibətlərində

konfliktlərin meydana gəlməsinə təsir göstərən bir sıra amillər də vardır ki, bunlara ailənin inkişafındakı böhranlı dövrlər aid edilir.

Ər-arvadlıq həyatının birinci ili bir-birinə uyğunlaşma, iki "mən"in bir "biz"ə çevrilməsi zəminində baş qaldıran konfliktlərlə xarakterizə olunur. Bu dövrdə hisslərin təkamülü baş verir, sevgi bir qədər zəifləyir və cütlüklər bir-birləri qarşısında necə var, olduqları kimi dayanırlar.

3. Ailənin həyatında ikinci böhranlı dövr uşaqların doğulması ilə bağlıdır. Hələ tam möhkəmlənməmiş gənc ailə sistemi ciddi sınaqla üzləşir. Bu dövrdə ər-arvadın işi və ya təhsili, şəxsi istirahət və ya əyləncə ilə bağlı konfliktlər daha çox müşahidə olunur. Uşağa qulluqla əlaqədar qadının yorğunluğu onun seksual fəallığının müvəqqəti zəiflənməsinə gətirib çıxara bilər. Ailə həyatının qeyd olunan ilk dövrlərində adətən uşaqların tərbiyəsi problemləri ilə bağlı ər-arvad özləri və onların valideynləri arasında münaqişələrin yaranması mümkündür. **Ailə həyatının üçüncü dövründə** konfliktlərə orta yaş mərhələsinə daha çox təsadüf olunur ki, bu cür konfliktlər, adətən, yeknəsək həyat tərzi ilə bağlıdır. Tərəflərdə yeni təəssürat çatışmazlığı yaranır ki, bu da tərəflərin bir-birinə qarşı adiləşməsi ilə səciyyələnir. Bunu "kohnə təəssüratlardan doyma və yeni təəssürat aclığı" adlandırmaq olar. Ailədə **ər-arvad konfliktlərinin dördüncü mərhələsinə** onların birgə həyatının 18-24-cü illərindən sonra təsadüf olunur. Onun meydana gəlməsi adətən **qocalıq** dövrünün yaxınlaşması, tənhalıq hissinin meydana gəlməsi, uşaqların ailədən köçüb getməsi, qadının emosional asıllığının güclənməsi və s. ilə bağlı olur. Bu dövrdə cütlüklər arasında konfliktlər kişinin öz seksual tələbatlarını kənarda təmin etmək cəhətlərinin mümkünlüyünün ("nə qədər ki, gec deyil") yaranma təhlükəsi zəminində və ya bu halın reallığı fonunda baş verir.

Ər-arvad konfliktlərinin meydana gəlməsində xarici amillərin təsir ehtimalı da az rol oynamır. Buraya bir çox ailələrin get-gedə müflisləşmə nəticəsində maddi vəziyyətinin pisləşməsini, cütlüklərdən hər ikisinin və ya birinin işdə

hədsiz yüklənməsini, tərəflərdən birinin iş bilməməsi və ya işsizliyini, ailənin uzun müddət ayrıca mənzilə sahib ola bilməməsini, uşaqların bağçaya yerləşdirilməsi ilə bağlı çətinlikləri, ailədə şikəst ailə üzvünün olmasını, yataq xəstəsinin və ya həbsdə olan ailə üzvünün problemlərini və s.aid etmək olar. Ailə konfliktlərinin baş vermə səbəblərinə aşağıdakıları aid etmək olar:

- Qarşılıqlı sevgi və hörmətin olmaması;
- Cütlüklərdən birinin cinsi-intim həyatdan narazılığı, bioritm fərqi;
- Şəxsi ləyaqət hissinin təhqir edilməsi, inciklik, hörmətsiz və qayğısız münasibət, daim tənqid;
- Tənbəllik və pintilik;
- Tərəflərdə müsbət emosiyaların çatışmazlığı (nəvaziş və qayğıkeşliyin olmaması, psixoloji yadlaşma, emosional soyuqluq);
- Liderliyə canatma;
- Tərəflərdən birinin çox pul sərfiyyatı tələb edən spirtli içkiyə, qumara, narkomaniyaya qurşanması;
- Maliyyə məsələlərində fikir ayrılığı;
- Ailədə əmək bölgüsü problemləri;
- Sonsuzluq;
- Maraq və əyləncələrdə, zövqlərdə uyğunsuzluq;

Valideynlərlə övladlar arasında qarşılıqlı təsir forması kimi konfliktlər bir sıra psixoloji amillərlə də şərtlənir. Bunlara aşğıdakıları aid etmək olar:

1. Ailədaxili münasibətlərin tipi. Bu cəhətdən ailə münasibətlərinin harmonik və disharmonik tipləri fərqləndirilir. Harmonik ailədə hər bir ailə üzvünün psixoloji rolu ailə "biz"inin formalaşmasına, baş verən ailədaxili ziddiyətlərinaradan qaldırılmasına yönəldilir və bu əsasda məqsəd ailədaxili münasibətlərdən mütəhərrik müvazinətin tənzim edilməsini təmin etməkdən ibarər olur. Ailənin disharmoniyası dedikdə, ər-arvadın konfliktli qarşılıqlı təsirində ifadə olunan neqativ münasibətlər başa düşülür. Belə ailələrdə psixoloji

gərginlik səviyyəsi onun üzvlərinin nevrotik reaksiyalarına,uşaqların daimi narahatlıq hissinə səbəb olur.

2. Ailə tərbiyəsinin destruktivliyi. Bu cəhətdən ailədə destruktiv tərbiyənin aşağıdakı əlamətləri fərqləndirilir:

- Uşaqların tərbiyəsi ilə əlaqədar məsələlərdə ailə üzvləri arasında fikir ayrılıqları;
- Münasibətlərdə ziddiyyətlilik, qeyri-ardıcıllıq, qeyri-adekvatlıq;
- Uşaqların həyatlarının bir çox sferalarındakı hədsiz himayəçilik və qadağalar;
- Uşaqlara qarşı hədsiz tələbkarlıq, tez-tez hədə-qorxu, cəza və məzəmmətlər;

3. Uşaqlarda normal yaş böhranları, adətən, ailənin yaşlı üzvləri tərəfindən təbii psixofizioloji hadisə kimi dərk edilmədiyindən hədsiz dərəcədə yüksək konflikt amilinə çevrilir. Yaş böhranları uşaqların həyatında bir yaş mərhələsində digərinə keçid dövrü olduğuna görə, bu dövrlərdə uşaqlar sözəbaxmaz, şıltaq, kobud və əsəbi olurlar. Belə simptomlar uşaqların tez-tez ətrafdakı adamlarla, xüsusən, valideynlərlə konfliktlərə girməsinə gətirib çıxarır. Onlar əvvəlki tələblərə müqavimət göstərir, işdən boyun qaçırırlar. Yeniyetməlik dövründə isə yaş böhranı daha kəskin xarakter alır.

4. Şəxsiyyət amili. Valideynlərin şəxsiyyət xüsusiyyətləri, onların temperament tipi və bu əsasda formalaşan xarakterləri uşaqlarla konfliktlərin yaranmasını şərtləndirən amillərdən biri, həm də ən əsasıdır. Bu cəhətdən mühafizəkar təfəkkür üslubu, köhnə davranış qaydalarından və zərərli vərdişlərdən (alkoqol, narkotika qəbulu, qumar oyunu və s.) asılılıq, əqidə barışmazlığı və s.belə amillərdəndir. Uşaqların şəxsiyyət xüsusiyyətlərinə isə təlimdə aşağı nəticələr və uğursuzluq, davranış qaydalarının pozulması, valideynlərin tövsiyə və nəsihətlərinə etinasızlıq, söz eşitməzlik, tərslik, eqoizm, eqosentrizm, özündənrazılıq, tənbəllik, pintilik və s.aid edilə bilər.

Psixoloqların tədqiqatları göstərir ki, ailələrin 80-85 %-də kofliktlər mövcuddur. Qalan 15-20% ailələrdə isə mübahisələr müxtəlif zəmində baş verir. Konfliktlərin kəskinliyi və tezliyi kimi əlamətlər baxımından ailələrin **böhranlı, konfliktli, problemli və nevrotik** olmaqla 4 əsas tipi fərqləndirilir.

Böhranlı ailədə ər-arvadın maraq və tələbatlarının uyğunsuzluğu əsasında yaranan qarşıdurmalar kəskin xarakter daşıyır və ailənin həyat və fəaliyyətinin bütün vacib sahələrini əhatə edir. Belə ailələrdə ər-arvad arasında münasibətlər özünün kəskin xarakteri ilə fərqlənir, barışmaz və hətta düşmənçilik həddinə çatmış olur. Cütlüklər bir-birinə qarşı heç cür güzəştə getmək istəmirlər. Böhranlı nukah ittifaqı həddindən olan ailələr ya dağılma ərəfəsində, ya da artıq iflasa uğramış olurlar.

Konfliktli ailələr ər-arvad cütlüyünün həyatında elə sahələr olur ki, burada onların maraqları daim toqquşur, davamlı və güclü mənfi emosional vəziyyətlər yaradır. Bütün bunlara baxmayaraq, nigah güzəştlər, konfliktlərin konpromist həll üsulu və digər amillərlə qorunub saxlanılır.

Problemli ailə tipi özünün nikahın sabitliyinə ciddi zərər vura biləcək uzunmüddətli, həllini tapmayan çətinliklərlə xarakterizə olunur. Məsələn, mənzilin yoxluğu, cütlüklərdən birinin uzunmüddətli xəstəliyi, ailənin normal yaşayışı üçün daimi vəsait çatışmazlığı, ailə üzvlərindən birinin uzunmüddətli həbsdə olması və s.bu kimi problemlər ailənin həyatında ciddi sıxıntı və gərginliyə səbəb olur. Belə ailələrdə qarşılıqlı münasibətlərin kəskinləşməsi, cütlüklərdən birində vəya hər ikisində psixoloji pozğunluqların yaranması riski yüksək olur.

Nevrotik ailə tipində irsi pozğunluqlar deyil, ailənin gündəlik həyatında qarşılaşdığı psixoloji çətinliklərlə əlaqədar **qazanılmış psixi pozğunluqlar** əsas rol oynayır. Nevrotik ailələrdə cütlüklər hədsiz qorxu, təlaş və iztirablardan əziyyət çəkir, onlarda yuxu pozğunluğu, affektiv reaksiyaların kəskinliyi və bir-birinə qarşı hədsiz aqressivlik müşahidə olunur.

Ailə cütlükləri arasında konfliktli davranış həm gizli, həm də açıq formalarda təzahür edə bilər. **Gizli konfliktlərin** əsas simptomlarına narazılığı ifadə edən kəskin jest və baxış, ailə həyatının hər hansı sahəsində aid işin birgə icrasında tərəflərdən birinin boykot mövqeyində durması, qarşılıqlı münasibətlərdə ifadəli soyuqluq və s.aid edilə bilər. **Açıq kofliktlər,** adətən, korrekt formalı açıq söhbətlərdə təzahür edir. Bu zaman qarşılıqlı verbal təhqir nümayişkaranə hərəkətlər (qapını, qab-qacağı çırpma, stolu yumuruqla döyəcləmə), zorakı fiziki hərəkətlər, təhqir və s.ilə müşayət olunur.

Qısqanclıq ailədaxili münasibətlər sistemində tarixən geniş yayılmış problemlərdən biridir. Ona hətta uşaqlar arasında rast gəlmək mümkündür. Böyük uşaqlar kiçiklərə qarşı olan nəvazişə, alınmış oyuncaqlara, təzə paltara və s.görə qısqanclıq keçirirlər. Bunun səbəbi onların diqqət və qayğıdan kənardan qalmalı, artıq sevilməmələri ilə bağlı meydana gələn yanlış təsəvvürləri ilə bağlıdır. Qısqanclıq, hətta bunun üçün əsaslı səbəb olmadığı halda belə, güclü təzahürə malik ola bilər. Emosional reaksiyalar doğuran qısqanclıq o zaman yaranır ki, insan ona məxsus olan "mülkiyyətinə" başqa birinin sahiblik iddiyası ilə üzləşmiş olur. Belə duyğular real və xəyali ola bilər. Ailə bir meyvəyə bənzəyir. Məhəbbət onun içi, nikah-qabığı, həyanət isə onun içəridən yeyən qurddur.

Ailə üzvləri olan **ər-arvad qısqanclığı** təbii və normal hissdir. Çütlüklərdən birinin üçncü şəxsə bağlı olan intim münasibətləri onlardan birində təbii qısqanclığa, emosionallığının oyanmasına səbəb olur. Qısqanclığın normal və təbii olması ilə yanaşı, onun **patoloji qısqanclıq** adlanan forması artıq psixi xəstəlik hesab olunur. Məsələn, gənc oğlan sevdiyi qızı onun yanağından süzülən göz yaşlarına, iylədi gülə və s.qısqanır.

Mövzu 13: Ailədə rol-cins davranışı və onun pozulmasının nəticələri

Plan:

1. Ailə sosial təsisat kimi rol nəzəriyyəsində yeri.
2. Konvensional və şəxsiyyətlərarası rollar.
3. Ailədə rollar sistemi.
4. K.Kripatrik rol-cins davranışı haqqında.

Məlumdur ki, ailə üzvlərinin tələbatlarının təmin olunması onların həyat fəaliyyəti prosesində həyata keçirilir. Maddi tələbatlar, təsərrüfat-məişət, istirahət, əyləncə və özünüinkişaf tələbatları asudə vaxt sferasında, uşaq və yeniyetmələrin şəxsiyyətinin inkişafı isə tərbiyə funksiyasının yerinə yetirilməsi gedişində təmin olunur. Ailənin qeyd olunan bütün çoxcəhətli fəaliyyət sahələri uyğun şəkildə təşkil olunmalıdır.

Ailə sosial təsisat kimi **rol nəzəriyyəsi** şəbəkəsində mühüm yer tutur. Rol insan davranışının sosial cəhətdən bəyənilən nümuniyə uyğunluğunun xarakteristikasıdır.

Rol davranış nəzəriyyəsinin yaradıcıları. C.Mid və C.Morenonun fikrinə görə, ailənin həyat fəaliyyətinin təşkilinin konkrert sosial-psixoloji forması onda mövcud olan rolların strukdurudur. Məhz o, əsas əlamətləri ilə kimin, harada və hansı ardıcıllıqla nəyi necə yerinə yetirilməsini müəyyən edir. Rus psixoloqu A.V.Petrovski qeyd edir ki, "rol" anlayışı hər şeydən əvvəl ictimai və şəxsiyyətlərarası münasibətlər sistemində müəyyən mövqe tutan fərdin gözlənilən normativ bəyənilən davranış formalarını əks etdirir.ailədə hər şeydən əvvəl bir kollektiv kimi, digər kiçik sosial qruplara müqayisədə daha ciddi rol strukturuna malikdir.

Ailə münasibətlərinin, ailəvi rolların təhlili onun funksiyalarını dərk etmək üçün mühüm əhəmiyyət kəsb edir. Ailəvi rol insanın cəmiyyətdəki sosial rollarından biridir. O, ər ilə arvadın ailədə yeri və finksiyaları ilə müəyyən olunur və **izdivac** (ər, arvad), **valideyn** (ata, ana), **uşaq** (oğul, qız, qardaş, bacı), **nəsildaxili** (baba, nənə) və s. rollara bölünür. Ailəvi rolun icrası bir sıra şərtlərdən

asılıdır. Ailənin hər bir üzvü özü üçün dəqiq müəyyən etməlidir ki, bu və ya digər davranış ona hansı qaydaları, normaları diktə edir. Ailədə yaşına görə, eləcə də, rol statusuna görə, hamıdan böyük, məsələn , ailə başcısı - ər olmasına baxmayaraq, əgər o, zəif iradəlidirsə, müasir şəraitdə bu rolda müvəffəqityyət qazana bilməyəcəkdir. Ailəni uğurla idarə etmək üçün rolun şəraitin tələblərinə müvafiq surətdə dəyişkən olması və bununla bağlı rolda davranışın çevikliyi mühüm əhəmiyyət kəsb edir. Ailədə sözügedən funksiyaların yerinə yetirilməsi zamanı təbii ki, rol münaqışələrinin yaranması da müşahidə oluna bilər.

Rol mürəkkəb törəmədir. Yuxarıda qeyd olunan anlardan başqa bu anlayışa müəyyən sanksiya və sosial normalar da daxildir. Rus sosioloqu Q.M.Andreyeva qeyd edir ki, "normalar qrup tərəfindən işlənib hazırlanmış, onların davranışını özünə tabe edən birgə fəaliyyətinin mümkünlüyünü təmin edən qaydaların məcmusudur".

Normalar rol daşıyıcısının konkret olaraq hansı öhdəlikləri yerinə yetirməsini müəyyənləşdirir: ana uşaqların müxəlif bacarıq və vərdişləri mənimsəməsinə kömək etməli, onların davranışına nəzqrəti həyata keçirməli, zəruri olduqda onları cəzalandırmalıdır. Sanksiya rolunu yerinə yetirilməsi və ya yetirilməməsinə reaksiyadır. Öz uşaqlarını sevmədiyinə görə, ətrafdakıların ataya və anaya ittihamı məhz sanksiyadır. Öz rolunu yerinə yetirə bilməyən şəxslər vicdan əzabı hiss edirlər ki, bunu da **daxili sanksiya** adlandırmaq olar. Ailə rollarının öyrənilməsində onların **konvensional** və **şəxsiyyətlərarası rollar** olmaqla fərləndirilməsi xüsusi vacib əhəmiyyət kəsb edir. **Konvensional rollar** hər bir insanın müəyyən qaydalara, əxlaqa və ənənələrə əsaslanmaqla yerinə yetirdiyi rollardır. Məsələn istənilən ananın öz uşaqlarına münasibətdə hüquq və vəzifələri, eyni zamanda uşaqların anaya münasibəti qanunavericiklə təsbit olunmuş, mənəvi baxımdan və ənənələrə uyğun olaraq konkretləşdirilmişdir. Rolun yerinə yetirilməsi xüsusiyyətləri az və ya çox dərəcədə konkret ailədən və fərddən, onun şəxsiyyət xüsusiyyətlərindən, meyl və qabiliyyətlərindən asılıdır.

Konvensional və şəxsiyyətlərarasıb rollar arasındakı fərqlərdən bəhs edən ABŞ sosial psixoloqu T.Şibutanı yazır ki, konvensional rollar standartlaşmışdır və şəxsizdir; rolu kimin icra etməsindən asılı olmayaraq hüquq və vəzifələr dəyişməz qalır. **Şəxsiyyətlərarası rollarda** isə, bu cəhətlər bütövlükdə iştirakçıların fərdi xüsusiyyətlərindən, onların hiss və tələbatlarından asılıdır. Belə ki, eyni müəssisədə eyni vəzifə tutan iki şəxs öz şəxsiyyət xüsusiyyətlərindən asılı olaraq "dost", "həmkar", "rəqib" və s. kimi şəxsiyyətlərarası rollarda çıxış edə bilərlər.

Fərdin ailədə icra etdiyi rolla onun tələbatlarını təmin etməli, nüfuzuna, simpatiyasına, ona qarşı hörmətə zərbə vurmamalıdır. Məsələn, "ər" rolu yalnız müəyyən vəzifələri deyil, həm də müəyyən hüquqları nəzərə tutur. Bu sosial rolu yerinə yetirərkən ər məhəbbət, hörmət, özünün seksual-erotik və digər tələbatlarının təmin olunmasını gözləyir.

Fərdin yerinə yetirməli olduğu rol onun imkanlarına uyğun olmalıdır. Fərd üzərinə qoyulmuş rolu yerinə yetirmək iqtidarında olmadıqda, onda qorxu, yüksək məsuliyyət hissi, sinir-psixi gərginlik, öz qüvvəsinə inamsızlıq yaranır, fərsiz və qabiliyyətsiz adam damğası onu təqib edir ki, bu da psixi travmatik təsir göstərən amilə çevrilir. Fərdin icra etdiyi **ailə rolları sistemi** elə olmalıdır ki, o yalniz bir fərdin deyil, bütün digər ailə üzvlərinin də tələbatlarının təmin olunmasına imkan yaratmış olsun. Ailədə bir nəfərin həyatı və ya istirahəti digər ailə üzvlərinin fasiləsiz zəhməti və gərgin əməyi sayəsində təmin olunur və ailənin digər üzvləri heç vaxt rahatlıq tapa bilmirsə, bu psixi travma mənbəyinə çevrilir.

Davranış insanın sosial mühitlə qarşılıqlı münasibətlərində təzahür edən rəftar və hərəkətlərinin məcmuyudur. Davranışın formalaşmasına yalnız əxlaqi biliklərin mənimsənilməsi yolu ilə nail olmaq olmaz. Çox vaxt insanlar mənəvi normaları yaxşı bildikləri halda öz dvranışlarında onlara heç də həmişə əməl etmirlər.

Ailə birgə fəaliyyət və gerçək ünsiyyət mühitidir. Burada ailə üzvlərinin qarşılıqlı əlaqə və münasibətləri, eləcə də sosial mövqeyi **sosial və mənəvi**

normalarla tənzimolunur. Sosial normalar tarixən meydana gəlmiş və müəyyən olunmuş davranış və fəaliyyət qaydalarının məcmuyudur. Rolların diapozonu və miqdarı insanın daxil olduğu münasibətlər sahəsinin-sosial qrupların və fəaliyyət növlərinin diapozonu və miqdarı ilə müəyyən olunur.

Psixoloji tədqiqatlar göstərir ki, ailə başcısı olan əlil atalar ailədə öz gərəksizliklərini kompensasiya etmək, heç də yararsız və qabiliyyətsiz olmadıqlarını təsdiq etmək üçün cəmiyyətdəki sosial statuslarından bəzən sui istifadə etməklə əlavə güzəştlər qoparmaq motivinə üstünlük verir və əksər hallarda da buna nail olurlar. Bununla da, əlil ailə üzvlərinin əksəriyyəti ailədə öz sosial statuslarını qoruyub saxlamağa çalışırlar. Belə hallarda atanın rol davranışı yeniyetməyə patoloji təsir fonunda həyata keçdiyindən onda xarakterin epileptik-isterioid tipli aksentuasiyasının meydana gəlməsinə səbəb olur.

Ailədə bu tipli patoloji rolların meydana gəlməsi motivləri müxtəlifdir.

1. **Psixoloji problemlər.** Bu problemlər ailə üzvlərindən birinin tələbatlarının təmin edilməməsi ilə bağlı ifadəli narazılığı fonunda özünü göstərir. Ailə üzvlərində biri özünə qarşı ailədə münasibətin normal olmadığını israrla bildirir, aqressiyaya, sadizmə məruz qaldığını əsas gətirməklə, özünə qarşı diqqəti artırmağa cəhd göstərir.

2. **Tələbatların təmin edilməsinin əvəzlənməsi.** Bu halda patoloji rol davranışına səbən ailə üzvlərindən birinin şəxsi tələb atlarını başqa ailə üzvünün köməyi ilə təminetmə cəhdidir. Ailədə **"vunderkind uşaq", "ailənin ümidi olan uşaq"** və s. tipli travmatik rol adətən valideynlərin şəxsi tələbatlarını həmin tipli uşaqların gələcəyi ilə bağlı arqumentlərinə söykənir və bu, əvəzetmə yolu ilə əslində öz şəxsi tələbatlarını təmin etmək motivinə əsaslanır.

3. **Patoloji rolun meydana gəlməsinə proyeksiya mexaniziminin təsiri.** Məlum olduğu kimi, proyeksiyanın psixoloji mexaanizmi müdafiə reaksiyası ilə bağlıdır. Başqa adama münasibətdə aqressiyanı hiss edən və bu hissi amoral hissi kimi qiymətləndirən şəxs bundan çıxış yolunu öz aqressiyasını günahsız olmayan başqa birinə yönəltməkdə görür. "Əgər mən başqalarının

qüsurlarına qarşı mübarizə aparıramsa, deməli, mən qüsursuzam" – tezisi proyeksiya mexanizminin əsas şüarıdır. Ailə üzvlərindən hər hansı birinin qəsdən çıxılmaz vəziyyətə salınması, onun uğursuzluqda, fərsizlikdə, ailəyə problemlər yaratmaqda mütəmadi olaraq günahlandırılması həmin ailə üzvlərində nevrotik simptomların meydana gəlməsinə səbəb olur.

4. **Patoloji rol davranışı ailə üzvlərinin özü haqqında formalaşmış sosioneqativ təsəvvürlərdən azad olmaq istəyinin təsiri altında yarana bilər.** Belə patoloji rol davranışına əsasən alkoqol və narkotika düşkünü yaşayan ailələrdə təsadüf olunur. Burada himayəçi ("xilaskar") və himayə olunan ("xilas edilən") rolları meydana gəlir. Fərdə görə, müavinət alan ana və ya qadın spirtli içki içən ailə üzvünü söyür, içkini gizlədir, onun içki dostları ilə qruplaşmasına müxtəlif vasitələrlə maneçilik törətməyə çalışır, daxil olduğu içki qrupu üzvlərini təhqir edir və günahlandırır. Bu halda fərd arvadın və ya ananın səylərini dəyərləndirir və onu alkoqolizimdən və ya narkomaniyadan "xilas" etməyə çalışdıqlarını anladığını söyləyir. Əslində isə bu, qeyri-səmimi münasibətdən və öz əməllərini davam etdirdiyini gizlətməkdən başqa, onu köməksiz və çıxılmaz vəziyyətdə qoyur, lakin o, şəxsi həzzlərindən ayrıla bilmir, şəxsi məsuliyyət hissi zəifləyir.

5. **Ailədə potensial rollar.** "Potensial rol" dedikdə hal-hazırda ailədə istifadə olunmayan, ailə üzvünün təsəvvüründə mövcud olan və gələcəkdə müəyyən şəraitdə icra oluna biləcək rollar nəzərdə tutulur.

Ailə psixologiyasında rolların bölünməsinə gprə, ailə tiplərinin müxtəlif təsnifatları mövcuddur. Rus sosioloqu N.V.Qrebennikova görə, rollarının bölünməsi baxımından 3 ailə tipi vardır:

Mərkəziyyətçi ailə - yaxud, patriarxal çalarlı avtoritar ailələr. Belə ailələrə adətən, cütlüklərin biri, xüsusən kişi başcılıq edir. Ailə həyatı ilə bağlı əsas məsələlərin həllində ali hakimiyyət və son qərar ona məxsus olur.

Avtonom ailə. Ərlə arvad öz aralarında rol bölgüsü aparır və bir-birilərinin işlərinə qarışmırlar.

Demokratik ailə. Belə ailələrin idarə edilməsində ərlə arvadv bərabər ölçüdə hüquqlara malikdirlər və bütün problemləri birgə həll edirlər.

A.İ.Antonov və V.M.Medikov **hakimiyyət kriteriyasına görə** ailə strukturunun aşağıdakı tiplərinin fərqlərindirirlər:

Ailə hakimiyyətinə atanın başçılıq etdiyi **patriarxal ailələr;** ananın nüfuzu və hakimiyyətinin daha üstün olduğu **matriarxal ailələr;** ata və ana arasında dəqiq hakimiyyət bölgüsünün olmadığı və ailə başçısının ifadəli olaraq fərqlənmədiyi **eqalitar ailələr.**

Amerikan sosioloqu K.Kripatrik rol-cins davranışı kontekstində baş verə biləcək münaqişənin qarşısını almaq üçün maraqlı təşəbbüs göstərmişdir. O, ailədə kişi və qaının ənənəvi rollarına "yoldaşlıq rolu", "partnyorluq rolu" kimi yeni əlavələr də etmiş və bu rollara uyğun əsas vəzifələrin aşağıdakı sırasını tərtib etmişdir.

Qadın-ananın vəzifələri:

- uşaq doğmaq və tərbiyə etmək;
- ev, mənzil yaratmaqda kişini dəstəkləmək;
- ailəyə xidmət göstərmək;
- öz şəxsi maraqlarını sədaqətlə ərinin maraqlarına tabeetmək;
- asılı olduğu sosial və iqtisadi statusa uyğunlaşmaq;
- məhdud fəaliyyət sahəsində daim səbrli olmaq.

Kişi - atanın vəzifələri:

- öz uşaqlarının anasına qarşı sədaqətli olmaq;
- ailənin iqtisadi təhlükəsizliyi və müdafiəsini təmin etmək;
- ailədə hakimiyyəti və nəzarəti təmin etmək;
- ailədə hakimiyyəti və nəzarəti təmin etmək;
- əsas qərarların qəbulunda son söz sahibi olmaq;
- ailəyə sədaqətli olduğu üçün qadınına hörmət etmək və emosional minnətdarlıq göstərmək; boşanma halı baş verdikdə aliment ödəmək.

Rol – cins davranışı fərdin cinsi özündərketməsi əsasında öz cinsi üçün xarakterik olan seksual davranış modelini – kişi və qadın cinsindən olan şəxslərə təqdim olunan normativ tələblərin və gözləmələrin spesifik məcmusudur.

Feminist kişilər sosial baxımdan cəmiyyətə daha yaxşı uyğunlaşırlar. Öz yumşaq rəftarları,evdarlıqları ilə seçilən feminist kişilər özlərini mətbəxt işlərində, geyim modelçiliyi və dərzilikdə daha yaxşı təsdiq edə bilirlər. Onlar nikaha daxil olduqdan sonra öz xanımlarını ev işlərindən azad edir və bu sahədəki ağırlığı öz çiyinlərinə götürürlər.

Maskulinist qızlarda cinsi yetişmə, o cümlədən menustrasiyanın başlanmasında və süd vəzilərinin formalaşmasında gecikmələr nəzərə çarpır. Onların psixoseksual inkişafında erotik və ya platonik məhəbbət fazaları ləngiyir. Əsas səbəb belə qızların kiçik yaşlarında daha çox oğlan mühitində böyüməsi, tərbiyə edilməsi və ya ünsiyyətdə olmalarıdır. Ailənin sonbeşiyi yeganə oğlan olduğu və ya olmadığı, əsasən kənd ailələrində ailənin qız uşaqları atalarına kiçik yaşlarında ailənin ağır təsərrüfat işlərində kömək etmək məcburiyyətində qaldığından onların bədən orqanlarının formalaşmasında deformasiyalar və zərifliyin itirilməsi üçün əlverişli şərait yaranır. Böyüdükdən sonra qız mühitində ünsiyyətdən təcrid olunan qızlar seksual-erotik cazibədərlıqlarını itirir və nəticədə oğlanların intim münasibətləri ilə bağlı situasiyaları qiymətləndirməkdə çətinlik çəkirlər.

Mövzu 14: Boşanma ailə münasibətlərinin pozulmasının nəticəsi kimi

Plan:

1. Boşanma evli cütlüklər ailə ilə bağlı qanunlara son qoyulması haqqında.
2. Boşanma problemi müasir ailədə qarşılıqlı münasibətin pozulması kimi.
3. Xəyanətə əxlaqsızlıq kimi baxmaq olarmı.

1. Boşanma evli cütlüklər arasında ailə ilə bağlı qanunla nəzərdə tutulan məsuliyyətlərə son qoyulmasıdır. Bu hal məhkəmə qərarı ilə rəsmləşdirilir. Boşanma qarşılıqlı sevgiyə , güvənə, xoşbəxtlik gözləmələrinə əsaslanan nikahdan narazılığın hüquqi forma almış ifadəsidir.

Istənilən digər sosial-psixoloji hadisələr kimi, boşanmalar da, adətən, obyektiv və subyektiv səbəblərlə bağlıdır. Bəzi soioloqların fikrinə görə, boşanmanı şərtləndirən əsas amillər həyat tərzinin urbanizasiyası, əhalinin miqrasiyası, ölkənin sənayeləşməsi, **qadınların emansipasiyasıdır.** Bütün bu amillər cəmiyyətdə sosial nəzarəti aşağı salır, insanların həyatını əhəmiyyətli dərəcədə avtonomlaşdırır. Bu isə öz növbəsində bəzi hallarda məsuliyyətin, cütlüklərin bir-birinə qarşı davamlı bağlılıq və qayğı hissinin itməsinə səbəb olur. Lakin bütün sadalananlar problemin ümumi fonudur. Müasir cəmiyyətdə sosial nəzarəti aşağı salır, insanların həyatını əhəmiyyətli dərəcədə avtonomlaşdırır. Bu isə öz növbəsində bəzi hallarda məsuliyyətin, cütlüklərin bir-birinə qarşı davamlı bağlılıq və qayğı hissinin itməsinə səbəb olur. Lakin bütün sadalanlar problemin ümumi fonunda. Müasir cəmiyyətdə çoxsaylı möhkəm, davamlı, uzunömürlü ailələrlə yanaşı, müvəqqəti, iflasa doğru gedən nikah ittifaqları heç də az deyildir.

Boşanma münasibət lap qədim dövrlərdə istənilən cəmiyyətlərdə müzakirə mövzusu olmuşdur. İnsanların yalnız nikaha daxil olmaq hüququnun deyil, həm də boşanmaq hüququnun tanınması demokratik cəmiyyətlərin göstəricilərindən biridir. Boşanma hüquq haqqında qanun, boşanmaya, boşananlara və boşanan ailələrin uşaqlarına münasibətdə formalaşan ictimai rəy ölkələrin ictimai-siyasi münassibətləri sistemi, mövcud mədəni, milli ənənələr, xalqların sosial-psixoloji xüssusiyyətləri ilə sıx bağlıdır.

XX əsrə qədər bir çox ölkələrdə boşanma kişilər üçün yol verilən bir həyat norması hessab edilir, qadınların bu hüquq tanınmır, onlara kölə münasibəti hökm sürürdü. Ayrı-ayrı xalqlarda qadının boşanma iddiası ilə etməsi pis qarşılanır, bu əxlaqi baxımdan yolverilməz bir hərəkət hesab edilirdi.

Vaxtilə A.Bebel yazırdı ki, hər hansı ölkənin qanun və ənənələrinə bilmədən yalnız boşanmanın az olması faktına görə həmin ölkə haqqında fikir söyləmək olmaz. Məsələn, katolik kilsəsinin təsirinin güclü olduğu ölkələrdə boşanma qadağan edilmişdir və bu ölkələrdə boşanmaya əngəl yaratmayan ölkələrə müqayisədə boşanma hallarına az təsadüf olunur. Bəzi ölkələrdə boşanma yalnız "günah prinsipi" əsasında həyata keçirilir, yəni məhkəmə ər-arvaddan birinin ər-

arvad vəfassızlığında, öz vəzifələrini yerinə yetirməməkdə, xəyanətdə günahkar olduğunu sübuta yetirməlidir.

Respublikamızda boşanma ailə və nigah münasibətlərini ailənin gələcəkdə saxlanılmasının mümkünsüzlüyü çərçivəsində "Ailə" və "Mülki" məcəllələr əsasısnda VVADQ orqanları və məhkəmələr tərəfindən ər və ya arvaddan birinin müraciəti əsasında həyata keçirilir.

2. Boşanma ərlə arvad arasındakı ciddi konfliktlərin geniş yayılmış həlli üsulu kimi həmişə mövcud olmuşdu. Boşanmaya münasibətin dəyişməsi bir çox cəhətdən qadınların iqtisadi vəziyyətinin yaxşılaşması ilə bağlıdır. Əgər qdının daimi işi varsa, özünü və uşaqlarını asanlıqla təmin edə bilirsə, o, münaqişələrin baş alıb getdiyi ailədə yaşamaqdansa boşanmaya üstünlük verir.

Boşanma problemi müasir ailədə qarşılıqlı münasibətlərin xarakterində baş verən dəyişikliklərlə sıx bağlıdır. Yeni yaranan ailə modellərində münasibətlərin pozulmasının xüsusi formaları meydana gəlir. Əgər ənənəvi nikahda boşanma hadisəsi hüquqi, iqtisadi, psixoloji planda baş verirdisə, ailə münasibətlərinin müasir formalarında boşanmadan sonra da onun psixoloji aspektləri nəinki saxlanılır, hətta ön plana keçir. Məşhur sosioloq N.M.Rimaşevskayanın qeyd etdiyi kimi, boşanma problemi və ailənin taleyi cəmiyyətin həyatının keçid dövründə qeyri-adi və ciddi əhəmiyyət kəsb etməyə başlayır.

Son illər ölkəmizdə boşanmaların və nikahdankanar doğumların sayı artır ki, bu da natamam ailələrin sayının çoxalmasına səbəb olur. Demoqrafların qənaitinə görə, qeydə alınmış hər beş nikahdan biri boşanma ilə ləğv olunur. Boşanmaların 30 % 5 ildən az nikah yaşı olan gənc ailələrdə baş verir.

Rus sosioloqu V.V.Solodnikovun otən əsrin 90-cı illərinin ssonunda apardığı tədqiqatların nəticələrinə görə boşanma öncəsi vəziyyətlərdə kömək üçün cütlüklər ailə və nikah məsləhətxanalarına deyil, daha çoh qohumlara və dostlara müraciət edirlər. Cütlüklərdən 75% analara , 51,8% dostlara, 39,2% atalara, 10,2% hüquqşunalara, yalnız 49% psixoloq v ə həkimlərə müraciət edirlər.

3. Dünyanın bir çox ölkələrində boşanmanı şərtləndirən motivlər sırasında **ər-arvad xəyanəti** aparıcı amil hesab edilir. Statistikaya görə, respublikamızda boşanma səbəbləri içərisində ər-arvad sədaqətinin pozulması nəticəsində boşanma bütün digər səbəblərin təxminən 25%-ni təşkil edir. Ə-arvad sədaqətinin, məhəbbətin qənimi olan xəyanət ər-arvad hissləri zonasına toxunur. Müasir ailə üçün məhəbbət nikaha daxil olmaq, ailəni təşkil etməyin və onun mövcudluğunu təmin etməyin əsası və aparıcı motividir. Xəyanət ailədə müxtəlif ziddiyətlərə, konfliktlərə ər-arvad arasında disharmoniyaya səbəb olur. Müasir dövrdə ər-arvad xəyanətinə hər cür ailə tiplərində-həm firavan, dayanaqlı münasibətləri olan, həm konfliktli, həm problemli, həm də ər-arvad arasındakı münasibətlərin praktiki olaraq pozulduğu böhranlı ailələrdə təsadüf olunur.

Xəyanət əksər hallarda ailənin dağılmasının, həm də doğulma ərəfəsində olan münaqişəli ailələrdəki qeyri-simpatik münasibətlərin nəticəsidir. Yeni qurulmuş gənc ailələrlə yanaşlı, orta və uzun ömürlü ailələrdə də xəyanət hallarına təsadüf olunur. Gənc ailələrdə baş verən xəyanət ər-arvadın yüngülağıllılığı, qeyri-yetkin olması, mənəvi düşkünlüyü, alkoqolizm və narkomaniya, cütlüklərin müqəddəs ailə dəyərlərini kifayət qədər anlaya bilməməsi ilə bağlıdır. Burada insanların ümumi mədəni, estetik və əxlaqi tərbiyəlilik səviyyəsi də vacib amil kimi nəzərdən keçirilməlidir. Bütün dövrlərdə kişinin mədəniyyəti, onun şərəf və ləyaqəti onun qadına olan münasibət səviyyəsi ilə müəyyən edilmişdir. Əsil mədəniyyət isə əslində qadını hər şeydən əvvəl dost, şəxsiyyət kimi görmək və ona hörmətli yanaşmaqla müəyyən olunur.

Xəyanətə hec də əxlaqsızlıq kimi baxmaq olmaz. Əgər ailədə tez-tez təkrarlanan qeyri-normal münasibətlər, şübhələr, qısqanclıq, qalmaqallar mövcuddursa, xüyirxahlıq, mehribanlıq, qayğı, qarşılıqlı anlaşma, hörmət, kədər şəriklik, ən nəhayət, sevgi yoxdursa, bu tərəflərdən birinin bu boşluğa kənarda olan başqa bir adamda axtarmağa təhrik edir. Bir səra müasir sosial-psixoloji tədqiqatlarda ər-arvad xəyanətinin səbəblərinin təhlilinə təşəbbüslər göstərilmişdir. Həmin səbəbləri əks etdirən təsnifatlardan birinə diqqət yetirək:

1.**Yeni məhəbbət.** Ər-arvad xəyanətinin bu səbəbi məhəbbətin qətiyyən olmadığı və ya əhəmiyyətsiz olduğu nikahlarda özünü göstərir.

2. **Qarşılıqlıq.** Ailədə xəyanət etmiş tərəfin acığına digər tərəf də xəyanət etməklə, qisas almaq istəyində olur və bununla da özünün gərəksiz olmadığını və şəxsi ləyaqət hissini bərpa etmək istəyir.

3. "Alçaldılmış məhəbbət". Nikah münasibətlərində qarşılıqlı məhəbbət olmadıqda, cütlüklərdən biri öz sevgisinin qarşılığını ala bilmədiyindən əziyyət çəkir. Belə vəziyyət ər və ya arvadı onu anlayan başqa bir tərəfdaşla münasibətlər qurmağa təhrik edir.

4. **Yeni sevgi təəssüratları axtarmaq.** Bu, adətən, çoxillik ailə təcrübəsinə malik cütlüklərin həyatında müşahidə olunur. Belə ailələrdə, adətən yaşlaşmış, maddi durumu yaxşı olan kişilər yeni sevgi macəraları yaşamaq istəyirlər. Adətən, ər-arvadlıq həyatının 25-30-cu illərində belə hallar daha çox təsadüf olunur.

5. **Ailənin kütləvi iflası.** Burada xəyanət qeyri-leqal yəni ailənin yaranması ilə bağlı olur. Bu halda xəyanət birinci ailənin həyat qabiliyyətinin olmaması kimi qavranılması, faktiki olaraq yeni ailənin yaradılmasının nəticəsi kimi özünü göstərir.

6. **Təsadüfi əlaqələr şəklində baş verən xəyanət** heç də dərin sevgiyə əsaslanmır, ardıcıl və müntəzəm xarakter daşımır, əksinə təsadüfi tanışlıq "həzz məqamları", fürsətlə bağlı olur.

Mövzu 15. Ailədə uşaqlara qarşı zorakılıq psixi travma mənbəyidir.

Plan:

4. Hər bir cəmiyyətdə uşaqlar xüsusi qayğı obyekti kimi.
5. Uşaqlarla qəddar rəftar edilməsinin əsas səbəbləri.
6. Depresiya şəraitdə böyüyən uşaqlar.

4. Hər bir cəmiyyətdə uşaqlar xüsusi qayğı obyekti kimi qəbul edilsə də, hələ də onlara qarşı müxtəlif zorakılıqların kökü kəsilməmiş, uşaq hüquqlarının qorunmasında etibarlı hüquq sistemi formalaşmamışdır. Həm ailədə, həm müxtəlif ictimai təlim-tərbiyə müəssisələrində, həm də bütövlükdə cəmiyyətdə uşaqlara qarşı fiziki, emosional, psixoloji və aktual xarakterli zorakılıqlara heç də az təsadüf olunmur. Yaşlıların fikrincə, uşağa verilən fiziki cəza onun intizama tabe edilməsinin, xoşagəlməz davranışdan uzaqlaşdırılmasının təsirli vasitəsidir. Çox vaxt məktəbdə zorakılıq vasitəsi olan fiziki cəzaya məruz qalan uşaqlar bunu etdikləri qəbahətli, intizamsız hərəkətlərə cavab kimi qavrayır və bu barədə heç kimə şikayət etmirlər. İctimai şüurda fiziki cəzanın tərbiyə vasitəsi olmaması haqqında dəqiq təsəvvürlərin olmaması belə "tərbiyə üsulu"nun əsrlər boyu yaşamasına və bugünədək gəlib çıxmasına səbəb olmuşdur. Bu məsələdə kütləvi informasiya vasitələrinin də günahı çoxdur. Müxtəlif televiziya kanalları və kompyuter oyunları ilə nümayiş etdirilən filimlərdə və digər verişlərdə praktik olaraq zorakılığın təbliğatı geniş yer tutur. Belə verişlər uşaq və yeniyetmələrin əxlaqi şüurunda zorakılığın yol verilən bir hal olması rəyini doğurur. Uşaqlar filimlərdə gördükləri zorakı səhnələri öz məqsədləri üçün gündəlik həyatda təkrarlaya bilərlər. Konstitusiyada vətəndaşların təsbit edilmiş şəxsi toxunulmazlıq hüququnun tapdanması ilə müşayət olunan zorakılıq halları çox vaxt ağır cinayətlərin baş verməsinə səbəb olur. Zorakılığın artmasına səbəb olan amillər sırasında cəmiyyətdə zorakılığın ciddi sosial problem kimi qəbul edilməməsi, əhalənin hüquqi savadının aşağı səviyyədə olması, uşaqların öz hüquqları haqqında lazımi məlumatlara malik olmaması və s.qeyd etmək olar.

Uşaq zorakılıqla ilk dəfə ailədə üzləşir. Bu halın yaranmasında ailə-məişət zorakılıqları **situativ** (ailə münasibətlərinin pozulması, aşağı özünüqiymətləndirmə, uşağın doğulmasının arzu edilməməsi) və **struktur** (işsizlik, sosial təcrid, maliyyə çətinlikləri) kimi stressorların təsiri olduqca böyükdür.

Ailənin gəlirlərinin az olması və daimi pul çatışmazlığı ailə üzvlərinin əsas tələbatlarının ödənilməsinə əngəllər yaradır və ailədaxili münasibətlərdən gərginliyi artır. İ.sizlik və ya daimi işin olmaması, atanın az əməkhaqqı alması, ailə üzvlərinin (xüsusilə, həddi-buluğa çatmamış) çoxluğu, valideynlərin gənc

olması, valideynlərdən birinin yoxluğu (natamam ailə), pis mənzil şəraiti, ailə başçılarının müəyyən qrup azlığına təmsil olunması (müəyyən dini icma və sektanın üzvü olması) ailədə xroniki stresslərin, davamlı ailədaxili münagişələrin yaranmasına səbəb olur.

5. Psixoloqlar (Brovne və Ştraus) ailədə uşaqlarla qəddar rəftar edilməsinin əsas səbəblərini aşağıdakı amillərlə izah edirlər:

16. Ailənin natamamlığı və çoxuşaqlı olması;
17. Ailədə ögey ata və ya ögey uşaqların olması;
18. Ailə üzvləri arasında konfliktli və ya zorakı münasibətlər;
19. Ər-arvad arasındakı problemlər;
20. Valideynlərin tərbiyə üsullarında varislik;
21. Valideynlərlə uşaqların qarşılıqlı münasibətlərində problemlər;
22. Ailənin emosional və fiziki baxımdan təcrid olunması;
23. Valideynlərin fərdi psixoloji xüsusiyyətləri (depressivlik, aqressivlik, impulsivlik, şübhə meyllilik, emosional labillik, qapalılıq, aşağı özünüqiymətləndirmə və s.);
24. Valideynlərin ətrafdakılara və uşağa neqativ münasibəti;
25. Sosial vərdişlərin aşağı səviyyədə olması;
26. Valideynlərin psixi sağlamlığı;
27. Valideynlərin alkoqoliamə və narkomaniyaya aludə olması
28. Sağlamlıqla bağlı problemlər;
29. Emosional kütlük və əqli gerilik;
30. Valideynlik vərdişləri və hisslərinin inkişafında qalması.

Valideynlərin uşaqlara qarşı zorakı münasibətlərinin yaranmasında risk faktorunun artıran amillər sırasında uşağın şəxsiyyətinin bir sıra xüsusiyyətlərinin, fiziki və psixi inkişaf problemlərinin də adı çəkilir. Ailələrdə ən çox aşağıdakı xüsusiyyətlərə malik uşaqlar zorakılıqlara üzləşirlər:

- Arzuolunmaz, eləcə də əvvəlki uşağın itkisindən sonra doğulan uşaqlar;
- Patoloji çəki azlığı ilə doğulan uşaqlar;
- Coxuşaqlı ailədə yaşayan və aralarında yaş fərqi az olan uşaqlar;
- Psixi və fiziki qüsurlarla, xroniki və irsi xəstəliklərlə doğulan uşaqlar;
- Dalğın və davranışında qüsurlar olan (yuxu pozğunluğu, hiperaktivlik, coşğunluq, impulsivlik və epurez) uşaqlar;
- Valideynlərin əsəblərinə təsir edən pis vərdişləri olan uşaqlar;
- Sosial vərdişləri aşağı səviyyəli uşaqlar;öz xarici görkəmi, səliqə-səhmanı ilə valideynlərə utanc gətirən, rol-cins davranışında qüsurlar olan uşaqlar;

- Anada kəskin doğuş ağrılarının və ya cərrahi müdaxilənin yaranmasına səbəb olmuş
- Dul qalan qadınlar daha uzun ömür yaşayırlar

6. Emosional depresiya şəraitində böyüyən uşaqlar isə, əksinə, çox vaxt bu mühitin qurbanı olurlar. Asosial amillərin üstün olduğu ailələrdə daim konfliklər fonunda emosional həyat yaşanır. Aqressiya, dava, zorakılıq belə ailələrin gündəlik həyat tərzində çevrilir. Nəticədə, belə ailələrrə üz verən bədbəxtliklərə qarşı uşaqlarda etinasızlıq yaranır, sanki onların hissləri "donmuş" olur. Erkən uşaqlıq illərindən valideynlərin qadağaları, haray-qışqırıqları ilə üz-üzə qalan uşaq başqalarının kədərinə şərik olmaq, uğurlarına sevinmək kimi hisslərə sahib ola bilmir, onlarda empatiya (başqasının halına acımaq) qabiliyyəti zəif inkişaf edir. Yaşa dolduqdan sonra belə uşaqlar nəinki başqaadamların hisslərini anlayır, ümumiyyətlə bundan uzaq olmağa, qorxmağa başlayırlar. Psixoloqların fikrincə, uşağa qarşı münasibətdə aşağıdakı hərəkətlər **emosional zorakılıq hərəkətləri** sayılır:

- uşağın normal sosial ünsiyyətdən təcrid edilməsi;
- uşağın qarşılaşdığı problemin həllindən imtina etmə;
- "qadağalarla alver" (məsələn, uşaq müəyyən edilmiş vaxtda dərslərini oxumamış və ya, çarpayını yığışdırmamışsa, onun müəyyən müddət gəzməyə getməkdən və ya televizora baxmaqdan məhrum edilməsi);
- Uşağın təhgir edilməsi;
- Uşağın dəftərlə təhgir edilməsi vasitəsilə ondan stabil qorxu hisslərinin yaradılması;
- Daim qorxu və hədə altında saxlanması;
- Cəza ilə qorxutma (Bir də "2" aslan, mən kəmərə əl atmalı olacağam);
- Söyüş və ələsalma;
- Mənəvi zorlama, uşağı ictimai normaları pozmağa, ona mənəvi zərbə vura biləcək hərəkətlərə-oğurluğa, alkoqolizmə, narkomaniyaya, təhlükəli vasitəçiliyə və s. təhriketmə:

Uşağın emosional zorakılığa məruz qalması özünü onun bir sıra fiziki və davranış reaksiyalarında göstərir:

- emosional kütlük və laqeydlik;
- qəmginlik və ifadəli depressiya;
- barmaqları sovurma, menoton yırğalanma (auteopotik hərəkətlər);
- hisse qapılma və ya əksinə aqressivlik;
- istilik və diqqət axtarışı ilə istənilən yaşlıya "yapışma";
- gecə yuxu qorxuları, pis yatma;

- oyuna marağın olmaması.

Emosional zorakılığa məruz qalmış uşaqlarda artan fizioloji reaktivlik fonunda gündüz və ya gecə epurezi (sidikburaxma), psixosomatik mənşəli şikayətlər-baş, mədə və ürək sahəsində ağrılar, fiziki və ümumi inkişafın zəifləməsi halları müşahidə olunur. Uşağın fiziki və emosional şəraitdə tərbiyəsi şəxsiyyətin deformasiyasına gətirib çıxarır. Daim zorakılığa məruz qalan uşaqda valideyinlərinin onu sevmədikləri haqqda ona rəe formalaşır, arzuolunmaz adam olduğu qənaəti yaranır, o, daim utancaqlıq və günah hissi ilə yaşayır, sanki dünyaya gəldiyinə peşiman olur. Emosional zorakılığın qurbanına çevrilmiş uşağa elə gəlir ki, o, hamı üçün pis və əhəmiyyətsiz bir adamdlr.

Uşağa qarşı **psixoloji zorakılıq** onun potensial qabiliyyətlərinin inkişafının ləngidilməsinə və ya zərər vurulmasına yönəlmiş hərəkətlərdir.

Psixoloji zorakılığa ailədə tez-tez baş verən münaqişələri, uşağa qarşı valideynlərin ağlasığmaz hərəkətlərini misal göstərmək olarş. Psixoloji zorakılıq həm də, öz mahiyyəti etibarlı ilə mənəvi zorakılıqdır və o, uşağın intellektual inkişafını ləngidir, idrak proseslərini və adaptasiya qabiliyyətlərinin adekvat inkişafının təhlükə altında qoyur.